Xalqın qəzeti!

# Xalq qəzeti

№ 180 (30874) 27 avqust 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti




# Qarabağ və Şərqi Zəngəzurun “yaşıl” gücü artır

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpaolunan mənbələrdən istifadə edilərək, dayanıqlı enerji istehsalına yönələn genişmiqyaslı layihələr həyata keçirilir. Bölgədə “yaşıl” texnologiyaların tətbiqi əsasında hazırda elektrik enerjisi istehsalı layihələrinin icrası davam etdirilir.**

Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzuru “yaşıl” enerji zonası elan edib. Dövlətimizin başçısının 2021-ci ildə imzaladığı müvafiq sərəncamla işğaldan azad olunan ərazilərin bərpası üzrə konsepsiya hazırlanıb. Eyni zamanda, Nazirlər Kabinetinin 2022-ci il 21 iyun tarixli sərəncamı ilə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə “yaşıl” enerji zonasının yaradılması üzrə Tədbirlər Planı” təsdiqlənib.

*(ardı 8-ci səhifədə)*

## “Rüzgarında dan sökülən, üzü gülən Kəlbəcərim”



**Prezident İlham Əliyevin avqustun 21-də Kəlbəcərə növbəti səfərindən sonra bu dağlar diyarının tərifi dillərdən düşmür. Hamı və hər kəs bir daha gördü ki, artıq bu cənnətməkan yer təkcə Azərbaycanın və Qafqazın coğrafiyasında yox, dünya miqyasında unikal inkişaf məkanına çevrilir. Həmin gün 27 ildən çox yurd həsrəti çəkmiş ulu diyarın övladları, nəhayət, ata-baba ocaqlarına qayıdaraq, orada həyatın yeni nəfəsini hiss etdilər. Prezident İlham Əliyev onlarla görüşündə “Əziz kəlbəcərlilər, Kəlbəcərə xoş gəlmisiniz!” – deyərək, tarixi gün – Böyük Qayıdış münasibətilə təbriklərini çatdırdı.**

**(ardı 9-cu səhifədə)**

## Ağ Evin daxili siyasətində keçmiş “erməni amili”

*Yaxud demokrat eks-dövlət katibinin köməkçisinin gecikmiş etirafı*



**Artıq gizlinlərin aşkara, hər şeyin gün işığına çıxdığı mərhələ başlanıb. Cənubi Qafqazda son illərin geosiyasi prosesləri göstərir ki, “böyük güclər”in yanaşmaları təkcə regional maraqlarla deyil, həm də daxili siyasi faktorlarla müəyyən olunurmuş. ABŞ-ın keçmiş dövlət katibinin köməkçisi Ceyms O’Brayenin “European Council of Foreign Relations” jurnalında dərc edilən məqaləsi bu reallığın bariz nümunəsidir. Yəni, O’Brayen erməni amilindən Ağ Evə təsir rıçağı kimi istifadə olunduğunu etiraf edir. Bu isə rəsmi Vaşinqtonun daxili siyasətdə üzləşdiyi və ABŞ-dakı erməni diaspor təşkilatları tərəfindən seçkidən-seçkiyə gündəmə daşınan təzyiq mexanizminə uyğun hərəkət etdiyini şərtləndirirmiş.**

**(ardı 5-ci səhifədə)**

# Ermənistan tələsməlidir – “böyük qatarlar” vağzallarda çox qalmır

*Çindən Böyük Britaniyaya yol Azərbaycan və Türkiyədə açıqdır*

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngəzur dəhlizi ilə bağlı mühüm açıqlama verib. Qardaş ölkə lideri Kars – İğdır – Aralık – Dilucu dəmir yolu xəttinin tikintisinə başlandığını elan edib və bildirib ki, bu layihə “Zəngəzur dəhlizinin əsas elementi” olacaq.**

**(ardı 3-cü səhifədə)**



# Regionda iqtisadi güc




**Səhifə ⇨ 7**

## Sülh və seçki

*Həm cəmiyyət, həm də baş nazir Paşinyan üçün tarixi dönüş anı*

**Ermənistanda 2026-cı ilin iyununda keçiriləcək parlament seçkiləri ölkənin siyasi gələcəyinin həlledici mərhələsi olacaq. İstər daxili siyasi balans, istərsə də xarici siyasət vektorlarının müəyyənləşməsi baxımından seçkilərin taleyi birbaşa sülh gündəliyindən asılıdır.**



Növbəti parlament seçkiləri, sadəcə, hakimiyyətin dəyişib-dəyişməməsi ilə bağlı proses deyil. Seçkilər ölkənin siyasi gələcəyini, strateji identifikasiyasını və regional geosiyasi mövqeyini müəyyənləşdirəcək həlledici mərhələ kimi qiymətləndirilir. Faktiki olaraq cəmiyyət seçki məntəqələrinə yalnız partiya rəqabətinə şahid olmaq üçün getməyəcək; əsas məsələ dövlətin qarşıdakı onilliklərdə hansı kursla hərəkət edəcəyinə dair qərarın verilməsidir.

Mövcud kontekstdə baş nazir Nikol Paşinyanın ritorikası diqqət çəkir. O, seçkiləri “müharibə və sülh” dilemması üzərindən yox, “sülh və sülhsüzlük” tandemi üzərindən izah edir. İlk baxışda bu, sadəcə, semantik fərq kimi görünə bilər. Ancaq, əslində, böyük simvolik və siyasi yüklə müşayiət olunur. Paşinyan bununla demək istəyir ki, Ermənistan üçün müharibə artıq real seçim deyil; qarşıda duran yeganə seçim davamlı sülhün əldə olunub-olunmaması ilə bağlıdır. Paşinyanın yanaşması həm daxili auditoriyaya ünvanlanmış inandırma vasitəsi, həm də beynəlxalq ictimaiyyətə verilən siyasi mesajdır. Burada təbii olaraq sual yaranır: Paşinyan niyə belə ritorikaya üstünlük verir? Cavab aydındır: o, özünü seçicilərə “sülhün alternativsiz lideri” kimi təqdim etmək istəyir. Əgər seçicilər bu mesajı qəbul edərlərsə, Paşinyan sülhün və sabitliyin sinoniminə çevrilir. Nəticədə, bu amil seçki kampaniyasında onun üçün ən güclü arqument rolunu oynaya bilər.

**(ardı 4-cü səhifədə)**

## Paşinyanın ritmi Ermənistanın ahəngi olacaqmı?

*Baş nazir əvvəlki qaydalarla yaşamamağı təlqin edir*



**Əslində, Ermənistanın baş naziri Nikol Paşinyanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərin rəhbərləri ilə keçirilmiş ənənəvi illik müşavirədə səsləndirdiyi fikirlər onun əvvəllər dilə gətirdiklərinin davamıdır. Qeyd edək ki, baş nazir hakimiyyətdə olduğu müddətdə dəfələrlə erməni varlığının dünyaya, o cümlədən yaxın ətrafa, yəni qonşularına baxışının düzgün qurulmadığına dair açıq və qapalı mesajlar səsləndirib.**

**(ardı 5-ci səhifədə)**

# Keçmiş məcburi köçkünlər Birinci vitse-prezident Mehriban Əliyevanı təbrik ediblər




**Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qaçqınlara və məcburi köçkünlərə həssas münasibəti, onların sosial məsələlərinin həllinə, təhsilinə, sağlamlığına diqqət və qayğısı mühüm yer tutur.**

Prezident İlham Əliyevlə birlikdə Qarabağa və Şərqi Zəngəzura hər səfərində Mehriban xanımın doğma yurd yerlərinə qayıdan insanlarla səmimi görüşləri, söhbətləri unudulmaz hadisəyə çevrilir. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu işğaldan azad edilmiş ərazilərdə mədəni-tarixi irsin bərpasında fəal iştirak edir, mənəvi dəyərlərimizin qorunmasına və zənginləşdirilməsinə sanballı töhfələr verir.

Keçmiş məcburi köçkünlər istər didərginliyin çətinliklərini çəkdikləri dövrdə, istərsə də indi Böyük Qayıdışın sevincini, doğma yurda qovuşmaq xoşbəxtliyini yaşadıqları günlərdə onlara göstərdiyi diqqət və qayğıya görə Mehriban xanıma minnətdardırlar. Qarabağdan, Şərqi Zəngəzurdan əziz və hörmətli Mehriban xanıma ad günü münasibətilə ünvanlanan təbriklər bu səmimi duyğunun bariz ifadəsidir.

*XQ*

# Nazirlər Kabinetinin Prezident İlham Əliyevin Vaşinqton səfərinə həsr olunmuş xüsusi iclası

**Avqustun 26-da Nazirlər Kabinetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tarixi Vaşinqton səfərinə həsr olunmuş xüsusi iclası keçirilib.**

Nazirlər Kabinetindən XQ-yə bildiriblər ki, iclası giriş nitqi ilə açan Baş nazir Əli Əsədov Azərbaycan Prezidentinin bütün dünyanın diqqət mərkəzində olan triumfal Vaşinqton səfərinin ölkəmizin beynəlxalq siyasi arenada nüfuzunu və mövqeyini daha da gücləndirməklə yanaşı, regionda uzunmüddətli sülhün təmin olunması istiqamətində yeni perspektivlər açdığını bildirib. Azərbaycanın diplomatiya tarixinə qızıl hərflərlə yazılan 8 avqust Zəfərinin Prezident İlham Əliyevin güclü liderliyinin, qətiyyətinin və prinsipiallığının məntiqi nəticəsi olduğu vurğulanıb.

Vaşinqtonda keçirilmiş görüşlərin və imzalanmış sənədlərin əhəmiyyəti barədə bəhs edən Baş nazir səfərin bir tərəfdən Azərbaycan–ABŞ əlaqələrinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması, digər tərəfdən isə Azərbaycanla Ermənistan arasında uzunmüddətli sülhün təmin edilməsi istiqamətində mühüm addımların atılması ilə əlamətdar olduğunu diqqətə çatdırıb.



"Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" (TRIPP) ilə bağlı əldə edilmiş razılığın əhəmiyyəti vurğulanaraq, layihənin Azərbaycan Respublikasının əsas hissəsi və Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin etməklə yanaşı, regionda nəqliyyat əlaqələrinin inkişafına, ticari-iqtisadi əməkdaşlığın genişləndirilməsinə təkan verəcəyi diqqətə çatdırılıb. Bununla əlaqədar olaraq, müvafiq tapşırıqların icrası üçün hökumət tərəfindən gündəlik əsasda işin həyata keçirilməsinin zəruriliyi qeyd edilib.

Daha sonra Baş nazirin müavini Şahin Mustafayevin, xarici işlər naziri Ceyhun Bayramovun, iqtisadiyyat naziri Mikayıl Cabbarovun və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin çıxışları dinlənilib.

İclasda Azərbaycan Respublikası Prezidentinin Vaşinqton səfərinin nəticələrindən irəli gələrək hökumət qarşısında duran vəzifələr müəyyən edilib.

*XQ*

# Heydər Əliyev Fondunun uşaqlar üçün əyləncə proqramı



**Avqustun 26-da Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Bakının müxtəlif əyləncə məkanlarında uşaqlar üçün şənliklər keçirilib.**

Kütləvi şənliklərdə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizədə qəhrəmancasına həlak olmuş şəhidlərimizin övladları, eləcə də valideyn himayəsindən məhrum, internat məktəblərində tərbiyə alan, sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyac duyan uşaqlar iştirak ediblər. İstirahət məkanlarına xüsusi avtobuslarla gətirilən uşaqlar onlar üçün təşkil edilən əyləncələrdən zövq alıb, müxtəlif oyunlara, ustad dərslərinə qatılıb, rəqslərə qoşulublar.

İsti yay günündə uşaqlar həm də hovuzda doyunca əylənib, müxtəlif oyunlarda, o cümlədən köpük şouda iştirak ediblər. Günboyu davam edən tədbirlər çərçivəsində uşaqlar üçün nahar süfrəsi də təşkil olunub. Ad günləri bugünkü tarixə təsadüf edən uşaqlar isə bu özəl günü həmyaşıdları ilə birlikdə şənlənərək qeyd ediblər.

Sonda gözəl istirahət günündən xatirə olaraq hər bir uşağa Heydər Əliyev Fondunun hədiyyələri təqdim edilib. Uşaqlar onlar üçün yaradılmış mənalı və yaddaqalan istirahət və əyləncə proqramı üçün Heydər Əliyev Fondunun ünvanına xoş sözlətr söyləyiblər.

Xatırladaq ki, Heydər Əliyev Fondunun gördüyü işlər sırasında valideyn himayəsindən məhrum, eləcə də xüsusi qayğıya ehtiyac duyan uşaqların, həmçinin şəhidlərimizin bizə əmanəti olan övladlarının diqqətdə saxlanılması, həssas kateqoriyaya aid uşaqların hərtərəfli qayğı ilə əhatə edilməsi xüsusi yer tutur. Fond mütəmadi olaraq bu uşaqlar üçün əyləncəli tədbirlər keçirir, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində səylərini davam etdirir.

*XQ*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2025-ci ilin sentyabr ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| Baş nazirin birinci müavini<br>Eyyubov Yaqub Abdulla oğlu | 1 |
| Baş nazirin müavini<br>Mustafayev Şahin Abdulla oğlu | 2 |
| Baş nazirin müavini<br>Şərifov Samir Rauf oğlu | 3 |
| Aparatın rəhbəri<br>Məmmədov Rüfət Tofiq oğlu | 4 |
| İqtisadiyyat şöbəsinin müdiri<br>Həsənova Sevinc Telman qızı | 5 |
| Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri<br>Rüstəmli Ruslan Rüstəm oğlu | 30 |
| Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri<br>Paşayev Zakir İlqar oğlu | 9, 23 |
| Hüquq və qanunvericilik şöbəsinin müdiri<br>Qasımlı Xalid Akif oğlu | 10, 24 |
| Sosial məsələlər şöbəsinin müdiri<br>Rəhimov Niyazi Süleyman oğlu | 11, 25 |
| Humanitar məsələlər şöbəsinin müdiri<br>Həbibbəyli Ərəstü İsa oğlu | 12 |
| Sənaye və energetika şöbəsinin müdiri<br>Hacızadə Elşən Mahmud oğlu | 15, 26 |
| Aqrar və ekologiya şöbəsinin müdiri<br>Qasımov Lətif Cəfər oğlu | 16 |
| Regionların inkişafı şöbəsinin müdiri<br>Məcidov İlkin Sabir oğlu | 17 |
| Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri<br>Mustafayev Feyruz Rəvayət oğlu | 18, 29 |
| Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri<br>Pənahov Musa Sədi oğlu | 19 |
| Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri<br>Məmmədov Anar Rəhim oğlu | 8, 22 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

# Xarici ölkə prokurorları Qarabağ Universitetində



**Azərbaycan Respublikasının Baş prokurorunun müavini Heydər Məmmədov MDB-yə üzv dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının icraçı katibi Yuri Nikolayeviç Jdanov, onun müavini Abduraxmon Xotambekov, Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş Prokurorluğunun prokurorları Ahmet Gökay Aktaş və Mustafa Yakar, eləcə də Gürcüstan Baş Prokurorluğunun əməkdaşı Temur Tsindeliani ilə birgə 21–22 avqust tarixlərində Şuşa və Xankəndi şəhərlərinə səfər edib.**

Əvvəlcə Şuşa şəhərində olan qonaqlar Yuxarı Gövhər Ağa məscidini, Molla Pənah Vaqifin muzey-məqbərə kompleksini, Cıdır düzünü və digər tarixi-mədəni abidələri ziyarət ediblər. Qonaqlar şəhəri mədəni və tarixi baxımdan böyük dəyərə malik bir irs nümunəsi kimi dəyərləndiriblər.

Daha sonra səfər Xankəndi şəhərində davam edib. Zəfər meydanı ilə tanışlıqdan sonra qonaqlar Qarabağ Universitetini ziyarət edib və Universitetin rektoru Şahin Bayramov tərəfindən qarşılanaraq onlara təhsil ocağı barədə məlumat verilib, ali təhsil müəssisəsində aparılan işlər, qarşıda duran vəzifələr haqqında ətraflı danışılıb.

*XQ*

**Xuntaçıların məhkəməsi**

# Vardanyanın məhkəməsində zərərçəkmişlərin ifadələri dinlənilib

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi avqustun 26-da davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında zərərçəkmişlərin və onların hüquqi varislərinin ifadələri dinlənilib. Qasim Məmmədhəsənovun atası Bilal Məmmədhəsənov oğlunun Xocalıda Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində həlak olduğunu bildirib. Rizvan Əhmədovun anası Məkkə Əhmədova isə oğlunun Xocalı şəhərində həyatını itirdiyini deyib.

Tural Seyidovun anası Fəridə Seyidova oğlunun Xocalıda basdırılan minanın partlaması nəticəsində həlak olduğunu söyləyib. Ramin Hüseynovun anası Gülbəniz Əmiraslanova bildirib ki, oğlunun, İlham Şəmşiyevin hüquqi varisi Şahmar Şəmşiyev isə qardaşının Ağdərədə həyatını itirdiyini söyləyiblər. Azər Məmmədovun atası Mustafa Nemətov deyib ki, oğlu Zəngilanda həlak olub.

Məmməd Mərdanovun atası Ələddin Mərdanov oğlunun tankəleyhinə minaya düşərək həlak olduğunu söyləyib. Əli Tağıyevin hüquqi varisi Səid Tağızadə diqqətə çatdırıb ki, qardaşı Ağdamda həyatını itirib. Mirzəəli Mirzəzadənin atası Kamran Mirzəyev oğlunun Ağdərədə həlak olduğunu deyib. Nail Süleymanlının atası Səfər Süleymanov qeyd edib ki, oğlu Xankəndidə həyatını itirib. Röyal Beydiyevin atası Nəsib Beydiyev oğlunun Xocavənddə həlak olduğunu söyləyib.

Kənan Ağayevin atası Vahid Ağayev oğlunun Xocavənddə, Vüsal Şəhriyarovun atası Təbiyyət Şəhriyarov isə oğlunun Xocalıda həlak olduğunu bildiriblər. Vurğun Gülməmmədov qeyd edib ki, Ağdərə rayonu ərazisində xəsarət alıb. Əhləm Məmmədov Laçında

Ömər Şirinovun həlak olduğunu, özünün və Faiq Cəfərovun, daha bir neçə nəfərin müxtəlif növ bədən xəsarətləri aldıqlarını deyib.

Röyal Məmmədov qeyd edib ki, Ağdərədə xəsarət alıb. Həmin vaxt Emin Qarayev isə həlak olub. Sabutay Ağabağırov deyib ki, Ağdərədə özü və yanında olan yoldaşları Əli Heydərov, Samir Kərimov, Şamxal Qasımov, Ceyhun Abbasov, Tural Quliyev, İsgəndər Hüseynov və Əlizamin İsmayılov xəsarətlər alıblar.

Ülvi Həsənov bildirib ki, Röyal Məmmədov və Murad Eyyubov onun yanında həlak olublar. Ehtiram Allahyarov Xocalıda

güllə yarası aldığını, Ramil Rzayevin və Sergey Heybətovun həyatlarını itirdiklərini bildirib. Əli Cəfərli Ağdamda qəlpə yarası, kəllə-beyin travması aldığını vurğulayıb. Elşən Zərbalıyev də Ağdamda xəsarət alıb.





Vüsal Lətifov bildirib ki, Ağdərə rayonu ərazisində Emin Abbaszadə və Ülvi Mikayılov həlak olub, özü isə yaralanıb. Sərxan Kərimli vurğulayıb ki, Cəbrayıl rayonunda xəsarət alıb. Əvəzağa Abdullazadə deyib ki, o, Ağdərədə xəsarət alıb. Zərərçəkən hadisə zamanı daha 8 nəfərin yaralandığını vurğulayıb.

Zərərçəkənlər Vətən Verdiyev, İlkin İbrahimov, Şamxal Qasımov, Emin Cəfərov, Vaseh Eyvazov, Əmrah Əliyev, Şaiq Yediyarov və Şirxan Mustafayev ifadələrində düşmənin təxribatları nəticəsində Ağdərə istiqamətində xəsarət aldıqlarını qeyd ediblər.

Ramil Allahyarov, Samir Mirzəyev, Elvin Məmmədov, Rəvan Şəfizadə və İmran Bayramov ifadələrində Kəlbəcər istiqamətində düşmən tərəfindən açılmış atəşlər nəticəsində yaralandıqlarını deyiblər. Digər zərərçəkənlər Vasif Məmmədov, Rüstəm İsmayılov, Toğrul Nəcizadə, Altay Əhədov, Rəcəbəli Mirzəzadə, Rəşad Hudulov, Eltac Xəlilov, Elxan Məmmədzadə, Pərvin Səfərov və Sahib Bağırov ifadələrində Xocalı istiqamətində düşmənin açdığı atəşlər nəticəsində xəsarətlər aldıqlarını söyləyiblər.

Eldar Abbasov bildirib ki, Xankəndidə Seymur Şabiyev həlak olub, o və Qismət Şükürov, Vurğun Sayılov, Vüsal Hüseynov, Nəsimi Ələkbərov xəsarətlər alıblar. Qəhrəman İsmayılov deyib ki, Xocavənddə xəsarətlər alıb, Vüsal Rüstəmov, Elvin Əliyev və Əlibəy Əlibəyov həlak olublar. Rüfət Səlimov qeyd edib ki, Əsgəran qəsəbəsi ərazisində Azad Allahverdiyev xəsarətlər alıb.

Ceyhun Əsgərov diqqətə çatdırıb ki, Ağdərədə o və tibb məntəqəsinin həkimi Yasin Quluzadə xəsarətlər alıb. Tahir Zeynalov, Elsevər Kərimov, Qismət Şükürov Xankəndi, Hazar Bəndəliyev, Dünyamin Əzizov Xocavənd, Samir Zamanov, Əbülfəz Məlikov, Əli Babayev, Pərvin Əhmədli, Zakir Cəbrayılov, Taleh Zeynalov Ağdam istiqamətlərində düşmənin açdığı atəşlər nəticəsində yaralandıqlarını vurğulayıblar.

Digər zərərçəkənlər Sirus Qalallı, Umud Əliyev, Nemət Əskərov, Kamran Muradov, Famil Hüseynov, Alim Gülmalıyev, Vüqar Yusifov, İlyas Sadıqov, Rövşən Cəfərov, Ehtibar Abasquliyev də ifadələrində düşmənin təxribatı nəticəsində xəsarət aldıqlarını bildiriblər.

Sonra məhkəmə iclasında zərərçəkmiş şəxslər barəsində keçirilmiş məhkəmə-tibbi ekspertizasının rəyləri elan edilib.

Məhkəmənin növbəti iclası sentyabrın 2-nə təyin olunub.

*XQ*

# Azərbaycan – Özbəkistan dostluğu: Orta Dəhlizdə yeni tərəfdaşlıq formatı

**XXI əsrin beynəlxalq münasibətlər sistemində dövlətlərin uğurlu inkişaf yolunu müəyyən edən əsas şərtlərdən biri də möhkəm tərəfdaşlıq əlaqələridir. Bu mənada Azərbaycanla Özbəkistan arasındakı münasibətlər təkcə siyasi və iqtisadi baxımdan deyil, həm də tarixi – mədəni tellər üzərində qurulmuş sarsılmaz dostluq və qardaşlıq nümunəsi kimi diqqət çəkir. İki ölkə arasındakı əməkdaşlığın sürətlə genişlənməsi, qarşılıqlı dəstəyə və ortaq strateji hədəflərə söykənməsi isə regional sabitliyin və rifahın möhkəmlənməsinə xidmət edir.**



Qardaşlıq münasibətlərinin tarixi və mənəvi əsaslarından danışarkən, ilk növbədə, onu deyək ki, bu dövlətləri birləşdirən əlaqələrin kökü qədim dövrlərə gedib çıxır. Hər iki xalq ortaq türkdilli mədəniyyətin daşıyıcısı, İpək yolunun mühüm məntəqələrində formalaşan sivilizasiyanın iştirakçısıdır. Orta əsrlərdə alimlərin, şairlərin, sənətkarların əlaqəli fəaliyyəti isə xalqlar arasında mənəvi yaxınlığın bu gün də dərinləşməsinə önəmli təsir göstərir.

Müasir dövrdə bu zəngin miras dövlətlərarası münasibətlərin güclənməsini şərtləndirir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, iki ölkəni birləşdirən dostluq və qardaşlıq əlaqələri təkcə bugünkü əməkdaşlığa deyil, eyni zamanda, ortaq tarixi – mədəni yaddaşa, dil və din birliyinə əsaslanır.

Son illərdə Azərbaycan – Özbəkistan münasibətləri yeni keyfiyyət mərhələsi ilə diqqət çəkib. Siyasi dialoq ən yüksək səviyyədə inkişaf edib, dövlət başçılarının qarşılıqlı səfərləri və görüşləri əməkdaşlığa güclü təkan verib. Avqustun 22-də Türkmənbaşı şəhərində keçirilən yüksəksəviyyəli üçtərəfli görüşdə Prezident İlham Əliyevin çıxışı da bu baxımdan xüsusi əhəmiyyəti ilə diqqət çəkib. Azərbaycan lideri Özbəkistanda həyata keçirilən islahatların nəticəsində bu ölkənin dinamik inkişafını, beynəlxalq nüfuzunun yüksəlməsini böyük məmnuniyyətlə dəyərləndirib.

Dövlətimizin başçısı çıxışında son illərdə Özbəkistanla bir çox sahələrdə, o cümlədən siyasi dialoqda, iqtisadi və humanitar əməkdaşlıqda əhəmiyyətli nəticələr əldə edildiyini də vurğulayıb. Azərbaycanın azad edilmiş ərazilərinin bərpasına verdiyi böyük töhfəyə görə dost ölkəyə və şəxsən Şavkat Miromonoviçə dərin təşəkkürümü bildirib: "Füzuli şəhərində dahi alim Mirzə Uluqbəyin adını daşıyan orta məktəb inşa olunub və Şavkat Miromonoviçlə birlikdə onun açılışını qeyd etmişdik. Xankəndi şəhərində özbək tərəfinin dəstəyi və təşəbbüsü ilə böyük bir tikiş fabriki fəaliyyət göstərir. Bu yaxınlarda birlikdə onu ziyarət etmişik. Bakının müasir mərkəzi olan Ağ şəhərdə "Özbəkistan" parkı yaradılır. Şavkat Miromonoviçlə birlikdə 5 hektarı əhatə edən bu gözəl parkın təməlini qoyduq. Bir çox başqa orta maraqlara söykənən investisiya, sərmayə layihələrimiz var".

Azərbaycan və Özbəkistan arasında uzunmüddətli Azad Ticarət Sazişi və MDB çərçivəsində çoxtərəfli azad ticarət rejimindəki fəal iştirak bu iki ölkənin güclü və ardıcıl artan iqtisadi münasibətlərinin əsasını təşkil edir. Ötən il Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsi 252 milyon dolları ötərək əvvəlki illə müqayisədə 41 faiz artıb. Azərbaycan dost ölkəyə 211,7 milyon dollar dəyərində məhsul ixrac edib (60,8 faiz artım), Özbəkistandan isə 40,3 milyon dollar dəyərində idxal həyata keçirib.

Son 5 ildə isə Özbəkistanın Azərbaycana ixracı əhəmiyyətli dərəcədə artaraq 2018-ci ildəki 32 milyon dollardan 2023-cü ildə 147 milyon dollara çatıb ki, bu da illik orta hesabla 35,6 faiz artım deməkdir. Eyni dövrdə Azərbaycanın Özbəkistana ixracı 9,7 milyon dollardan 100 milyon dollara yüksələrək illik orta hesabla 59,5 faiz artım nümayiş etdirib.

İqtisadi əməkdaşlığın dərinləşməsi təkcə ticarət artımı ilə məhdudlaşmır, bu prosesə Azərbaycan – Özbəkistan İnvestisiya Fondu kimi birgə investisiya mexanizmləri, avtomobil istehsalı, enerji və aqrosənaye klasterləri üzrə birgə layihələr də əlavə olunur. Bu istiqamətlər üzrə inkişaf iki ölkə arasında çoxşaxəli iqtisadi inteqrasiyanın möhkəmləndiyini göstərir.

Ticarət dövriyyəsi ilə bağlı qarşıya qoyulan 1 milyard dollarlıq hədəf isə əlaqələrin davamlı inkişaf etdiyindən xəbər verir. Bu məqsədlə imzalanan 2024 – 2025-ci illəri əhatə edən Praktiki Fəaliyyət Planı qarşılıqlı iqtisadi fəaliyyətin konkret sahələr üzrə genişləndirilməsinə yönəlib. Eyni zamanda, Ali Dövlətlərarası Şuranın təsisi və strateji tərəfdaşlıq üzrə yol xəritələri münasibətlərin siyasi-hüquqi çərçivəsini gücləndirərək onları davamlı və proqnozlaşdırılan edir.

Özbəkistanın Füzuli rayonunda məktəb tikintisinə verdiyi dəstək bu əməkdaşlığın yalnız iqtisadi deyil, həm də humanitar və simvolik məzmun daşıdığını göstərir, Qarabağın yenidən qurulmasında regional həmrəyliyi əks etdirir. Azərbaycan və Özbəkistanın TDT, MDB və BRICS+ kimi platformalarda artan koordinasiyası isə onların regional və qlobal miqyasda ortaq iqtisadi və siyasi gündəm formalaşdırmaq niyyətini təsdiqləyir.

Özbəkistan iqtisadiyyatı keçən il güclü və çoxşaxəli artım tempini qoruyaraq ÜDM həcmini 115 milyard dollara çatdırıb və bu, əvvəlki illə müqayisədə 6,8 faiz artım deməkdir. Sərmayə fəaliyyətində də nəzərəçarpan canlanma müşahidə olunub: əsas kapitala yönələn investisiyalar 27,6 faiz artaraq 39 milyard dollara çatıb ki, bu da ölkədə infrastruktur və sənaye sahələrində güclü inkişaf impulsunun davam etdiyini göstərir.

Azərbaycan Türkmənistanla bərabər, Özbəkistanla da Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm geostrateji mövqeyə malikdir. Ölkələrimiz qarşısında nəqliyyat – tranzit əməkdaşlığı sahəsində yeni vəzifələr və imkanlar durur. Bunların sırasında Orta Dəhliz, limanların genişləndirilməsi, dəmir yolu məsələləri daim diqqətdə saxlanılır. Nəqliyyat, tranzit, logistika istiqamətində birgə səylər göstərilməsi nəinki ölkələrimiz üçün, eyni zamanda, böyük region üçün mühüm əhəmiyyət daşıyır.

Energetika sahəsində də əməkdaşlıq genişlənməkdədir. Azərbaycan Dövlət Neft Şirkətinin Özbəkistanda neft yataqlarının işlənməsi üzrə kontrakt imzalaması tərəfdaşlığın enerji təhlükəsizliyi baxımından yeni məzmun qazandığını göstərir. "Özbəkneftqaz" Səhmdar Cəmiyyəti (SC) və Azərbaycan Dövlət Neft Şirkəti daimi dialoq aparır, əməkdaşlığın perspektivli sahələrini araşdırır. Bu mərhələdə neft – qaz sənayesində proseslərin rəqəmsallaşdırılması, "yaşıl" texnologiyaların tətbiqi və sənaye təhlükəsizliyinin təkmilləşdirilməsi kimi prioritet sahələrdə qarşılıqlı fəaliyyət imkanları da müzakirə edilir. Ümumiyyətlə, iki ölkə arasında davamlı tərəfdaşlıq təkcə iqtisadi maraqlar üzərində deyil, həm də texnoloji və ekoloji inkişafa müasir yanaşmalar əsasında qurulur.

"Özbəkneftqaz" SC üçün neft emalı və neft – kimya potensialının inkişafı mühüm prioritetdir. Bu sahədə beynəlxalq təcrübə və qabaqcıl texnoloji həllər, o cümlədən Azərbaycanla ikitərəfli və çoxtərəfli əməkdaşlıq potensialı fəal şəkildə öyrənilir. Birgə müəssisələrin yaradılması və ya texnologiya mübadiləsi məsələləri tərəflərin maraqları razılaşdırılmaqla inkişaf etdirilir.

İkitərəfli münasibətlərdə iqtisadi sahə xüsusi yer tutur. Özbəkistan Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından biridir. Ticarət dövriyyəsinin ilbəil artması, investisiya layihələrinin çoxalması əməkdaşlığın dərinliyini nümayiş etdirir.

Azərbaycan, Özbəkistan və Türkmənistan coğrafi mövqelərinə görə Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm geostrateji məkanda yerləşir. Bu isə nəqliyyat və tranzit əməkdaşlığını prioritet istiqamətə çevirir. Prezident İlham Əliyevin Türkmənbaşı görüşündə qeyd etdiyi kimi, Orta Dəhlizdə limanların genişləndirilməsi və dəmir yolu əlaqələrinin inkişafı ölkələrimiz üçün yeni imkanlar açır. Xüsusilə bu dəhlizin inkişafı təkcə Azərbaycan, Özbəkistan və Türkmənistan üçün deyil, bütövlükdə region və Avrasiya üçün mühüm önəm daşıyır. Çin – Avropa yükdaşımalarının sürətlənməsi, logistika xərclərinin azalması və yeni iqtisadi marşrutların formalaşması bu əməkdaşlığın strateji dəyərini daha da artırır.

Azərbaycan və Özbəkistan arasındakı münasibətlər qardaşlıq təməli üzərində daha da inkişaf etməkdədir. Energetika, kənd təsərrüfatı, sənaye, turizm və rəqəmsal texnologiyalar sahəsində əməkdaşlıq perspektivləri genişdir. Hər iki ölkə qarşılıqlı investisiyaların təşviqi, birgə müəssisələrin yaradılması və bazarların inteqrasiyası istiqamətində mühüm addımlar atır.

Şübhəsiz ki, Azərbaycan – Özbəkistan münasibətlərinin inkişafı yalnız ikitərəfli deyil, həm də regional sabitliyə və inkişaf proseslərinə müsbət təsir göstərir. Qardaşlıqdan strateji tərəfdaşlığa yüksələn bu münasibətlər gələcəkdə də xalqlarımızın rifahına xidmət edəcək.

***V.BİNYATOĞLU***
***XQ***

# Ermənistan tələsməlidir – "böyük qatarlar" vağzallarda çox qalmır

**(əvvəli 1-ci səhifədə)**

Cənab Ərdoğan, həmçinin, sözügedən dəmir yolu xəttinin Cənubi Qafqaz üçün strateji əhəmiyyət daşıdığını və regionda "sülh layihəsi" rolunu oynayacağını vurğulayıb. Layihə Xəzər və Aralıq dənizi hövzələrini birləşdirəcək, bu isə Türkiyənin şərq və cənub-şərq bölgələrinin istehsal və ixrac potensialını əhəmiyyətli dərəcədə gücləndirəcək, həmçinin nəqliyyat infrastrukturunu yaxşılaşdıracaq. "Bütün elementlər reallaşdıqdan sonra Türkiyə, Azərbaycan və Ermənistan arasında iqtisadi əməkdaşlıq yeni mərhələyə qədəm qoyacaq", - deyən Prezident Ərdoğan, həmçinin, bildirib ki, uzunluğu 224 km olan dəmir yolu xəttinin başa çatdırılması regional inkişafa güclü təkan, əlaqələrin möhkəmlənməsi və rifahın artması naminə mühüm addım olacaq.

Prezident İlham Əliyev isə avqustun 9-da Vaşinqtonda ölkəmizin media vasitələrinə müsahibəsində Azərbaycanın Naxçıvan Muxtar Respublikasında da dəmir yolunun bərpasına başladığını açıqlamışdı. Ölkəmizin liderinin vurğuladığı fikirlərdən gələnən qənaət budur ki, Azərbaycan Zəngəzur dəhlizinin timsalında regional inkişaf məsələlərinə kompleks yanaşır. Əlbəttə, bizə Ermənistan ərazisindən keçən 40 kilometrlik dəmir yolu lazımdır ki, Azərbaycanın iki hissəsini birləşdirək. Eyni zamanda, onu da deməliyik ki: "Bu, təkcə dəmir yolu ilə bitmir. Biz elektrik ötürücü xətləri, fiber-optik xətlər, potensial olaraq Azərbaycanın və Xəzərin digər tayından qonşularımızın enerji resurslarını daşıya biləcək enerji infrastrukturları haqqında düşünürük".

Qeyd edək ki, Türkiyə lideri ölkə ərazisində inşa olunacaq, dəyəri 2,4 milyard avroya çatan barəsində söz açdığımız dəmir yolu xəttinin istifadəyə verilməsinin Çindən Böyük Britaniyaya qədər uzanan beynəlxalq ticarət marşrutunun səmərəliliyini artıracağını vurğulayıb. Heç şübhəsiz, cənab Ərdoğanın üzərində dayandığı xüsus Çinin "Bir kəmər, bir yol" layihəsidir. O layihə ki, onun haqqında Prezident İlham Əliyev bu il aprelin 25-də Pekində Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsində bəhs etmişdi. Dövlətimizin başçısı həmin layihənin Azərbaycan üçün yalnız bir tranzit marşrutu əhəmiyyəti daşımadığına diqqət çəkmişdi: "Biz bu marşrut üzərində şirkətlər qurmaq istəyirik, çünki bizim coğrafi mövqeyimiz əlverişlidir. Biz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşirik. Bağlantılara gəlincə, biz artıq bütün infrastrukturu - dəmir yollarını, dəniz limanlarını, magistral yolları, 8 beynəlxalq hava limanı inşa etmişik. Biz qlobal miqyasda ən böyük yükdaşıma, hava yolu ilə yükdaşıma şirkətlərindən birinə sahibik. Beləliklə, hədəfimiz bu marşrut üzərində biznes qurmaqdır. Əlbəttə ki, biz Çin şirkətlərinə arxalanırıq. Cəmi bir həftədən də az vaxt bundan əvvəl biznes-forumda hər iki ölkədən müxtəlif şirkətlər iştirak edirdilər, onlar Azərbaycana 300 milyon dollardan artıq həcmdə investisiya yatırılmasına dair sazişlər imzaladılar. Bu gün mən həmkarlarıma söylədim ki, bu, bizim üçün yaxşı göstəricidir. Lakin düşünürəm ki, bu göstərici daha böyük ola bilər".

Onu da bildirək ki, Prezident İlham Əliyev "Bir kəmər, bir yol" təşəbbüsü ilə əlaqədar mövqeyini bu il aprelin 21-də Çinin Sinxua agentliyinə məxsusi müsahibəsində də açıqlamışdı. O, ölkəmizin sözügedən təşəbbüs çərçivəsində Pekinlə əməkdaşlığı genişləndirdiyini vurğulamış, mövcud istiqamətdə artıq mühüm uğurların qazanıldığını demişdi. Dövlətimizin başçısının üzərində dayandığı daha bir vacib məqam bu olmuşdu ki, əlverişli coğrafi mövqeyindən istifadə edən Azərbaycan öz ərazisindən yük axınının kəskin artmasını nəzərə alaraq, beynəlxalq nəqliyyat dəhlizlərini fəal inkişaf etdirməyə, müasir infrastruktur yaratmağa və onların ötürücülük qabiliyyətinin artırılmasına əlavə investisiya qoymağa davam edir.




Son 20 ildə ölkəmizdə 21 min kilometr avtomobil yollarının salındığını və təmir edildiyini, 335 körpünün və yolayrıcının, 45 tunelin, 163 yerüstü və yeraltı keçidin tikildiyini, habelə dəmir yolu infrastrukturunun yaxşılaşdırılması üzrə böyük işlərin görüldüyünü, 1500 kilometrdən artıq dəmir yolunun salındığını və 1800 kilometrlik sahənin təmir edildiyini deyən Prezident Əliyev vurğulamışdı ki, hazırda Bakı-Tbilisi-Qars dəmir yolu, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi və Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz), həmçinin Xəzərdə ən iri limanlardan biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı "Kəmər və yol" təşəbbüsü çərçivəsində iqtisadi və nəqliyyat imkanlarının reallaşdırılması üçün yeni perspektivlər açır. Amma bu, hələ son deyil: "Onu da diqqətinizə çatdırmaq istərdim ki, hazırda Orta Dəhliz Avropa və Mərkəzi Asiyanı Xəzər dənizi vasitəsilə Çinlə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur, həmçinin yüklərin Çindən Avropaya və əks istiqamətdə çatdırılmasının ən optimal yoludur. Onun əhəmiyyəti sürətlə artır. Azərbaycan ilə Çin arasında tranzit daşımaların həcmi 2024-cü ildə 378 min ton olub ki, bu da 2023-cü illə müqayisədə 86 faiz çoxdur. 2024-cü il ərzində Çindən Azərbaycana ixrac və tranzit rejimində Orta Dəhlizlə 287 marşrut qatarı yola salınıb".

Sonda bildirək ki, Türkiyə regional inkişaf baxımından üzərinə düşən missiyanın yerinə yetirilməsinə start verdi və cənab Ərdoğanın əvvəldə diqqətə çatdırdığımız fikirləri də bunun təsdiqidir. Göründüyü kimi, Azərbaycan da mövcud istiqamətdə müstəsna addımlar atıb. Prezident İlham Əliyev avqustun 9-da Vaşinqtonda ölkəmizin media vasitələrinə müsahibəsində, həmçinin, Azərbaycanın üzərinə düşən işləri, demək olar, yekunlaşdırdığını da bildirmişdi: "Bu illər ərzində biz dəmir yolunu az qala Ermənistan sərhədinə çatdırmışıq. Təxminən, bir ildən az vaxt lazımdır, sürətlə işləsək, bəlkə də altı aya onu tamamilə Ermənistan sərhədinə çatdırarıq".

Ermənistana gəldikdə, ölkə ötən müddətdə heç bir iş görməyib və bu məqamı Prezident İlham Əliyev Vaşinqtondakı müsahibəsində dilə gətirmişdi: "Beləliklə, biz istəyirdik ki, Azərbaycanın bir hissəsindən digər hissəsinə maneəsiz giriş əldə edək. Yeri gəlmişkən, bu, həm də Ermənistanın 2020-ci il noyabrın 10-da imza atdığı öhdəlik idi, lakin beş il ərzində heç bir irəliləyiş olmamışdı. Ərazidə heç bir iş aparılmırdı".

Deməli, hazırda regional inkişafa real töhfə vermək növbəsi Ermənistanındır. Bir halda ki, Bakı və Ankara üzərinə düşəni reallaşdırır, başlıca məqam İrəvanın məsuliyyətli davranmasıdır. İnanaq ki, belə də olacaq. Amma Ermənistan tələsməlidir. Çünki, obrazlı desək, böyük qatarlar gözləməyi xoşlamırlar.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Ermənistanın şübhələri gerçəyə deyil, əsassız gümana söykənir



**Dünyanın aparıcı media qurumları son günlər ABŞ Prezidenti Donald Trampın adı ilə adlandırılan TRIPP (Trump Route for International Peace and Prosperity) layihəyə geniş yer ayırırlar. Bu layihə beynəlxalq münasibətlərdə yeni mərhələnin başlanğıcı kimi təqdim olunur. Bildirilir ki, məqsəd qlobal sabitliyin möhkəmləndirilməsi və iqtisadi əməkdaşlıq üçün dayanıqlı platforma yaratmaqdır. Ekspertlər həm layihənin real perspektivini müzakirə edir, həm də onun hansısa geosiyasi məqsədlərdən xali olmadığını bildirərək bu istiqamətdə fikirlər yürüdürlər. Bütövlükdə, TRIPP ətrafında yaranan debatlar siyasi gündəmin diqqət mərkəzinə çevrilib.**

Bugünlərdə ABŞ-ın "Fox News" xəbər korporasiyasının saytında (foxnews.com) TRIPP layihəsi ilə bağlı məqalə dərc edilib. Məqalədə bildirilib ki, ABŞ Prezidenti Donald Tramp Azərbaycan və Ermənistanla cəsarətli razılığa gəlməklə İran hakimiyyətinə strateji zərbə vurub: "Xüsusilə, bu ayın əvvəlində Azərbaycan və Ermənistanla imzalanmış saziş (avqustun 8-də Prezident İlham Əliyev, Prezident Donald Tramp və Baş nazir Nikol Paşinyanın Vaşinqtonda keçirilmiş görüşünə dair Birgə Bəyannamənin imzalanması nəzərdə tutulur–S.H.) ensiz torpaq zolağı olan, lakin Avropa üçün kritik ticarət və enerji marşrutuna çevriləcək Zəngəzur dəhlizini ABŞ-ın 99 illik icarəyə götürməsinə imkan verir. Qeyd edilib ki, dəhlizin açılması yüz minlərlə insanın öz yurd-yuvasından didərgin düşməsinə, on minlərlə insanın həyatını itirməsinə səbəb olan keçmiş Qarabağ münaqişəsi başa çatdıqdan sonra diqqət mərkəzinə düşüb: "Trampın müdaxiləsi hər iki tərəfi danışıqlar masasına gətirdi və müşahidəçilərin fikrincə, Xəzər hövzəsini İrandan tamamilə yan keçərək Avropa ilə birləşdirən həyati əhəmiyyətli yeni ticarət və təhlükəsizlik kəməri yaratdı".

Bildirilib ki, TRIPP kimi tanınan saziş iqtisadi baxımdan Vaşinqtonun Xəzər karbohidrogen ehtiyatlarının Avropaya axınına nəzarətdə birbaşa rolunu təmin edir: "ABŞ dəhlizdən keçən dəmir yolu və avtomobil yolu infrastrukturunu, telekommunikasiya şəbəkələrini və enerji boru kəmərlərini idarə edəcək və Amerika şirkətlərinə neft, qaz və malların regional tranzitində dominant mövqe verəcək. Bu nəqliyyat arteriyasına nəzarət etmək ABŞ-a təkcə gələcək ticarət və investisiyalarda milyardlarla dollar qazandırmır, həm də Avropanı alternativ təchizat marşrutları ilə təmin edir. Bu, həm "qoca qitə"nin Rusiya və İrandan asılılığını azaltmaq deməkdir".

Qeyd edilib ki, dəhliz müttəfiqlər üçün Xəzərin enerji daşıyıcılarına daha ucuz və təhlükəsiz çıxışı təmin edir: "Tehran üçün bu, itirilmiş gəlirlər, itirilmiş təsir imkanları və Şərq–Qərb ticarətində zəruri broker kimi çıxış etmək qabiliyyətinin sonu deməkdir. Razılaşma NATO-nun dəstəyi ilə əldə edilib və bəzi müşahidəçilər artıq bunu tarixi adlandırırlar".

Amerikada yaşayan iranlı jurnalist və dissident Banafşe Zand sayta deyib ki, bu addım ABŞ üçün gözəl qazancdır və onun regiondakı bədxahlarına "şapalaq" vurur. Zand bildirib ki, bu saziş təkcə tarixi deyil, həm də Vaşinqton üçün birbaşa qələbədir: "Amerikalı podratçılar Xəzər hövzəsindən Zəngəzur və Türkiyədən keçərək Avropaya daşınan neft və qaza nəzarət edəcəklər. Rentabellik yüksəkdir və bütün bunlar NATO-nun xeyir-duası ilə baş verir".

*

Ermənistandakı bəzi dairələr isə məqalədə əksini tapan fikirlərdən narazı qaldıqlarını gizlətmirlər. Onlar "Fox News" xəbər korporasiyasının hökumətyönlü olduğuna diqqəti çəkərək yazıda Zəngəzur dəhlizi sözünün işlədilməsindən qıcıqlanıblar: "Amerikanın hökumətyönlü "Fox News" saytı iranlı dissidentin "Sünik"dən keçən yolun ABŞ-a 99 il müddətinə, guya, icarəyə veriləcəyi ilə bağlı rəyini dərc edib. Nəşrdə bu marşrut Zəngəzur dəhlizi kimi təqdim olunur. Türkiyə rəsmi şəxsləri, o cümlədən nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu və Prezident Rəcəb Tayyib Ərdoğan layihəni dəfələrlə Zəngəzur dəhlizi adlandırıb və onun Türkiyə, Azərbaycan və Ermənistan arasında iqtisadi əməkdaşlıq üçün əhəmiyyətini vurğulayıblar. Eyni zamanda, Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri David Xudatyan Türkiyə rəsmisinin bəyanatına münasibət bildirib və ölkə ərazisində dəhlizin ola bilməyəcəyini bildirib. Lakin ertəsi gün türkiyəli nazir bu termini bir daha təkrar edib".

Məqalədə Ermənistanın mövqeyinin nədən ibarət olduğuna bir daha aydınlıq gətirilib. Qeyd edilib ki, Ermənistan hakimiyyəti açılacaq yolun dəhliz formasında olmayacağını dəfələrlə bildirib: "Baş nazir Nikol Paşinyan jurnalistlər üçün keçirdiyi brifinq zamanı erməni-amerikan ortaq şirkətinin yola nəzarət etməyəcəyini qeyd edib. Onun sözlərinə görə, söhbət yalnız Ermənistanın yurisdiksiyasına təsir etməyən və marşrut boyu hərəkəti məhdudlaşdırmayan biznes idarəçiliyindən gedir".

Bundan əlavə, yolun ABŞ-a 99 illik icarəyə verilməsi ilə bağlı informasiyanın rəsmi olaraq təsdiqini tapmadığı vurğulanıb: "Bununla belə, 99 illik icarə məsələsi "Fox News"un məqaləsində qeyd olunur. Bundan əlavə, Donald Tramp Vaşinqtonda keçirilən üçtərəfli görüş zamanı "Ermənistan dəhlizin inkişafı üçün ABŞ-la eksklüziv tərəfdaşlıq qurur və gələcəkdə onu daha 99 il uzadacağına söz verib" deyib.

Yazının sonunda belə bir qənaətə gəlinir ki, erməni cəmiyyətinin Türkiyə rəsmilərinin bu marşrutu Zəngəzur dəhlizi adlandırmaqda davam etmələri, ABŞ-a yolun icarəyə verilməsi və ölkə rəhbərliyinin suverenliyi qorumaq üçün hansı real addımlar atacağı ilə bağlı aydın cavablara ehtiyacı var.

Qeyd etmək lazımdır ki, Ermənistanda Zəngəzur dəhlizi ilə bağlı səslənən narazılıqlar daha çox emosional və qərəzli təbliğat siyasi manipulyasiya xarakteri daşıyır. "Fox News"da dərc edilən məqalə ətrafında qaldırılan səs-küyün mahiyyətinə baxdıqda, faktların şişirdildiyi və cəmiyyətin yanlış istiqamətə yönləndirildiyi açıq görünür. Bu cür iddialar yalnız mücərrəd şəkildə təqdim olunur və sübutlardan məhrumdur. Belə olan halda Ermənistan daxilində bu məsələni siyasi qalmaqala çevirmək, əslində, daxili auditoriyanı qorxu və şübhə altında saxlamağa xidmət edir.

Digər mühüm məsələ odur ki, Türkiyə rəsmilərinin Zəngəzur dəhlizi ifadəsini işlətməsi tamamilə təbiidir. Çünki layihə Azərbaycanı Naxçıvan vasitəsilə Türkiyə və daha geniş regionla birləşdirən strateji yolun reallaşması anlamını daşıyır. Ermənistan tərəfi isə "dəhliz" anlayışına qıcıq göstərərək bunun, guya, ölkə suverenliyini pozacağı fikrini tirajlayır. Halbuki, Azərbaycan və Türkiyə dəfələrlə bəyan ediblər ki, bu marşrutun açılması Ermənistanın ərazi bütövlüyünə təhlükə yaratmır, əksinə, regionun iqtisadi inteqrasiyası üçün yeni imkanlar yaradır. Əgər Paşinyan özü yolun Ermənistanın yurisdiksiyasından çıxmayacağını etiraf edirsə, o halda niyə cəmiyyət hələ də qorxu içində saxlanılır? Başqa sözlə, burada faktlardan daha çox qərəzli siyasi şərhlər və əsassız iddialar ön plana çıxır.

Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri **Zaur Məmmədov** XQ-yə açıqlamasında bildirdi ki, erməni cəmiyyətində yaradılan



əsassız narahatlıq həm də revanşist kəsimin və onlara bağlı olan media orqanlarının illərdir apardıqları təbliğatın nəticəsidir. Onun sözlərinə görə, bu düşərgə bir tərəfdən yolun dəhliz olmayacağını deyir, digər tərəfdən isə Türkiyə və Azərbaycanın mövqeyini təhlükə kimi təqdim edir: "Bu isə daxili ictimai rəyi çaşdırır, etimad böhranı yaradır və əslində, Ermənistanın öz maraqlarına zərbə vurur. Çünki regionda kommunikasiyaların açılması təkcə Azərbaycan və Türkiyəyə deyil, həm də Ermənistana iqtisadi fayda gətirəcək. Lakin erməni siyasətçiləri bu reallığı qəbul etmək əvəzinə, xalqı illüziya ilə yaşadır, suverenlik məsələsini süni şəkildə gündəmə gətirirlər. Digər tərəfdən, "Fox News" hökumətyönlüdür, ona görə də yazıda dəhliz ifadəsi işlədilib" tipli arqumentlər də məntiqsizdir. Əgər hansısa Qərb mediasında belə bir termin istifadə olunubsa, bu, daha çox beynəlxalq siyasi diskursda həmin anlayışın artıq işlək formaya çevrildiyini, beynəlxalq leksikona daxil edildiyini göstərir. Ermənistanın media və siyasi dairələrinin buna qarşı çıxışı isə yalnız reallığı qəbul edə bilməməkdən irəli gəlir".

Politoloq qeyd etdi ki, nəticə etibarilə Ermənistan cəmiyyətinə lazım olan aydınlıq artıq mövcuddur. Bu aydınlıq ondan ibarətdir ki, dəhliz anlayışı onların dövlətçiliyinə təhdid yaratmır: "Sadəcə, Ermənistandakı bəzi dairələr bu məsələdən daxili auditoriyanı öz maraqları naminə yönləndirmək, ictimai rəyi qorxu altında saxlamaq üçün istifadə edirlər. Halbuki, real çıxış yolu əməkdaşlıq, iqtisadi inteqrasiyadan faydalanmaq və qonşularla normal münasibətlər qurmaqdır. Ermənistan bu yolu seçməsə, həm iqtisadi, həm də siyasi təcrid vəziyyətində qalmaqda davam edəcək".

*Səxavət HƏMİD*
*XQ*

(əvvəli 1-ci səhifədə)

# Sülh və seçki

Bununla yanaşı, Paşinyanın ritorikası Ermənistanın daxili siyasi təfəkküründə ciddi dəyişiklik yaradır. 1990-cı illərdən bəri siyasi kimlik əsasən "Qarabağ məsələsi" ətrafında formalaşmışdısa, indi hökumət rəhbəri bu kimliyi "sülh gündəliyi" ilə əvəzləmək istəyir. Dəyişiklik həm siyasi elitalar, həm də geniş ictimaiyyət üçün psixoloji və ideoloji baxımdan köklü transformasiya deməkdir.

Bəs bu transformasiya seçkilərdə özünü necə göstərə bilər? Əgər Ermənistan cəmiyyətində sülhə real ehtiyac formalaşıbsa və seçicilər müharibədən daha çox sabitliyə üstünlük verirlərsə, Paşinyan seçkilərdə üstünlük qazanacaq. Əks halda, müxalifət bu gündəliyi "xəyanət" kimi təqdim edərək populist mövqelərlə dəstək toplamağa çalışacaq. Deməli, seçkilərdə əsas qarşıdurma partiyalar arasında deyil, sülh və sülhsüzlük yanaşmaları arasında gedəcək.

*

Ermənistan siyasətində müxalifət qüvvələrinin ən çox istifadə etdiyi arqument Paşinyanın sülh gündəliyini "xəyanət" kimi təqdim etməkdir. Xüsusən də, Qarabağ məsələsinin Ermənistanın milli kimliyinin mərkəzi elementi kimi uzun illərdir formalaşdırıldığı nəzərə alınsa, bu ritorikanın müəyyən emosional təsir gücünə malik olması təbiidir. Müxalifət seçicilərə belə bir mesaj ötürür: sülh müqaviləsi yalnız Ermənistanın ərazi və tarixi iddialarından imtina etməsi hesabına mümkündür.

Burada vacib sual yaranır: müxalifətin "xəyanət" ritorikası hansı siyasi nəticələr doğura bilər? Əgər seçicilər hələ də keçmiş müharibələrin yaratdığı travmalar və emosional bağlılıqlar əsasında düşünürlərsə, bu ritorika Paşinyana qarşı ciddi təzyiq vasitəsinə çevrilə bilər. Bu halda müxalifət özünü "milli maraqların qoruyucusu" kimi təqdim etməyi bacarar.

Amma məsələnin digər tərəfini də düşünmək lazımdır. Ermənistan cəmiyyətində müharibədən yorğunluq, iqtisadi-sosial sabitliyə tələbat və regionda yeni geosiyasi reallıqlar nəzərə alınanda sual ortaya çıxır: seçicilər keçmişin emosional gündəliyinəmi üstünlük verəcəklər, yoxsa real sabitlik və rifaha yönəlmiş sülh gündəliyini seçəcəklər? Cavab birbaşa seçkilərin nəticələrini müəyyənləşdirəcək.

Paşinyan üçün əsas risk ondadır ki, "sülh" ritorikası real güzəştlərlə müşayiət olunmalıdır. Hər güzəşt isə emosional təsiri gücləndirir. Müxalifət bundan istifadə edərək, onu "tarixi mirası itirməkdə" ittiham edə bilər. Lakin digər tərəfdən, əgər hökumət sülhün gətirdiyi konkret faydaları–təhlükəsiz sərhədlər, iqtisadi əməkdaşlıq, regional inteqrasiya–nümayiş etdirə bilsə, onda müxalifətin arqumentləri zəifləyə bilər.

Beləliklə, seçkilərdə əsas qarşıdurma yalnız siyasi partiyalar arasında deyil, həm də iki fərqli yanaşma arasında baş verəcək: keçmişin simvolik-milli kimlik üzərində qurulan diskursu ilə gələcəyin praqmatik-sülh yönümlü gündəliyi toqquşacaq.

*

Ermənistanda seçkilər yalnız daxili siyasi mübarizə ilə məhdudlaşmır; bu prosesə regional və qlobal güclərin maraqları da birbaşa təsir göstərir. Ermənistanın yerləşdiyi geosiyasi məkan–Rusiya, Qərb (ABŞ və Avropa İttifaqı), eləcə də regionun əsas aktorları olan Azərbaycan və Türkiyə – seçkilərin nəticələrinə dolayı yolla təsir edə biləcək qüvvələrdir. Bəs beynəlxalq aktorlar Paşinyanın "sülh gündəliyinə" necə yanaşır? Qərb dövlətləri, xüsusilə ABŞ və Aİ Paşinyanın kursunu dəstəkləyir. Çünki bu kurs Cənubi Qafqazda münaqişələrin azaldılması və inteqrasiya layihələrinin irəliləməsi ilə üst-üstə düşür. Paşinyan Qərbin siyasi və iqtisadi dəstəyini təmin etmək üçün sülhün alternativsizliyini vurğulayır.

Amma digər tərəfdən, Rusiya üçün bu gündəlik təhlükə mənbəyidir. Moskva Ermənistanın Qərbə yaxınlaşmasını, KTMT və MDB məkanında zəifləyən rolunu öz təsir dairəsinin daralması kimi qəbul edir. Məhz bu səbəbdən Kreml müxalif qüvvələri dolayı yolla dəstəkləyərək Paşinyanın mövqelərini zəiflətməyə çalışa bilər.

Belə geosiyasi basqılar seçkilərdə Ermənistan seçicisinin davranışını necə





formalaşdıra bilər? Əgər seçicilər sülhün Ermənistanı Qərblə inteqrasiyaya aparacağına inanırlarsa, bu, Paşinyan üçün üstünlük yaradacaq. Əksinə, əgər Rusiya təbliğatı "Qərbə yaxınlaşmaq Ermənistanı təhlükəyə atır" fikrini gücləndirə bilsə, müxalifət üçün yeni imkanlar açılacaq.

Regional kontekstdə isə Türkiyə və Azərbaycanın rolu xüsusi vurğulanmalıdır. Sülh gündəliyi yalnız Ermənistan daxilində deyil, həm də Bakı–İrəvan münasibətlərinin inkişafı ilə reallaşa bilər. Əgər sərhədin açılması, iqtisadi əməkdaşlıq və kommunikasiya layihələrinin başlanması seçkiyə qədər konkret addımlarla müşayiət olunarsa, Paşinyanın mövqeyi güclənəcək. Amma bu proses uzanarsa və güzəştlər yalnız "kağız üzərində" qalsa, onda müxalifət həmin arqumenti onun əleyhinə çevirməyi bacaracaq.

Beləliklə, Ermənistanda parlament seçkiləri, eyni zamanda, beynəlxalq güclərin təsir meydanı olacaq: Qərbin dəstəklədiyi "sülh gündəliyi" ilə Rusiyanın qoruduğu "köhnə təhlükəsizlik modeli"nin qarşıdurması seçki ritorikasında öz əksini tapacaq.

*

2026-cı ilin iyununda keçiriləcək parlament seçkiləri yalnız hakimiyyət dəyişikliyi məsələsi olmayacaq. Onlar Ermənistanın qarşıdakı onilliklərdə hansı strateji kursu izləyəcəyini müəyyənləşdirəcək. Əslində, seçkilər iki fərqli siyasi konsepsiyanın toqquşmasına çevriləcək: bir tərəfdə sülh və regional inteqrasiyaya yönəlmiş yeni praqmatik gündəlik, digər tərəfdə isə milli kimliyi müharibə ritorikası üzərində qorumağa çalışan ənənəvi yanaşma dayanacaq.

Burada mühüm məsələ ondan ibarətdir ki, seçkilərdən sonra Ermənistan hansı istiqamətdə hərəkət edəcək? Əgər Paşinyanın komandası üstünlük qazanarsa, o zaman Ermənistanın Qərblə daha sıx əməkdaşlığı, iqtisadi modernizasiya təşəbbüsləri və Azərbaycanla sülh müqaviləsinin tam reallaşdırılması mümkün görünür. Bu ssenari Ermənistanı regional layihələrin iştirakçısına çevirə, uzunmüddətli sabitlik üçün zəmin yarada bilər.

Əks halda, əgər müxalifət hakimiyyətə gələrsə və "xəyanət" ritorikasını dövlət siyasətinə çevirərsə, Ermənistan yenidən köhnə təhlükəsizlik modelinə – Rusiya asılılığına və militarist diskursa qayıda bilər. Nəticə isə həm ölkənin beynəlxalq manevr imkanlarını məhdudlaşdırar, həm də iqtisadi-sosial inkişaf perspektivlərini zəiflədər. Burada hələlik qaranlıq qalan məslə ondan ibarətdir ki, Ermənistan cəmiyyəti keçmişin travmalarına sadiq qalaraq riskli status-kvonu qorumağa üstünlük verəcək, yoxsa sülhün gətirdiyi praktiki faydaları seçəcək? Cavab yalnız Ermənistanın daxili siyasi iradəsindən deyil, həm də beynəlxalq aktorların seçki prosesinə dolayı təsirindən asılı olacaq.

Yekunda demək olar ki, bu seçkilər Ermənistan üçün "tarixi dönüş anı"dır. Onların nəticəsi yalnız daxili siyasi balansı deyil, bütün regionun geosiyasi arxitekturasını formalaşdıracaq. Ermənistan ya sülh və inteqrasiya xəttini seçəcək, ya da yenidən qeyri-müəyyənlik və risklərin üstünlük təşkil etdiyi siyasi trayektoriyaya qayıdacaq.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Ağ Evin daxili siyasətində keçmiş “erməni amili”



(əvvəli 1-ci səhifədə)

### Administrasiya üçün daxili məhdudiyyət

Məqaləsində O’Brayen açıq şəkildə etiraf edir ki, prezident Co Bayden administrasiyası Cənubi Qafqazda, Ermənistan–Azərbaycan sülh prosesində passiv davranış nümayiş etdirib. Bunun da əsas səbəbi ABŞ-dakı erməni icmasının təsiri olub. ABŞ-dakı erməni diaspor təşkilatlarının təsir dairəsinə düşən Vaşinqtonun siyasi dairələrində istənilən kompromis addım “Azərbaycanın xeyrinə güzəşt” kimi yozulur, bu isə seçki ərəfəsində Bayden komandası üçün “riskli” sayılırdı. Belə məlum olur ki, rəsmi Vaşinqtonun region siyasəti müəyyən mənada daxili elektoratın (konkret bu halda – ermənilərin) girovuna çevrilmişdi. Bu, bir daha sübut edir ki, azsaylı etnik lobbilərin təzyiqi ABŞ-ın müxtəlif bölgələrdəki strateji maraqlarını məhdudlaşdırır.

İndi geriyə boylananda ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O’Brayenin Konqresin Xarici əlaqələr komitəsində keçirilən dinləmələrdə dediyi “ABŞ Azərbaycana hərbi və digər yardımları dayandırıb və yüksək səviyyəli səfərləri ləğv edib. Ermənistanla sülh danışıqlarında irəliləyiş əldə olunmayana qədər ikitərəfli münasibətlərin normallaşmasının baş verməyəcəyi Bakının diqqətinə çatdırılıb” – sözlərinin altından hay “burnunu” görmək mümkündür. Onun 2023-cü ilin qışında sülh danışıqlarında Bakını yumşaltmaya təhriketmə niyyətli səfərləri yadımızdadır. Ağ Ev rəsmisi iki il bundan əvvəl deyirdi ki, “ABŞ 19-20 sentyabr hadisələrindən sonra sülh yolunda irəliləyiş müşahidə olunmayınca Azərbaycan üçün hər şeyin normal olmayacağını açıq şəkildə bəyan edib!” Amma indi Dövlət katibinin keçmiş köməkçisi beynəlxalq hüququn dili ilə ölkəmizə haqq qazandırmağa çalışır.

### “TRIPP” marşrutu gündəmdə olub

Özünün də təmsil olunduğu keçmiş hakimiyyətlə indiki administrasiyanın regional siyasətləri arasında müqayisəli təhlillər aparan O’Brayen yazır ki, Donald Tramp administrasiyası dövründə formalaşan və şərti olaraq “TRIPP” adlanan layihə özündə Cənubi Qafqazı mərkəzi logistika qovşağına çevirmək iddiası daşıyır. Bu layihə Mərkəzi Asiyanı dünya bazarları ilə birləşdirən, Azərbaycan, Ermənistan və Türkiyə üzərindən keçən geniş nəqliyyat şəbəkəsini nəzərdə tutur. O, haqlı olaraq qeyd edir ki, bu yanaşma təkcə regional iqtisadi əməkdaşlıq deyil, həm də makroiqtisadi coğrafiyanın dəyişməsi deməkdir. ABŞ diplomatının vurğuladığı kimi, layihənin davamlılığı yalnız şəffaf idarəetmədən, korrupsiya risklərinin minimuma endirilməsindən və sabit siyasi mühitdən asılıdır. Müəllif, həmçinin Avropa İttifaqının layihədə yer almasının vacibliyini önə çəkir. Bunun yalnız infrastrukturu maliyyələşdirməsi deyil, eyni zamanda, Avropanın regionda təsir imkanlarını genişləndirən siyasi alət ola biləcəyini yazan O’Brayenin fikrincə, Brüsselin fəal iştirakı həm Rusiyanın, həm də İranın dominantlığını balanslaşdırmağa xidmət edəcək. Deməli, Aİ üçün bu proses, sadəcə, investisiya deyil, geosiyasi mövqe qazanmaq vasitəsidir.

### Azərbaycanın diplomatik uğuru

Avqustun 8-də ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ağ Evdə Azərbaycan və Ermənistan liderləri arasında əldə olunan razılaşmalar Cənubi Qafqazda qüvvələr balansını dəyişdirən hadisəyə çevrildi. Bunun əhəmiyyətini təkcə yeni təhlükəsizlik arxitekturasının formalaşmasında deyil, həm də regionda Rusiyanın təsirinin zəifləməsində görən O’Brayen yazısında xüsusi olaraq Azərbaycan Prezidenti İlham Əliyevin rolunu önə çəkir: “Vaşinqtonda imzalanan razılaşmalar nəticəsində Azərbaycan: Naxçıvanla birbaşa əlaqəni institusional səviyyədə təmin edib; ABŞ-la strateji tərəfdaşlığı genişləndirib; Rusiyanın vasitəçilik rolundan asılılığını minimuma endirib. Bu isə Azərbaycanın uzunmüddətli strateji doktrinası – müstəqil siyasət və çoxşaxəli diplomatiya xəttinin uğurla həyata keçirildiyini göstərir”.

Məsələyə siyasi elm nöqteyi-nəzərindən yanaşsaq, söhbətin bölgədə hegemon rolların yenidən bölüşdürülməsindən və əvvəllər Moskvanın nəzarətində olan institusional mexanizmlərin transformasiyasından getdiyini söyləyə bilərik. Bu reallığı gec də olsa etiraf edən O’Brayen ABŞ-ın “erməni faktoru”na görə ehtiyatlı davranışı ilə müqayisədə Tramp dövrünün təşəbbüsləri və Avropa İttifaqının potensial rolu fonunda ən böyük qazanc sahibinin məhz Azərbaycan olduğunu deyir. Prezident İlham Əliyevin ardıcıl və praqmatik diplomatiyası nəticəsində ölkəmiz təkcə yeni kommunikasiya dəhlizinin açılmasında deyil, həm də beynəlxalq siyasətdə etibarlı tərəfdaş obrazının möhkəmlənməsində ciddi irəliləyiş əldə etdi.

### Trampın şəxsi töhfəsi danılmazdır

O`Brayen vurğulayır ki, uğurun əldə olunmasında əsas amil Trampın şəxsi iştirakı olub. Co Bayden isə ABŞ-dakı erməni icması arasında özünə qarşı narazılıq yaratmaqdan qorxaraq, bu prosesdən bilərəkdən uzaqlaşıb. Bayden administrasiyası açıq şəkildə erməni tərəfinə rəğbət nümayiş etdirərək klassik diplomatik təzyiq modeli vasitəsilə danışıqlar prosesini “irəli aparmağa” çalışıb. Amma nəticə əksinə oldu: Bakı Amerika vasitəçiliyindən imtina etdi və İrəvanla siyasi dialoqu ikitərəfli formata keçirdi. Bu isə Vaşinqtonun ənənəvi “balanslaşdırma” siyasətinin böhranının və danışıqlar prosesinin sabitliyini təmin etməli olan “yumşaq güc” alətlərinin uğursuzluğunun bariz göstəricisi idi. Eyni zamanda, Ceyms O’Brayen qeyd edir ki, ikitərəfli və üçtərəfli bəyannamələrin imzalanması Prezident İlham Əliyev üçün mühüm nailiyyət olub. Dövlətimizin başçısının Azərbaycanın Naxçıvanla birbaşa əlaqəsinin institusional möhkəmlənməsini və ABŞ ilə strateji tərəfdaşlığın genişlənməsini əldə etdiyini bildirən O’Brayen hesab edir ki, əslində, İlham Əliyev Rusiyanın vasitəçilik funksiyalarından asılılığı minimuma endirməklə, eyni zamanda, Vaşinqtonda özünün strateji muxtariyyət doktrinasını həyata keçirdi.

O’Brayeni əndişələndirən məsələ

Məqaləsində keçmiş məmur Ceyms O'Brayen gələcəklə bağlı narahatlığını da bildirib. Onun sanksiyaların yumşaldılacağı və Ukraynada atəşkəsin əldə olunacağı təqdirdə Rusiyanın Cənubi Qafqazda siyasətini yenidən gücləndirə biləcəyi ilə bağlı proqnozu özündə məşhur “hegemonun qayıdışı” konsepsiyasını əks etdirir: Ukrayna münaqişəsindəki istənilən fasilə Moskvaya Rusiyanın hərbi infrastrukturunun və təsir agentlərinin hələ də qaldığı Qafqazda regional təsirini bərpa etmək üçün resurslar verəcək. İnsafən, bu proqnoz heç də reallaşma ehtimalından xali deyil.

Beləliklə, O'Brayenin “European Council of Foreign Relations” dərgisində çap olunmuş məqaləsi eyni vaxtda bir neçə əsas tendensiyanı əhatə edir: Bayden administrasiyasının Cənubi Qafqazdakı siyasəti institusional iflası, Trampın tranzaksiya diplomatiyasının artan təsiri, Azərbaycanın subyektivliyinin güclənməsi və qısa müddətdə Rusiyanın rolunun azalması, eləcə də regional nəqliyyat dəhlizlərinə nəzarət uğrunda gələcək mübarizənin perspektivi.

Artıq söhbət Cənubi Qafqazın ABŞ, Aİ, Rusiya, Türkiyə və İran arasında rəqabətli qarşılıqlı fəaliyyət məkanına çevrildiyi çoxsəviyyəli qüvvələr balansının yeni konfiqurasiyasının formalaşmasından gedir. Burada erməni amilinə yer yoxdur.

**_İmran BƏDİRXANLI_**
**_XQ_**

*Ekspert rəyi*



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

– Avropa qitəsi və bizim bölgə üzrə məsələlər ABŞ Dövlət Departamentinin direktorunun köməkçisi Ceyms O’Brayenin kurasiyasında idi. İndi o, vəziyyəti daxildən bilən adam kimi şərh verir. Demokratların hakimiyyət dönəmində həm Co Bayden Administrasiyası, həm də Senatın və Konqresin bir çox üzvləri açıq şəkildə ermənipərəst mövqedən çıxış edərək onlara lobbiçilik edirdilər. ABŞ ermənilərinin böyük sayda seçici kütləsi olmasa da, hakimiyyət təmsilçilərinə yaxşı maliyyə dəstəyi verirdilər. Haylar, ələlxüsus, Kaliforniya, Miçiqan, Nyu-York kimi ştatlarda geniş təsir gücünə malik idilər. Onu da nəzərə almaq lazımdır ki, vaxtilə Baydenin özü Azərbaycana qarşı qəbul edilmiş “Azadlığı dəstək Aktı”na 907-ci əlavənin qüvvədə qalmasına tərəfdar olmuşdu. Hakimiyyətə gələndən az sonra, o, “erməni soyqırımı”nı, faktiki olaraq tanıdı. Yəni, özünün ermənipərəst siyasətini hamının gözləri qarşısında həyata keçirirdi. Bu isə Vaşinqtonun Cənubi Qafqazda barışdırıcı, balanslaşdırılmış siyasətinə müəyyən məhdudiyyətlər yaradırdı. Bayden Administrasiyasını ermənilərin mənafeyinə uyğun mövqedən çıxış etməyə təhrik edirdilər. Bu mövqedən çıxış edəndə isə Vaşinqtonun sülh danışıqlarında vasitəçilik missiyası sıfıra enirdi. Necə ki, sonda baş verdi. O’Brayen indi bunun əsl səbəblərindən danışır, izah edir.

Bu gün tam əminliklə deyə bilərik ki, hayların ABŞ-dakı lobbi təşkilatlarının fəaliyyəti səmərəsiz hala düşüb. Əvvəllər onların bütün fəaliyyətləri 1915-ci il qondarma “erməni soyqırımı”nın tanınmasına fokuslanmışdı. Hətta tutaq ki, tanıdılar, sonra nə olacaq? Heç nə! Axı, həmin lobbi təşkilatları bu məsələni gündəmdə saxlamaq üçün hər il pul toplayırdılar. İndi əlləri boş qalıb. Eləcə də Qarabağ adlı münaqişə də öz həllini tapıb və gündəlikdən silinib. ABŞ-dakı erməni lobbi təşkilatları buna görə gündəliksiz qalıblar. Bu gün işsiz, sabah pulsuz, birisi gün isə onların mövcudluğu sual altına düşəcək. Türkiyəyə, Azərbaycana qarşı siyasət yürüdən bu təşkilatların, faktiki olaraq, sonu çatıb. Çünki qaldırdıqları təşəbbüslər artıq heç kəsin vecinə deyil.

# Paşinyanın ritmi Ermənistanın ahəngi olacaqmı?

(əvvəli 1-ci səhifədə)

Əlbəttə, Paşinyanın söylədikləri heç də həmişə birmənalı qarşılanmayıb. Əksər hallarda hökumət rəhbəri, loru dildə desək, topa tutulub. Heç şübhəsiz, yenə onu qınayanlar növbəyə düzüləcəklər. Satqın, xayin “iltifatları” da öz yerində. Ancaq indi durum fərqlidir. Necədir, bu barədə sonda söz açacağıq. Hələlik isə Nikolun bu dəfə nələri vurğulamasının üzərində dayanaq.

Ümumən, N.Paşinyanın fikirlərində iki başlıca tezis var. Birincisi, onun sözlərinə görə, “üzləşdiyimiz bəlaları öyrəndikdən sonra belə nəticəyə gəldik ki, tariximizin ritmini beynəlxalq proseslərin ritmi ilə uyğunlaşdıra bilməmişik”: “Vaşinqtonda baş verənlər isə o deməkdir ki, siyasətimizin ritmi müəyyən beynəlxalq proseslərin ritmi ilə uyğunlaşdı və bu, son dərəcə önəmlidir. Deyə bilərəm ki, bu, son 100 ildə beynəlxalq proseslərlə uyğunlaşmaq üçün yaranmış ilk real imkandır”.

Bəli, Paşinyan tam haqlıdır. Çünki erməni varlığı otuz ildən artıqdır davam edən müasir milli dövlətçilik tarixində ilk dəfədir saygı ilə qarşılanır. Hər halda, Paşinyanın gedib ABŞ-a çıxması, üstəlik bunun Birləşmiş Ştatların Prezidentinin dəvəti ilə gerçəkləşmiş səfər olması adi məsələ sayılmamalıdır. Deməli, 44 günlük müharibədəki məğlubiyyət Ermənistan üçün nə qədər rüsvayçı nəticələr doğursa da, ölkə hesaba alındı. Həm də ona görə hesaba alındı ki, rəsmi İrəvan Azərbaycanla mübarizənin faydasızlığını gördü. İndi erməni tərəfi məsələni məşhur “çəkişməsən, bərkimməzsən” atalar misalımız kontekstində dəyərləndirə bilər. Amma təskinlik üçün. Hər halda, ziyanın yarısından qayıtmaq da xeyirdir, - deyib atalarımız.

Fakt budur ki, Paşinyan ABŞ-da müstəqil Ermənistanı təmsil etmişdi. Bu təmsilçilik faydalıdır. Üstəlik, fayda amilinin rəsmi İrəvanın Bakı ilə sülhə razılıq tərəfi var. Ötən 100 ildə belə bir hal baş verməmişdi və bunun yaşanmaması, məhiyyətcə, barıt çəlləyini ildırımın vurması effekti yaradırdı. Elə bir effekt ki, Ermənistanı bir dövlət kimi yer üzündən silə bilərdi. Erməni xalqı Paşinyana yoxluğu deyil, yaşamı bəxş etdiyi üçün nə qədər minnətdar olsa, yenə azdır.

Bir haşiyə də çıxaq ki, Paşinyan indiki durumda erməni xalqının düşüncə və baxışlarının ifadəçisi qismində çıxış edən rəhbər ampluasındadır. Heç şübhəsiz, o, 2019-cu ildə Xankəndidə “Qarabağ Ermənistandır nöqtə” bəyanatını verəndə də, Şuşanın Cıdır düzündə sərxoş halda yallı gedəndə də həmin baxışlara sadiq idi. Amma Nikol yekun nəticədə sözügedən bəyanatı ilə tipik erməni düşüncəsinin yanlışlığını sübuta yetirdi. Başqa sözlə desək, yanlışlığı göstərmək üçün şans yaratdı. Əlbəttə, buna şans demək mümkündürsə. Hərçənd, başqa çıxış yolu yox idi. Baş nazir deyə bilərdimi ki, Ermənistan işğal etdiyi torpaqları Azərbaycana geri qaytarmalıdır? Xeyr! Adamı iqtidar kürsüsündə oturduğuna peşman edərdilər. Ona görə də müharibəyə rəvac verən fikirlər səsləndirdi, hərəkətlərə yol verdi. Müharibədə isə haqq-ədalət öz yerini tutdu. İndi Nikol son 100 ildə Cənubi Qafqaz regionunda ikinci belə haqq-ədalətin olmadığını da vurğulaya bilər.

Amma hazırkı haqq-ədalətə aparan yol heç də rəvan deyildi. 2020-ci ilin 44 günlük müharibəsindən sonra Paşinyan yenə tipik erməni xislətinə xas davranışları işə saldı, səmimiyyətdən uzaq mövqe tutdu, siyasi manevrlərlə savaşda itirdiyini diplomatik müstəvidə geri qaytarmağa cəhd göstərdi. Amma istəyinə çata bilmədi. Nəinki çata bilmədi, eyni zamanda, hərəkət və davranışları ilə erməni avantürizminin yekundə heç bir real nəticə vermədiyini göstərdi. Ara-sıra isə haqqında söz açdığımız reallıqları da dilə gətirdi.



N.Paşinyan reallıqlardan söz aça-a-ça onları ictimai düşüncədə möhkəmləndirməyi bacardı. Bu, xüsusi bir məharət idimi? Demək çətindir, çünki başqa yolu qalmamışdı. Məsələn, Azərbaycanın 2023-cü ilin sentyabrında gerçəkləşdirdiyi lokal xarakterli antiterror tədbirlərindən, Qarabağda separatçı rejimin ömrünü başa vurmasından sonra o bildirdi ki, Ermənistan qarşıdurmaya qoşulmamaqla dövlətçiliyini qorudu. Sanki, kimlərsə bunun əksini gözləyirmişlər.

Yəqin xatırlayarsınız ki, Paşinyanın bu bəyanatı erməni cəmiyyətində geniş rezonans doğurmuşdu. Qarabağa nəzarət tam şəkildə əldən çıxdıqdan sonra hay başbilənlər “daha pis nə ola bilərdi ki” ritorik sualı ilə baş naziri məsxərə predmetinə çevirmişdilər. Belələri, əslində, erməni dövlətçiliyinin Qarabağ kartı üzərində qərarlaşdığına eyham vurmuşdular. İndi isə Paşinyan deyir: “Ən böyük problemlərimizdən biri ondan ibarət olub ki, ölkəmizin ənənəvi olaraq yaşadığı nəzəriyyələr elitalar tərəfindən formalaşdırılıb və, yumşaq desək, cəmiyyətə öyrədilib”.

Bəli, Paşinyan bu mənada da haqlıdır. Çünki erməni varlığı Cənubi Qafqaza yaşamaq deyil, dağıtmaq, müharibələr, qətllər, qarətlər törətmək üçün yerləşdirilmişdi. Bu varlıq iki yüz ilə yaxın müddətdə üzərinə imperialist qüvvələr tərəfindən qoyulmuş bu “vəzifənin” icrası naminə hər şeyi etdi, dövlətçiliyi düşünməyəcək dərəcədə davrandı, alətə çevrildi. Elə zənn etdi ki, bədxah əməllərlə nə isə qazanacaq. Qazandı da. Özünün olmayanı əldə etdi. Düşündü ki, vəziyyət əbədi olaraq davam edəcək. Lakin bütün hesablamaları boşa çıxdı. İndi isə Paşinyan əks proseslərin baş verdiyini bildirir: “Hazırda biz elə bir dövrdə yaşayırıq ki, əks proses baş verir: xalqın şüuruna xalqın nümayəndələri tərəfindən formalaşdırılan və həyata keçirilən nəzəriyyələr daxil edilir. Bu baxımdan həmin prosesin üzvi şəkildə tam qorunub saxlanılması çox vacibdir”.

Heç şübhəsiz, Paşinyan bu fikirləri ilə həm də Azərbaycanla sülh prosesinin qorunub saxlanılmasının zəruriliyinə eyham vurur və hazırkı durumu əvvəlki səhvlərin aradan qaldırılması baxımından şans mərhələsi kimi dəyərləndirir. Yəni, o, özünü və komandasının üzvlərini erməni xalqının nümayəndəsi qismində göstərərək, yeni qaydada yaşamağın vacibliyini önə çəkir. Əlbəttə, baş nazirin söylədiklərinin həyata nə dərəcədə keçəcəyini, ümumən həyata keçib-keçməyəcəyini zaman göstərəcək. İndilik onu demək olar ki, Paşinyanın şəxsində erməni iqtidarı ölkəmizlə düşmənçilik səhifəsinin bağlandığını daha yüksək səslə bəyan edir. Hazırkı durumu fərqli edən də budur. Necə deyərlər, kor nə istər, iki göz, biri əyri biri düz.

**_Ə.RÜSTƏMOV_**
**_XQ_**

# Prezident İlham Əliyevin üçtərəfli əməkdaşlıq platformaları



II MƏQALƏ

## “Əliyev üçbucağı”nın geosiyasi anlamı

Xatırladaq ki, I məqalənin sonuncu tezisi Prezident İlham Əliyevin ölkənin coğrafi determinantları ilə müasir geosiyasi reallığın başlıca cəhətlərini uyğunlaşdıra bildiyini ifadə edir. Bu, Prezident İlham Əliyevin üçtərəfli əməkdaşlıq platformalarının mühüm nəzəri və metodoloji bazasını təşkil edir. Həmin tezis “Əliyev üçbucağı” anlayışının məna yükünü müəyyənləşdirməyə imkan verir. Məsələnin bu aspekti üzərində geniş dayanmağa ehtiyac vardır.

Öncədən vurğulayaq ki, “Əliyev üçbucağı” anlayışının məna yükü çoxlu sayda geosiyasi anlayışların qarşılıqlı münasibətləri fonunda müəyyən edilmişdir. Onların bir qismini burada göstəririk: “daxili ox” (vahid strateji məkanda geosiyasi əlaqələrin keyfiyyətinin ifadəsi), “geosiyasi şüa” (geosiyasi qütbün təsir vektoru), “geosiyasi parça” (hər hansı geosiyasi platformada strateji paytaxtın digərləri ilə münasibətlərinin cəmi), “geostrategiya” (geosiyasi təhlilin hərbi aspekti), “inteqrasiya” (birləşmənin müxtəlif formaları), “passibilizm” (bu, coğrafi determinizmə aiddir və nəzəriyyə kimi coğrafi məkanın tarixi öncədən müəyyən etmədiyini, ancaq onun müəyyən məcraya yönəlməsini motivə etdiyini irəli sürür, termini Vidal de lya Blaş daxil etmişdir), “geosiyasi məkan” (bir qədər sonra izah edilir), “geosiyasi refleksiya” (geosiyasətin subyektinin proseslərə reaksiya vermək qabiliyyəti) və s.

“Əliyev üçbucağı” vurğulanan anlayışlardan başqa bir neçə termini də əhatə edir. Bu baxımdan o, geniş geosiyasi-nəzəri təhlilə ehtiyacı olan anlamdır.

Onun digər aspekti praktiki-tətbiqi formullarla əlaqəlidir. Bu keyfiyyətdə nümunə kimi, Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Türkiyə-Rusiya, Azərbacyan-Rusiya-İran, Azərbaycan-Türkiyə-Pakistan, Azərbaycan-Türkiyə-Suriya, Azərbaycan-Türkiyə-Qazaxıstan, Azərbaycan-Özbəkistan-Türkmənistan və digərlərini göstərə bilərik.

## “3+3”: əməkdaşlığın eksponensional inkişafı

Bunlardan başqa, “Əliyev üçbucağı”na fərqli anlam verən bir nümunə də mövcuddur. Bu, üçtərəfli əməkdaşlıq formullarının həndəsi və ya eksponensional (ikiqat, üçqat və s.) qaydada inkişaf etdirilməsi potensialı ilə bağlıdır. Yəni əməkdaşlıq formatında “üçlüyün” sayı artıqca yekun effekt ona uyğun artır (eksponensional artım). Nümunə kimi, “3+3” formuluna baxmaq olar.

Bu formul iki üçtərəfli əməkdaşlıq formatının sintezindən yaranmışdır. İlk “üçlük” – Azərbaycan, Ermənistan və Gürcüstan, “ikinci üçlük” – Türkiyə, Rusiya və İran. Bu cür kombinasiya geosiyasətdə mövcud olan “yeni regionalizm” prinsipinə uyğun qurulmuşdur. Eyni zamanda, yeni regionalizmə İlham Əliyev yaradıcı yanaşmışdır. Nəzəriyyədən əməkdaşlıq platformasının açıq olması götürülür, yəni “3”-lər digər iştirakçıların da formula daxil olmasını istisna etmirlər. Bu zaman “nüvə dövlətlərin” qəbul etdiyi qayda və normalara tam əməl etmə və yalnız qarşılıqlı faydalı münasibətlər qurmağa istiqamətlənmə şərti qoyulur. Regiondaxili miqyasda qarşılıqlı asılılıq (məsələn, iqtisadi, energetik, təhlükəsizlik və s.) və əməkdaşlıq mütləq şərt olaraq qəbul edilməlidir. Məsələnin bu cür qoyuluşunun başqa aspekti üçlü əməkdaşlıq formatının sonucda dünya miqyasında əməkdaşlığa töhfə verməsi ilə bağlıdır. Bu, mühüm strateji məqsəddir və hesab edirik ki, “Əliyev üçbucağı”nı həm mövcud olmağa dayanıqlı, həm də faydalılığa davamlı edən başlıca kriteriyadır.

Həmin kriteriya kontekstində “3+3”-ə baxanda yeni regionalizm daxilində maraqlı geosiyasi gediş edildiyi aydınlaşır. Belə ki, regional miqyasda “üçlük” regionu çevrələyən “geosiyasi qurşaq”la tamamlanmışdır. Obrazlı desək, Cənubi Qafqaz region olaraq daxili və xarici coğrafi sərhədlər üzrə “ikiqat müdafiəyə” alınmışdır. Daxildə Azərbaycan, Gürcüstan və Ermənistan əməkdaşlığı regionu təhlükəsiz və sabit etməlidir, xarici sərhəd qurşağında isə Türkiyə, Rusiya və İran regional əməkdaşlıq və təhlükəsizlik üçün uyğun mühit yaratmalıdırlar. Onlar həm də “daxili üçlüklə” birgə bütün əməkdaşlıq istiqamətlərində fəal iştirak etməlidirlər. Bura bütün sahələr, o cümlədən müdafiə və təhlükəsizlik də daxildir.

Buradan “Əliyev üçbucağı”nın geosiyasi məkan anlayışına inteqrasiya və təhlükəsizlik aspektlərində yeni məna çaları verdiyi və onu faktiki olaraq zənginləşdirdiyi nəticəsini ala bilərik. Məlumdur ki, müasir geosiyasətdə geosiyasi məkan anlayışının üç aspektini vurğulayırlar: 1) böyük coğrafi məkan olmaq; 2) geosiyasi subyektin təsir edə bilmə zonası; 3) dünyanın çoxölçülü və multistruktural zaman məkanı olmaq. Burada hər bir subyekt öz həyati maraqlarını gözləməlidir.

İlham Əliyevin üçlü əməkdaşlıq platformasında həmin həyati əhəmiyyətli maraqlar platformaya daxil olan hər bir üzv üçün digərlərinin maraqlarını nəzərə almaqla müəyyənləşir. Yəni təməldən üzv ölkələrin maraqlarının ortaq “zonası” formalaşdırılır. Bu kriteriya həm regionu coğrafi məkan kimi təminatlı edir, həm də üçtərəfli əməkdaşlıq platformasının qlobal səviyyədə gedən proseslərə real inteqrasiyası üçün geniş imkanlar yaradır.

Bu istiqamətdə Azərbaycan təcrübəsi artıq mövcuddur. Həmin təcrübə yuxarıda vurğulanan üçtərəfli əməkdaşlıq formulları üçün ümumi olan bir prosesdə formalaşmışdır.

Diqqət etsək, aydın olar ki, Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Türkiyə-Rusiya, Azərbacyan-Rusiya-İran, Azərbaycan-Türkiyə-Pakistan, Azərbaycan-Türkiyə-Suriya, Azərbaycan-Türkiyə-Qazaxıstan, Azərbaycan-Özbəkistan-Türkmənistan üçtərəfli əməkdaşlıq platformalarının hər birinin geniş miqyasda “Bir qurşaq, bir yol” layihəsinə, kommunikativ-nəqliyyat-loqistika kontekstində isə Orta Dəhlizə aidiyyatı vardır.

Burada iki məqamı xüsusi qeyd etmək olar. Onlardan biri ondan ibarətdir ki, üçtərəfli əməkdaşlıq platformalarında əsas olaraq “3+3”-ə daxil olan dövlətlər – Azərbaycan, Türkiyə, İran, Rusiya və Gürcüstan iştirakçılar kimi nəzərdə tutulmuşdur. Onlar sanki, özlüyündə “üçlü əməkdaşlıq formatını” bir neçə dəfə təkrarlayırlar və bundan ortaq maraqlar müstəvisində reallaşdırılan layihələrdə istifadə edirlər. Burada Rusiyanın mövqeyi ilə bağlı bir mühüm cəhəti qeyd etmək gərəkdir. Məsələ ondan ibarətdir ki, Azərbaycan öncədən yenə də üçlü formada – Azərbaycan-Rusiya-Ermənistan münasibətləri daxilində Orta Dəhlizə birbaşa aidiyyatı olan Zəngəzur Dəhlizinin açılmasında Moskvanın aparıcı iştirakını qəbul etmişdi. Bakı həmin Dəhlizin açılması və ona nəzarətlə bağlı Kremlin şərtlərini qəbul etmişdi. Beş il onun reallaşması üçün də çalışdı. Ancaq nədənsə Moskvanın passivliyi və Gürcüstanla münasibətləri beynəlxalq hüquq normaları çərçivəsində inkişaf etdirməyə elə də həvəsli olmaması, bütövlükdə bu proyekt ətrafında situasiyanı dəyişdi. İndi daha çox Orta Dəhlizin Rusiyadan yan keçməklə reallaşmasından danışırlar. Buna da Kremlin reaksiyası adekvat deyildir. Moskva indi də layihənin bu formada reallaşamasını əngəlləmək üçün addımlar atır.

Deməli, “Əliyev üçbucağı” mahiyyət, məzmun və məqsədcə qətiyyən dəyişməmişdir. O başqa məsələdir ki, öncədən əməkdaşlıqda nəzərdə tutulan hər hansı dövlətin öz günahı ucbatından müəyyən korrektələr ola bilər. Məsələn, “Əliyev üçbucağı”nda Rusiyanı hər yerdə ABŞ əvəzləyə bilər və ya başqa variant mümkündür. Vurğulanan kontekstdə İlham Əliyevin üçlü əməkdaşlıq platforması üçün xarakterik olan bir maraqlı cəhətə baxmaq zəruridir.

Məsələ onunla əlaqəlidir ki, İlham Əliyevin əməkdaşlıq platformalarında “sivil yanaşma” üstünlük təşkil edir. Geosiyasətdə “Əliyev üçbucağı”nın mühüm əlamətlərindən biri bundan ibarətdir. Sivil yanaşma geosiyasi təlimlərdə strateji planlaşdırmada və qlobal təhlildə çoxlu sayda faktoru nəzərə alan modellər kompleksi toplusu ilə işləmək imkanı aspektində izah edilir. Bu imkan isə “geosiyasi refleksiya”, “strateji paytaxt” və “əməkdaşlıqda strateji məqsəd” kimi anlayışlar fonunda formalaşır. “Əliyev üçbucağı”na həmin özəllik prizmasında baxaq.

## Geosiyasi refleksiya

Bu anlayış XXI əsr liderləri üçün prinsipial psixoloji və lideroloji əhəmiyyət kəsb edir. Onu iki aspektdə nəzərdən keçirmək lazımdır.

Birincisi, geosiyasi refleksiya liderin ölkənin yerləşdiyi coğrafi məkanın faydalılıq mühitinin məkan-zaman strukturunu düzgün dərk etməsi ilə bağlıdır. Burada “coğrafi məkanın faydalılıq mühiti” konkret dövlətin mövcud olduğu regionun ümumi təbii resurslarının verə biləcəyi faydanın maksimum səviyyəsini müəyyən etməklə əlaqəli termindir. Lider regionun coğrafi özəlliklərini, tarixini və müasir geosiyasi şərtlərin gerçək mənasını dəqiq bilməlidir ki, məkanın faydalılıq mühitinin imkanlarını nə azaltsın, nə də şişirtsin. Buna dərin geosiyasi reflektiv keyfiyyət gərəkdir.

İkincisi, lider ölkənin regiondaxili və daha geniş miqyasda geosiyasi məkanda yeri və rolunu dəqiq və obyektiv müəyyən etməlidir. Bu aspekt də geosiyasi refleksiyanın vacib elementi sayılır. Hətta aparıcı yeri tutur. Çünki lider dövlətin mövcud şərtlər daxilində həm regondaxili, həm də xarici geosiyasi prosesləri adekvat dərk etməsə və onlar arasında real nisbəti dəqiq müəyyən etməsə, uğurlu olmaq imkansızdır.

Təcrübə göstərir ki, İlham Əliyev üçtərəfli əməkdaşlıq platformalarında yüksək geosiyasi refleksiya qabiliyyətini nümayiş etdirmişdir. Mürəkkəb geosiyasi mühitdə Azərbaycan lideri iki səviyyədə adekvat geosiyasi reaksiya vermişdir. Onlardan biri Prezidentin Azərbaycan dövlətinin əməkdaşlıq platformasında yeri və rolunu obyektiv müəyyən etməsi ilə bağlıdır. İkincisi isə Cənubi Qafqazın bütöv region olaraq əməkdaşlıqda yeri və rolunun düzgün müəyyən edilməsi ilə əlaqəlidir.

Ancaq İlham Əliyev yanaşması daxilində geosiyasi refleksiyanın məzmunu bununla yekunlaşmır. Azərbaycan rəhbəri müxtəlif üçtərəfli əməkdaşlıq platformalarının qarşılıqlı təsirləri fonunda Cənubi Qafqazın region kimi daha geniş geosiyasi məkandakı əməkdaşlıq modellərinə cəlb edilməsini stimullaşdırmışdır. Yəni burada İlham Əliyevin geosiyasi refleksiyası özündə həm də regiondaxili və regionxarici geosiyasi proseslərin qarşılıqlı təsirlərini müasir dövrün tələblərinə uyğun görə bilməsini ehtiva edir. Buradan İlham Əliyevin lider kimi geosiyasi situasiyanı görə bilmək potensialını ifadə edən geosiyasi refleksiyasını regional coğrafi məkanın faydalılıq imkanları ilə regiondaxili və regionxarici geosiyasi prosesləri maksimum səviyyədə sintez edə bilmək qabiliyyəti kimi təsəvvür etmək imkanı meydana gəlir.

Vurğulanan özəlliyin anlamında geosiyasi məkanın lider tərəfindən necə dərk edilməsi və onu hansı kriteriyalarla üçtərəfli əməkdaşlıq formatı kontekstində qiymətləndirməsinin aktuallığı qarşıya çıxır. Bu özəllik müasir geosiyasətdə “geosiyasi məkan” anlayışının məzmunu ilə əlaqəlidir. Biz I məqalədə İlham Əliyevin “geosiyasi məkan” anlayışının bir sıra xüsusiyyətləri üzərində çox qısa dayandıq. İndi geosiyasi refleksiya kontekstində həmin anlayışın başqa mühüm cəhətlərinə baxmaq lazım gəlir. Konkret olaraq, üçtərəfli əməkdaşlıq platforması üzvlərinin həyati əhəmiyyətli maraqlarını təmin etmək üçün nüfuzetmə zonalarını və onlar arasında nisbətin optimal faydalılığını müəyyən etmələri vacib görünür. Bu faktor həm də qlobal səviyyədə çoxölçülü və multistruktur xarakterli qarşılıqlı təsir məkanlarına ölkələrin əməkdaşlıq platformasının üzvləri kimi inteqrasiyası potensialını motivə etməlidir. “Geosiyasi məkan”ın müasir nəzəri anlamında vurğulanan iki faktor - (1) nüfuzetmə dərəcəsi və onlar arasında münasibətlərin optimal müyyən edilməsi, 2) qlobal səviyyədə çoxölçülü və multistruktur xarakterli əməkdaşlıq imkanlarının aydınlaşdırılması, qarşılıqlı əlaqədə nzərə alınır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Dövlət rəmzlərinin toxunulmazlıq “statusu”

**ABŞ, Azərbaycan və digər ölkələrdə bayraq yandırılması və dini təhqir məsələləri hüquqi və siyasi baxımdan müxtəlif yanaşmalarla tənzimlənir. Bu mövzular yalnız hüquqla məhdudlaşmır, həmçinin ictimai rəy, mədəniyyət və milli kimlik baxımından da fərqli reaksiyalara səbəb olur. Məsələn, ABŞ-da bayraq yandırılması məsələsi ifadə azadlığı hüququ çərçivəsində qiymətləndirilir. ABŞ Konstitusiyasının birinci düzəlişi vətəndaşlara sərbəst fikir və ifadə azadlığı hüququ verir.**



1989-cu ildə ABŞ Ali Məhkəməsinin “Texas v.Johnson” işində verdiyi qərar bu məsələdə önəmli dönüş nöqtəsi oldu. Məhkəmə bayraq yandırılmasını siyasi ifadə forması kimi tanıyıb və bu hərəkətə görə cəzalandırmanın konstitusiyaya zidd olduğunu bildirib. Beləliklə, ABŞ hüquq sistemində bayraq yandırılması ifadə azadlığının qorunan tərkib hissəsi kimi qəbul edilir. Lakin bu mövzuda ölkə daxilində fərqli düşünənlər də var. Onlardan biri də ABŞ Prezidenti Donald Trampdır. O, bayraq yandırılmasına qarşı sərt mövqedə dayanıb və belə hərəkətləri iğtişaş törətmək kimi qiymətləndirərək, bir ilədək həbs cəzası tətbiq ediləcəyini bildirib. Bununla bağlı bu günlərdə sərəncam da imzalayıb. Bu, ABŞ-da hüquqi və siyasi mübahisələrin davam etdiyini, mövzunun hələ də həm hüquqi, həm də ictimai səviyyədə fikir ayrılıqlarına səbəb olduğunu göstərir.

Azərbaycan isə bayraq yandırılması və dini təhqir məsələlərində fərqli hüquqi yanaşmaya malikdir. Bayrağın təhqir olunması və ya yandırılması Cinayət Məcəlləsinin 324-cü maddəsi ilə tənzimlənir. Bu maddəyə əsasən, dövlət rəmzlərini təhqir edən şəxs cinayət məsuliyyətinə cəlb olunur. Əgər bayrağa qarşı təhqiredici davranış ictimai asayişi pozan, amma cinayət tərkibi daşımayan formada olarsa, məsuliyyət İnzibati Xətalar Məcəlləsi çərçivəsində həll olunur. Bu da göstərir ki, Azərbaycan hüquq sistemi dövlət rəmzlərinin qorunmasına xüsusi önəm verir.

Onu da qeyd edək ki, bayraq yalnız hüquqi statusa malik simvol deyil, o, xalqın istiqlal mübarizəsinin, milli birliyin və azadlığın rəmzidir. Hətta fiziki olaraq köhnəlmiş bayraqların yandırılması belə, xüsusi prosedura uyğun və hörmətlə həyata keçirilir. Bu, bayrağın xalq üçün nə qədər dəyərli olduğunu göstərir.

*

Əslində, bayraq yandırmaq və ya ona qarşı təhqiredici davranış nümayiş etdirmək acizliyin, çarəsizliyin və ideoloji iflasın etirafıdır. Bu, iki il bundan əvvəl Ermənistanda keçirilən Ağır Atletika üzrə Avropa Çempionatının açılış mərasimində Azərbaycan bayrağının yandırılması hadisəsində aydın göründü. Ermənini buna vadar edən isə həmin bayrağın 30 illik işğaldan sonra yenidən Qarabağda dalğalanması idi. Bu mənzərəni həzm edə bilməyən şəxs tərəfindən törədilən təxribat, əslində, bütöv bir ideologiyanın və siyasi strategiyanın iflasa uğramasının göstəricisi idi.

Hadisənin ardından Ermənistanda yaranan ictimai reaksiyalar da göstərdi ki, bu hərəkət yalnız Azərbaycana qarşı deyil, həm də beynəlxalq idman ictimaiyyətinə hörmətsizlik kimi qəbul olunur. Çoxları bu davranışı siyasi mədəniyyətsizlik və dövlətin daxili acizliyi kimi qiymətləndirdi. Hayların təxribatı uduzulan müharibənin acısını idman meydanında çıxmaq, qalibin bayrağından qisas almaq cəhdi olmaqla yanaşı, zəifliyin nümayişi idi

Ümumilikdə, bu gün bayraq yandırılması məsələsi müxtəlif ölkələrdə fərqli yanaşmalar tələb edən mürəkkəb sosial-hüquqi fenomen olaraq qalır. ABŞ kimi ifadə azadlığını ön planda tutan ölkələrdə bu cür hərəkətlər hüquqi müdafiə altındadır, lakin ictimai qınaq mövcuddur. Azərbaycan kimi ölkələrdə isə dövlət rəmzlərinə hörmət milli kimliyin və milli dəyərlərin qorunması baxımından əsas prinsiplərdən biridir və hüquqi məsuliyyət sərtdir. Bu iki fərqli yanaşma göstərir ki, bayrağa hörmət hər bir ölkənin özünün tarixi, siyasi və mədəni kontekstindən asılıdır. Bayraq həm hüquqi, həm də milli-mənəvi dəyərlərin qorunmasının simvolu olaraq qalır.

*

Avropa ölkələrində oxşar məsələlərə yanaşmalar fərqlidir. İfadə və söz azadlığı əsas insan hüquqlarından biri kimi qəbul olunsa da, bu azadlıq bəzən dini dəyərlərə qarşı təhqiramiz hərəkətlərlə müşayiət olunur. Xüsusilə İslam dini ilə bağlı məsələlərdə bu cür halların artması narahatlıq doğurur. Danimarka, İsveç, Fransa və Niderlandda müqəddəs “Qurani-Kərim”in yandırılması və İslam Peyğəmbərinə qarşı yönəlmiş təhqirlərlə bağlı hadisələr bu tendensiyanı açıq şəkildə göstərir.

İsveç və Danimarkada sağ-radikal siyasətçilər, o cümlədən Rasmus Paludan və Salvan Momika dəfələrlə “Qurani-Kərimi” yandıraraq cəmiyyətdə narazılıq yaradıb. Lakin bu cür hərəkətlər İsveç qanunvericiliyində dini təhqiri ayrıca cinayət kimi müəyyən edən norma olmadığından, yalnız “etnik qrup əleyhinə təbliğat” kimi qiymətləndirilib. Paludanın cəmi 4 ay həbs cəzası alması bu məsələdə cəza siyasətinin yetərsiz olduğunu göstərir.

Digər tərəfdən, Almaniyada dini inanca görə təhqir Cinayət Məcəlləsinin 166-cı maddəsi ilə 3 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılsa da, bu maddə nadir hallarda tətbiq olunur. Birləşmiş Krallıqda isə dini təhqirə dair qanunlar ləğv edilsə də, son illər Quran yandırdığı üçün bir şəxs ictimai nizamı pozduğuna görə cərimələnib. Məhkəmə qərarında ifadə azadlığının başqalarının dini hisslərini alçaltmaq üçün istifadə edilə bilməyəcəyi xüsusi vurğulanıb. Bu, Birləşmiş Krallıqda ifadə azadlığı ilə ictimai məsuliyyət arasında incə balansın qorunmasına nümunədir.

Bütün bu fərqli yanaşmalar onu göstərir ki, Avropa ölkələrində ifadə azadlığı ilə dini dəyərlərin qorunması arasında dərin hüquqi və mədəni fərqlər mövcuddur. Bəzi ölkələr bu cür hərəkətləri azad fikir ifadəsi kimi qəbul edir, digərləri isə ictimai nizamın pozulması və nifrət cinayəti kimi qiymətləndirir. Bu fərqlər birbaşa ölkələrin hüquq sistemləri, siyasi mədəniyyətləri və milli dəyərləri ilə bağlıdır.

**Siyasi ekspert İlqar Hüseynli bu məsələ ilə bağlı XQ-yə dedi ki, bayraq**



**və digər dövlət rəmzləri, sadəcə, simvol deyil, milli kimlik və suverenliyin təcəssümüdür:**

– Onlara qarşı edilən təhqiramiz davranışlar yalnız hüquqi məsuliyyət doğurmur, eyni zamanda, cəmiyyətin qınağına səbəb olur. Azərbaycanın mövcud qanunvericiliyi bu rəmzləri və dini dəyərləri ciddi şəkildə qoruyur. Konstitusiyanın 75-ci maddəsində dövlət rəmzlərinə hörmətlə yanaşılması tələb olunur. Eyni zamanda, Cinayət Məcəlləsinin 324-cü maddəsi dövlət atributlarının təhqirinə görə iki ilədək azadlığın məhdudlaşdırılması və ya bir ilədək həbs cəzası nəzərdə tutur.

Azərbaycan qanunvericiliyi dini etiqad azadlığını da təmin edir. Hər kəs dini etiqadını sərbəst ifadə etmək, dini ayin və mərasimlərdə iştirak etmək hüququna malikdir. Eyni zamanda, dini etiqad zorla təbliğ edilə bilməz və insan ləyaqətini alçaldan dini cərəyanların yayılması qadağandır. Bu azadlıq yalnız ictimai təhlükəsizlik və digər şəxslərin hüquqlarının qorunması zərurəti olduqda qanunla məhdudlaşdırıla bilər.

**İlqar Hüseynli onu da bildirdi ki, ifadə azadlığı heç bir halda başqalarının dini inanc və dəyərlərini alçaltmaq üçün vasitəyə çevrilməməlidir:**

– Avropada müşahidə olunan bəzi hadisələr isə cəmiyyətlərin əxlaqi dəyərlərdən uzaqlaşdığını və nəticədə ictimai parçalanmanın dərinləşdiyini göstərir. Bu da, öz növbəsində, Avropanın bəşəri dəyərlərə sadiqliyini sual altına alır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Regionda iqtisadi güc

## Türkmənistan, Azərbaycan və Özbəkistan: hərtərəfli əməkdaşlıq və inteqrasiya

**Azərbaycan Türkmənistan və Özbəkistan kimi türk dövlətlərinin qlobal bazarlara çıxışında əsas tranzit və koordinasiya rolunu oynayır. Ölkəmizin coğrafi mövqeyi, zəngin enerji ehtiyatları və inkişaf etmiş nəqliyyat infrastrukturu regional ticarət əlaqələrinin genişlənməsini şərtləndirir. Eyni zamanda, tranzit və logistika imkanları enerji və sənaye potensialı ilə birləşərək regional iqtisadi əməkdaşlıq üçün güclü baza yaradır. Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan mühüm nəqliyyat – enerji layihələri Azərbaycanın regional təsirini gücləndirir. Bu strateji infrastruktur tranzit imkanları ilə yanaşı, regional iqtisadi sinerji yaradır və qlobal bazarlara çıxışı genişləndirir.**




### Coğrafi və resurs üstünlükləri: Azərbaycanın əhəmiyyəti

Türkmənistan, Azərbaycan və Özbəkistan güclü strateji mövqeyə malik iqtisadi aktorlardır. Dünya Bankı (2024) göstərir ki, Avrasiyada yerləşən bu üçlük qlobal ticarət dəhlizlərinin kəsişməsində mühüm yer tutur və iqtisadi inteqrasiyanın sürətlənməsinə mühüm töhfə verirlər. Lakin burada Azərbaycan mühüm üstünlüyü ilə fərqlənir. Bunun əsas səbəbi odur ki, Türkmənistan və Özbəkistan coğrafi baxımdan qapalı məkanda yerləşir. Eyni zamanda hər iki ölkə beynəlxalq bazarlara birbaşa çıxış imkanlarından məhrumdur. Özbəkistan, ümumiyyətlə, dənizə çıxışı olmayan ölkədir və qonşu ölkələrin nəqliyyat infrastrukturundan yüksək dərəcədə asılıdır. Onun Avropa bazarlarına çıxışı üçün ən qısa marşrut belə 2–3 tranzit ölkəsindən keçir. Türkmənistan Xəzər dənizi üzərindən məhdud ticarət imkanlarına malikdir, dənizin dünya okeanlarına birbaşa çıxışının olmaması onun beynəlxalq nəqliyyat və ticarət marşrutlarının çevikliyini və effektivliyini zəiflədir. Eyni zamanda Türkmənistanın əsas enerji ixrac marşrutu olan Türkmənistan – Çin qaz kəmərinin uzunluğu, təxminən, iki min kilometr təşkil edir.

Bu səbəbdən hər iki ölkənin enerji resursları və sənaye məhsullarının qlobal bazarlara çıxarılması əlavə xərc tələb edir. Təcrübə göstərir ki, dənizə çıxışı olmayan ölkələr beynəlxalq ticarətdə struktur məhdudiyyətləri ilə üzləşir. Dünya Bankının hesablamalarına görə, belə ölkələrdə ixrac və idxal xərcləri orta hesabla 50 faizə qədər yüksək olur, çünki malların dünya bazarlarına çatdırılması üçün əlavə tranzit ölkələrdən istifadə edilməlidir. Bu, logistik müddətləri uzadır və rəqabət qabiliyyətini azaldır.

BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) hesabatına əsasən, dənizə çıxışı olmayan ölkələrdə iqtisadi artım digər ölkələrdən orta hesabla 1,2 – 1,5 dəfə ləng gedir. Bu səbəbdən hər iki ölkə beynəlxalq bazarlara inteqrasiya etmək üçün tranzit dövlətlərin infrastrukturundan asılıdır. Buna görə də hər iki ölkənin geoiqtisadi strategiyası mütləq şəkildə tranzit və logistik tərəfdaşlara bağlıdır.

Məhz bu çərçivədə Azərbaycanın tranzit potensialı – Orta Dəhliz, Bakı – Tbilisi – Qars dəmir yolu və Xəzər dənizi limanları – Türkmənistan və Özbəkistan üçün alternativlər yaradır və coğrafi məhdudiyyətlərin iqtisadi təsirlərini minimuma endirir. Azərbaycan tranzit ölkə kimi Türkmənistan və Özbəkistanın qlobal bazarlara çıxışını asanlaşdırır və daha effektiv vəziyyətə gətirir. Ulu öndər Heydər Əliyev qeyd etmişdir ki, “Azərbaycanın tarixi və coğrafi mövqeyi bu ölkəni həm Qafqazda, həm də dünyada mühüm iqtisadi mərkəzə çevirir”. Beləliklə, Azərbaycanın Xəzər dənizindən Qara və Aralıq dənizlərinə olan əlverişli çıxışı Türkmənistan və Özbəkistanın beynəlxalq bazarlara inteqrasiyasını asanlaşdırır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, “Azərbaycan Avrasiyanı Qərb və Şərq arasında birləşdirən strateji bir körpüdür, ölkəmizin mövqeyi bu üç ölkənin qlobal bazarlara çıxışını asanlaşdırır”.

### İqtisadi inteqrasiyanın faydaları

İqtisadi inteqrasiya hər üç ölkənin iqtisadiyyatı üçün mühüm üstünlüklər vəd edir. Bu, ilk növbədə, Azərbaycan, Türkmənistan və Özbəkistan iqtisadiyyatlarının bir-birini tamamlaması ilə əlaqədardır. Türkmənistanın enerji ehtiyatları, Azərbaycanın enerji, ticarət və nəqliyyat infrastrukturu, Özbəkistanın isə sənaye və aqrar sferası birləşərək regional ticarəti və iqtisadi inkişafı gücləndirir. Dünya Ticarət Təşkilatı bildirir ki, bu üç ölkə arasında iqtisadi sinerji qlobal ticarətə də müsbət təsir göstərir. Çünki ölkələrin hər biri öz güclü, yəni müqayisəli üstünlüyə malik olduğu sahələrdə ixtisaslaşır. Bu, onu deməyə əsas verir ki, ölkələrin iqtisadiyyatlarının struktur komplementarlığı regional inkişafı və ticarət əlaqələrinin möhkəmlənməsinə xidmət edir.

Üç ölkə arasında mövcud əməkdaşlıq modelini “üçlü inkişaf və investisiya yaradılması” kimi xarakterizə etmək olar. Burada məqsəd yalnız yerli bazarları gücləndirmək deyil, həm də “yaşıl” texnologiyalar, bərpaolunan enerji layihələri və davamlı infrastruktur sahələrində inkişafa yönəlməkdir. Qeyd edilən sahələr iqtisadi inkişafı sürətləndirir və ətraf mühitin qorunmasına xidmət edir. Yeni investisiya sahələri və texnologiyalar vasitəsilə bu üç ölkə qlobal bazarda daha dayanıqlı və çevik iqtisadi struktur qura bilir.

Ötən illərin iqtisadi göstəriciləri hər üç ölkənin iqtisadi gücünü və potensialını daha aydın şəkildə göstərir. Üçlüyün iqtisadiyyatı, təxminən, 272 milyard ABŞ dolları həcmindədir. ASEAN-5 və Mərkəzi Avropa ölkələri ilə müqayisədə üçlüyün iqtisadiyyatı orta səviyyədə olsa da, qlobal iqtisadi güclərlə olan məsafə strateji üstünlük yaradır və regional inteqrasiyasının dəyərini artırır. Əlavə olaraq üçlüyün iqtisadi dayanıqlığı və davamlı infrastruktur təşəbbüsləri üçün əlverişli şərait də mövcuddur. Son 3 ildə iqtisadiyyatın orta hesabla hər il Özbəkistanda 6,3 faiz, Türkmənistanda 3,2 faiz, Azərbaycanın qeyri-neft sektorunda isə 6,5 faiz böyüməsi buna bariz nümunədir.

Ticarət əlaqələrinə gəldikdə isə, Azərbaycan – Özbəkistan və Azərbaycan–Türkmənistan arasında ticarət dövriyyəsi müvafiq olaraq 255 milyon və 380 milyon ABŞ dolları təşkil edir. Üç ölkə arasında ümumi ticarətin həcmi 135 milyard ABŞ dollarına yaxındır. Bu göstərici yeni tranzit marşrutlarının yaradılması ilə mövcud imkanların daha da artırılması sahəsində geniş imkanların hələ mövcudluğunu göstərir. Həmçinin qlobal güclərə olan məsafə və strateji mövqe bu payı sürətlə artırmaq üçün əlverişli imkan yaradır.

### Ölkə nümunələri

Üçlük arasında iqtisadi inteqrasiyanın möhkəmlənməsinin əhəmiyyətini anlamaq üçün digər ölkə nümunələrinə baxaq. Təcrübəyə görə, iqtisadi inteqrasiya potensialı olsa da, bəzi ölkələr arasında iqtisadi əməkdaşlıq hələ də inkişaf etməyib və bu səbəbdən qarşılıqlı ticarət zəif inkişaf edir. Məsələn, Qazaxıstan və Özbəkistan arasında illik ticarət dövriyyəsi təxminən 6-7 milyard ABŞ dolları təşkil edir, halbuki coğrafi mövqe və resurslar nəzərə alındıqda ticarət potensialı daha yüksəkdir. Əsas səbəblər tranzit və infrastrukturun tam inkişaf etməməsi (iki ölkə həmsərhəd olsa da, infrastruktur sahələri hələ tam inkişaf etməyib), maliyyə və investisiya imkanlarının məhdudluğu, institusional fərqliliklər, həmçinin alternativ iqtisadi tərəfdaşlara üstünlük verilməsidir.

Əksinə, mövcud imkanlardan faydalanmaq iqtisadi inkişafı sürətləndirə və yeni texnoloji yeniliklərə yol aça bilər. Misal üçün, Türkiyə və Azərbaycan arasındakı iqtisadi əməkdaşlıq və bu əməkdaşlığın gücləndirilməsi hər iki ölkə iqtisadiyyatına mühüm təkan vermişdir. Azərbaycan və Türkiyənin müştərək layihələri və inkişaf etmiş infrastruktur ticarət əlaqələrini möhkəmləndirərək regional iqtisadiyyatı gücləndirir. Təsadüfi deyil ki, Azərbaycanın ticarət dövriyyəsində Türkiyə 13 faiz payla ikinci ölkədir.

Afrika ölkələri isə fərqli təcrübə nümayiş etdirir. Burada ölkələr arasında iqtisadi əməkdaşlığın zəif olması ticarət əlaqələrini məhdudlaşdırır və iqtisadiyyatın zəifləməsinə səbəb olur. Xüsusilə Sub-Sahara Afrikası ölkələrinin iqtisadi inteqrasiyadan faydalanmaması onların hətta ən kasıb bazarlarda belə geridə qalmasını şərtləndirmişdir. Sub – Sahara Afrikası ölkələri arasında iqtisadi əməkdaşlığın zəifliyi bu regionun qlobal ticarət dövriyyəsində, təxminən, 2-3 faiz paya sahib olmasına səbəb olur. Afrika ölkələrinin iqtisadiyyatı cəmi 2,5 – 3 trilyon ABŞ dolları həcmindədir, amma bu bölgə hələ də böyük iqtisadi potensiala sahibdir.

Mövcud iqtisadi əməkdaşlığın gücləndirilməsi məqsədilə ölkələr arasında saziş (AfCFTA – Afrika Qitəsi Ticarət Sazişi) də imzalanmış və bu, qarşılıqlı iqtisadi əməkdaşlığın inkişafına yönələn mühüm addım olmuşdur. Sözügedən sazişin 2030-cu ilə qədər 16 milyon yeni iş yeri və 450 milyard dollarlıq əlavə dəyər yaradacağı gözlənilir. Belə əməkdaşlığın gücləndirilməsi ticarət əlaqələrini inkişaf etdirə və regional iqtisadiyyatı genişləndirə bilər.

Əksinə, Çin və Avropa İttifaqı arasındakı güclü iqtisadi əlaqələr və strateji inteqrasiya hər iki tərəfin iqtisadi inkişafına mühüm təkan vermişdir. Bu iki ölkə iqtisadi əməkdaşlığın dərinləşməsi nəticəsində 700 milyard ABŞ dolları həcmində ticarət dövriyyəsinə sahibdir. Avropa İttifaqı Çin üçün ikinci ən böyük ticarət tərəfdaşıdır. Eyni zamanda Çin Aİ-nin ən böyük ticarət tərəfdaşlarından biridir. Çin ilə Avropa İttifaqı arasında həyata keçirilən əməkdaşlıq çərçivəsində yeni texnologiyaların tətbiqi və innovativ iqtisadi modellər hər iki regionun iqtisadi böyüməsini sürətləndirmiş və qlobal iqtisadiyyata onların təsir gücünü artırmışdır.

Bütün bunlar Türkmənistan, Azərbaycan və Özbəkistan arasında iqtisadi inteqrasiyanı gücləndirmək üçün bir sıra mühüm dərslərin mövcudluğunu vurğulayır. Məsələn, Qazaxıstan və Özbəkistanın təcrübəsi göstərir ki, tranzit və infrastruktur problemləri, strateji planlaşdırmanın çatışmazlığı ticarət imkanlarını məhdudlaşdırır. Həmçinin, Sub – Sahara Afrikası ölkələrinin AfCFTA vasitəsilə əldə etdiyi nailiyyətlər göstərir ki, iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi ticarət dövriyyəsini artırır, yeni texnologiyaların tətbiqi, investisiya imkanlarının genişlənməsi və innovativ layihələrin inkişafı üçün də zəmin yaradır. Beləliklə, bu ölkələr üçün inteqrasiya təşəbbüsləri iqtisadi artımı sürətləndirir, regional layihələr və investisiyalar vasitəsilə uzunmüddətli inkişaf potensialı yaradır.

### Türkdilli dövlətlərin yeni iqtisadi platforması

Üç ölkə arasında formalaşan iqtisadi əməkdaşlıq eyni zamanda türkdilli ölkələrin ortaq inteqrasiya platforması olan Türkdilli Dövlətlər Təşkilatının (TDT) iqtisadiyyatlarının gələcək inkişafında da mühüm mərhələdir. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən regional layihələr TDT ölkələri arasında iqtisadi əlaqələri dərinləşdirən əsas dayaqlardan birinə çevrilmişdir. Bu layihələr türkdilli dövlətlər arasında ticarətin asanlaşdırılmasına, tranzit müddətlərinin qısaldılmasına və logistik xərclərin azalmasına xidmət edir.

Azərbaycanın liderlik rolu burada xüsusi diqqətə layiqdir. Prezident İlham Əliyevin vurğuladığı kimi, ölkəmizin Avrasiya məkanında strateji mövqeyi Qərblə Şərqi, Şimalla Cənubu birləşdirən körpü rolunu oynayır. Bu mövqe güclü iqtisadi əməkdaşlığa və TDT ölkələrinin beynəlxalq bazarlarda daha rəqabətqabiliyyətli iştirakına imkan yaradır.

TDT çərçivəsində iqtisadi inteqrasiyanın güclənməsi bir neçə əsas istiqamətdə özünü göstərir. İlk növbədə, tranzit və logistika əməkdaşlığı diqqət çəkir. Orta Dəhlizin inkişafı və Xəzər üzərindən multimodal daşımaların genişlənməsi TDT ölkələrinin qlobal bazarlara daha sürətli və səmərəli çıxışını asanlaşdırır. Bununla yanaşı, enerji əməkdaşlığı da xüsusi əhəmiyyət kəsb edir. Türkmənistanın qaz ehtiyatları, Azərbaycanın bərpa olunan enerji imkanları və Qazaxıstanın xammal resursları potensialı ortaq enerji təhlükəsizliyi formatında inteqrasiyanı möhkəmləndirir.

Digər mühüm istiqamət sənaye və aqrar istehsalın sinerjisidir. Burada Azərbaycan və Özbəkistanın sənaye məhsulları, Qırğızıstan və Qazaxıstanın aqrar potensialı ilə birlikdə dəyər zəncirinin formalaşdırılması TDT məkanında iqtisadi dayanıqlılığı artırır. Nəhayət, yeni texnologiyalar və yaşıl iqtisadiyyat sahəsində əməkdaşlıq da diqqətəlayiqdir. Birgə innovasiya layihələri, rəqəmsal iqtisadiyyat və bərpa olunan enerji təşəbbüsləri inteqrasiyanı daha çevik və müasir mərhələyə daşıyır.

Dünya Bankı və BVF kimi beynəlxalq qurumların təhlilləri göstərir ki, regional iqtisadi blokların uğuru məhz nəqliyyat infrastrukturunun səmərəliliyi, ticarət xərclərinin azalması və qarşılıqlı etimad mühiti ilə sıx bağlıdır. Bu mənada TDT-nin qarşıdakı onillikdə iqtisadi baxımdan yeni bir güc mərkəzinə çevrilməsi real perspektiv kimi qiymətləndirilə bilər.

Nəticə olaraq, Türkmənistan, Azərbaycan və Özbəkistanın iqtisadi əməkdaşlığı yalnız üç ölkənin deyil, bütövlükdə Türkdilli Dövlətlər Təşkilatının inteqrasiya proseslərini gücləndirir. Bu əməkdaşlıq modelinin dərinləşdirilməsi TDT məkanında vahid bazarın formalaşması, birgə investisiya layihələrinin həyata keçirilməsi və qlobal dəyər zəncirlərində türkdilli ölkələrin rolunun artması üçün möhkəm zəmin yaradır.

### Perspektivlər: Azərbaycanın iqtisadi liderlik rolu

Türkmənistan, Azərbaycan və Özbəkistan arasındakı iqtisadi əməkdaşlıq regional inteqrasiyanın güclənməsinə və ölkələrin qlobal bazarlardakı mövqeyinin möhkəmlənməsinə mühüm töhfə verir. Bu üç dövlətin coğrafi mövqeyi və resurs potensialı onlara qlobal iqtisadiyyatda yeni imkanlar açır. Enerji, sənaye, ticarət və logistika sahələrində formalaşan sinerji isə hər üç ölkənin qlobal iqtisadi sistemdə daha fəal iştirakını təmin edir və regional inteqrasiyanı da sürətləndirir.

Əməkdaşlığın uğur qazanmasında hər bir ölkənin spesifik rolu diqqət çəkir. Türkmənistanın zəngin enerji ehtiyatları regional ixrac və enerji tədarükünün etibarlılığını artırır və region iqtisadiyyatının əsas dayaqlarından birinə çevrilir. Azərbaycanın tranzit və logistika imkanları isə bu əməkdaşlığı qlobal miqyasda əvəzolunmaz edir. Xüsusilə Transxəzər Marşrutu və Orta Dəhliz layihələri iqtisadi əlaqələri genişləndirməklə yanaşı, yaşıl iqtisadiyyat prinsiplərinə uyğun davamlı inkişaf üçün də mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin sözləri ilə desək, Azərbaycanın coğrafi mövqeyi və inkişaf edən infrastruktur imkanları dünya iqtisadiyyatında yeni əlaqələrin yaranmasına şərait yaradır və qlobal ticarət şəbəkələrinin effektivliyini artırır. Digər tərəfdən, Özbəkistanın inkişaf etmiş sənaye və aqrar sektoru da əməkdaşlıqda həlledici rol oynayır. Bu sektorların yüksək istehsal və ixrac potensialı regionun iqtisadi inteqrasiyasını gücləndirir və ölkələrin bazarlarını daha rəqabətqabiliyyətli edir.

Bu fərqli potensialların birləşməsi ölkələr arasında səmərəli əməkdaşlıq mexanizmi yaradır. Bu çərçivədə əməkdaşlıq yalnız iqtisadi əlaqələrin birləşdirilməsi ilə məhdudlaşmır; resursların optimal istifadəsi iqtisadi artımın sürətlənməsinə, yeni iqtisadi sahələrin inkişafına və yaşıl texnologiyalarla davamlı infrastrukturun təşviqinə imkan verir. Bununla da ölkələr ticarət coğrafiyasını diversifikasiya etmək və qlobal bazarlarda daha güclü mövqeyə sahib olmaq imkanı qazanır.

Əməkdaşlığın uğurlu davamı üçün əsas şərtlərdən biri makroiqtisadi sabitlikdir. BVF-nin məlumatları göstərir ki, hər üç ölkənin fərqli, lakin bir-birini tamamlayan iqtisadi göstəriciləri mövcuddur. Aşağı inflyasiya, aşağı xarici borc, tədiyə balansında müsbət cari hesab və xarici sərmayələrin artması bu ölkələrin dayanıqlı iqtisadi mühitə malik olduğunu sübut edir. Belə sabitlik qarşılıqlı etimadı gücləndirir, uzunmüddətli iqtisadi əməkdaşlıq üçün və xarici sərmayələrin daha çox cəlb olunmasına şərait yaradır.

Bütün bu amillər birlikdə üç ölkənin qlobal bazarlara inteqrasiyasını və strateji üstünlüklərini möhkəmləndirir. İri infrastruktur layihələrinin reallaşdırılması yeni investisiya imkanları açır və iqtisadi şəbəkənin genişlənməsinə səbəb olur. Əməkdaşlıq eyni zamanda regionu qlobal iqtisadi sistemdə yeni oyunçuya çevirir. Azərbaycanın təşəbbüsləri bu prosesdə xüsusilə əhəmiyyətlidir: tranzit gəlirlərinin artması, ölkənin etibarlı logistika və enerji qovşağı kimi mövqeyinin möhkəmlənməsi real strateji üstünlüklər yaradır. Xarici ticarətdən məlum olan qravitasiya modeli göstərir ki, tranzit məsafəsinin qısalması və logistika xərclərinin azaldılması ticarət həcmini əhəmiyyətli dərəcədə artırır. Eyni zamanda iqtisadi coğrafiya konsepsiyasına əsasən isə iqtisadi əməkdaşlıq sənaye və xidmətlərin klasterləşməsinə təkan verir. Bu da regionda iqtisadi inkişaf perspektivlərinin dayanıqlığını daha da gücləndirir.

Nəticə etibarilə, Türkmənistan, Azərbaycan və Özbəkistanın iqtisadi əməkdaşlığı həm regional iqtisadiyyatların güclənməsinə, həm də qlobal ticarət şəbəkəsində yeni imkanların yaranmasına şərait yaradır. Enerji və logistika sahələrində formalaşan sinerji hər üç ölkənin iqtisadi gücünü artırır, strateji mövqelərin möhkəmlənməsi isə inteqrasiyanı daha da dərinləşdirir. Hər bir ölkənin spesifik sahədə malik olduğu potensial qarşılıqlı tamamlayıcı yaratmaqla regional əməkdaşlığın dayanıqlığını artırır və qlobal iqtisadiyyatda daha güclü mövqeyə çıxış imkanı verir.

***Şaiq ADIGÖZƏLOV,***
***iqtisad üzrə fəlsəfə doktoru***

# Qarabağ və Şərqi Zəngəzurun "yaşıl" gücü artır

(əvvəli 1-ci səhifədə)





Ötən müddətdə bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalının gerçəkləşdirilməsi, enerji səmərəliliyi tədbirlərinin həyata keçirilməsi, elektrik nəqliyyat vasitələrindən istifadə üçün infrastrukturun qurulması, tikililərin damlarında bərpa olunan enerji qurğularının yerləşdirilməsi, xüsusən günəş panellərinin quraşdırılması, həmçinin küçələrin və yolların LED lampaları ilə işıqlandırılması kimi "yaşıl" həllərin tətbiqi istiqamətində genişmiqyaslı işlər görülüb.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə ümumi qoyuluş gücü 270 MVt olan 32 ədəd su elektrik stansiyası ilə yanaşı, 700-dən çox fərdi yaşayış evində və ictimai binalarda günəş panelləri quraşdırılıb. Laçın rayonunun Zabux və Sus kəndlərində hər bir fərdi yaşayış evində, inzibati binada, məktəb və uşaq bağçasında damüstü günəş panelləri quraşdırılaraq vətəndaşların istifadəsinə verilib. Laçın şəhərində də yaşayış evlərinin hər birinin üzərində 3-5 kVt gücündə günəş panelləri sistemi həm şəbəkəyə qoşulmaqla, həm də avtonom olaraq quraşdırılıb.

Bu texnologiyaların tətbiqi enerji təminatını ekoloji cəhətdən təmiz etməklə bərabər əhali üçün elektrik enerjisinə olan xərcləri əhəmiyyətli dərəcədə azaldır. Gələcəkdə yeni tikiləcək fərdi yaşayış evlərində və ictimai binalarda da damüstü günəş panellərinin quraşdırılmasının davam etdiriləcəyi nəzərdə tutulur. Bundan əlavə, işğaldan azad edilmiş ərazilərdə küçə və yolların işıqlandırılmasında istifadə edilən LED işıqlandırma sistemi enerjiyə qənaət etməklə yanaşı, şəhərlərin estetik görünüşünü də yaxşılaşdırır. Elektrikli nəqliyyat vasitələrindən istifadənin təşviqi ilə ətraf mühitin qorunmasına töhfə vermək məqsədilə bu ərazilərdə elektrik doldurma məntəqələrinin sayı da artırılır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kiçik su elektrik stansiyaları (KSES) da bu gün səmərəli fəaliyyət göstərir. Energetika Nazirliyinin məlumatına görə, Kəlbəcər rayonunun Tərtər çayı üzərində yerləşən"Çıraq-1" və Qaraarxac çayı üzərindəki "Çıraq-2" KSES-lərdə indiyədək 91,4 milyon kVt/saat elektrik enerjisi istehsal olunub. Energetika Nazirliyinin məlumatına görə, bu stansiyalar 2023-cü il avqustun 25-də istismara verilib.

Ümumi gücü 8,33 MVt olmaqla hər biri 4,165 MVt gücündə 2 hidroaqreqatdan ibarət basqılı derivasiya tipli "Çıraq-1" KSES-də istismara verildiyi tarixdən bu il iyulun 1-dək 51 milyon kVt/saat elektrik enerjisi istehsal edilib. Hər biri 3 MVt gücündə 2 ədəd hidroaqreqatdan ibarət ümumi gücü 6 MVt olan basqılı derivasiya tipli "Çıraq-2" KSES-də isə cari ilin iyul ayınadək istehsal göstəricisi 40,4 milyon kVt/saat olub.

Kəlbəcər rayonunda Tərtər çayı üzərində yerləşən "Soyuqbulaq" KSES istismara verildiyi tarixdən bu ilin iyulun 1-dək 42 milyon kVt/saat elektrik enerjisi istehsal olunub. Ümumi gücü 5,3 MVt olan və hər biri 2,65 MVt gücündə 2 ədəd hidroaqreqatdan ibarət basqılı derivasiya tipli bu stansiya isə 2023-cü il avqustun 25-də istismara verilib.

Onu da deyək ki, Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində ümumi gücü Azərbaycan tərəfi üçün 140 MVt (100 MVt "Xudafərin", 40 MVt "Qız qalası") olmaqla, iki su elektrik stansiyasının tikintisi hazırda davam etdirilir.

"AzərEnerji"nin məlumatına görə, "Enerso Cəbrayıl" MMC və "Clean Energy Cəbrayıl" MMC tərəfindən inşa ediləcək 50+50 MVt-lıq günəş elektrik stansiyalarının 2027-ci ildə şəbəkəyə qoşulması planlaşdırılır. Bərpa olunan enerji mənbələri üzrə hərrac layihəsi çərçivəsində 100 MVt gücündə günəş elektrik stansiyasının 2026-cı ildə şəbəkəyə qoşulması nəzərdə tutulur. Çin şirkəti "China Gezhouba" tərəfindən Füzuli rayonunda inşa ediləcək 160 MVt-lıq günəş elektrik stansiyasının isə 2030-cu ilə qədər istismara verilməsi gözlənilir.

Qeyd edək ki, ilkin hesablamalara görə, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında isə günəş enerjisi layihələri üçün əlverişli potensial mövcuddur və bu texniki potensial 7200 MVt-dan artıq olaraq qiymətləndirilir. Eyni zamanda, araşdırmalara əsasən, Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olması bildirilir.

# Subsidiyalaşdırılma bağlarda bolluq yaradır

*7 ayda 8 milyard manatlıq kənd məhsulunun yarısı meyvədir*



**Azərbaycanda bağçılığa dövlət dəstəyinin artırılması, müasir standartlara uyğun intensiv bağların salınmasının subsidiyalaşdırılması rəqabətədavamlı kənd təsərrüfatı məhsullarının istehsal və ixracının artmasına müsbət təsir edir. Təkcə onu qeyd etmək kifayətdir ki, bu ilin 7 ayında ölkənin aqrar sektorunda istehsalın həcmi 8 milyard 204,5 milyon manat təşkil edib ki, bunun da 4 milyard 135,5 milyon manatı bitkiçilik məhsullarının payına düşüb.**

Məlum olduğu kimi, Aqrar Subsidiya Şurası 2019-cu ildən başlayaraq yeni salınmış intensiv bağların hər hektarına görə fermerlərə yüksək əmsallı subsidiyalar ayırır. Sonrakı illərdə isə intensiv bağlara əkin subsidiyası ilə yanaşı, birdəfəlik əkin subsidiyası da verilir. İntensiv bağçılığa dövlət dəstəyinin artırılmasında məqsəd yeni intensiv və superintensiv bağların salınmasını stimullaşdırmaq, xarici bazarlara meyvə ixracını artırmaq, kənd təsərrüfatında müasir suvarma sistemlərinin tətbiqinin genişlənməsini, su və torpaq resurslarından səmərəli istifadəni, bitkiçilik sahəsində rayonlaşma prosesini və əkinə daha az yararlı torpaqlara investisiya qoyuluşunun artmasını təmin etməkdir.

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən, ötən illər ərzində meyvə bağlarının subsidiyalaşdırılması ilə bağlı işlər özünü tam doğruldub. Ölkədə müasir intensiv bağların sahəsi genişlənib, müasir suvarma sistemlərinin tətbiqinə maraq artıb, su və torpaq resurslarından səmərəli istifadə səviyyəsi yüksəlib. Ən əsası isə xarici bazarlara kənd təsərrüfatı məhsullarının ixracında ciddi artım qeydə alınıb. Bu nəticələr subsidiyalaşmaya ayrılan dövlət vəsatinin dəfələrlə çox miqdarda səmərəli geri dönüşünün təmin olunması deməkdir.

İntensiv bağçılığın dövlət tərəfindən subsidiyalaşdırılması ilə ölkəmizdən xarici bazarlara meyvə ixracının artması arasında bağlılıq mövcuddur. 2020-2024-cü illərdə Aqrar Subsidiya Şurası tərəfindən meyvə bağlarının salınmasına, ümumilikdə, 171,3 min manat əkin subsidiyası ayrılıb. Həmin dövrdə ölkəmizdən xarici bazarlara, təxminən, 2,22 milyard manat dəyərində meyvə ixrac edilib. 2020-2024-cü illərdə meyvə ixracının dəyəri bu sahənin dəstəklənməsi üçün ayrılan subsidiyaların həcmindən 13 dəfə çoxdur.

Kənd təsərrüfatı mütəxəssisləri bildirilər ki, intensiv meyvə bağları 2-ci ildən bara düşməyə başlayır. 3-4-cü illərdə isə həmin bağlardan bol məhsul yığılaraq daxili və xarici bazarlarda realizə edilir. Yəni, 2020-ci ildə salınmış meyvə bağlarından artıq 2022-ci ildən ciddi həcmdə məhsul yığılmağa başlayır. Bu səbəbdən ayrılan subsidiyaların həcminin meyvə ixracının artımı şəklində geri dönüşü, təxminən, 2-3 ildən sonra özünü göstərir. Elə 2020-2024-cü illər üzrə subsidiya və meyvə ixracatı rəqəmlərinin iki illik təhlili də bu fikri təsdiqləyir. Məsələn, 2020-cu ildə dövlət tərəfindən intensiv meyvə bağlarının salınmasına ayrılmış 30 milyon manata yaxın subsidiya 2 il sonra öz bəhrəsini verib. Yəni, 2022-ci ildə ölkəmizdən meyvə ixracının həcmində əvvəlki illə müqayisədə 38,7 milyon manat artıb. 2021-ci ildə intensiv bağlara ayrılmış 33,8 milyon manatlıq subsidiya 2023-cü ildə 65 milyon manata yaxın meyvə ixracı ilə nəticələnib. Göründüyü kimi, intensiv meyvə bağlarının subsidiyalaşdırılması müqabilində meyvə ixracı ildən-ilə artır və bağların salınmasına ayrılan dövlət vəsaiti bağlar bara düşdükdən sonra dəfələrlə artıq miqdarda geri dönür.

Son 5 il ərzində isə ölkədə intensiv meyvəçiliyin inkişafına ayrılan subsidiyaların miqdarı 28 faiz, meyvə ixracı isə 41 faiz artıb. Artım göstəriciləri arsındakı nisbət intensiv bağçılığın inkişafına yönəlmiş dövlət dəstəyi siyasətinin düzgün müəyyən olunduğunu, ayrılan subsidiyaların artan ixracat formasında səmərəli geri döndüyünü təsdiqləyir. Subsidiyaların əlavə dəyər yaradılması baxımından səmərəli geri dönüşünü meyvəçilik sahəsi ilə yanaşı, tərəvəzçilik, taxılçılıq və kənd təsərrüfatının digər sahələrində də görmək mümkündür.

İntensiv meyvə bağlarının salınmasına dövlət dəstəyinin gücləndirilməsinin meyvə ixracatının artımına müsbət təsiri 2025-ci ilin yanvar-iyul aylarında da davam edib. Hesabat dövründə ölkəmizdən, ümumilikdə, 50,4 milyon ABŞ dolları dəyərində 490,6 min ton meyvə-tərəvəz ixrac olunub. Ötən ilin eyni dövrü ilə müqayisədə ixracın dəyərində 122,5 milyon dollar və ya 32 faiz, həcmində isə 122 min ton və ya 33,1 faiz artım qeydə alınıb. Yanvar-iyul aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə xarici bazarlara qoz-fındıq ixracı 33,1 faiz, sitrus meyvələri ixracı 54 faiz, alma, armud və heyva ixracı 53,6 faiz, ərik, albalı, gilas, şaftalı ixracı 33 faiz, nar ixracı 37,7 faiz, digər meyvələrin ixracı isə 76,2 faiz artıb.

2025-ci ilin 7 ayı ərzində ölkəmizdə meyvə bağlarının salınmasına ümumilikdə 43,7 milyon manat subsidiya verilib. Bu ilin yanvar-iyul ayları ərzində xarici bazarlara təxminən 313 milyon dollar dəyərində meyvə ixrac olunub. Bu dövrdə meyvə ixracının dəyəri 7 ay ərzində bu sahənin subsidiyalaşdırılmasına ayrılan məbləğdən 7,2 dəfə çoxdur. Bu rəqəmlər ayrılan subsidiyaların məbləğinin geri dönüş səviyyəsinin kifayət qədər yüksək olduğunu göstərir.

Aqrar Subsidiya Şurasının 2024-cü il avqust qərarına əsasən, ötən ilin 1 sentyabr tarixindən bu il mayın 31-dək dağlıq və dağətəyi ərazilərdə salınan fındıq bağlarının hər hektarına 4 min 400 manat, qoz bağlarının hər hektarına 3 min 300 manat, nar bağlarının hər hektarına 3 min manat, limon və kinkan bağlarının hər hektarına 11 min 600 manat, naringi və portağal bağlarının hər hektarına 9 min 600 manat, şaftalı və ərik bağlarının hər hektarına 4 min manat, alma bağlarının hər hektarına 11 min manat, armud bağlarının hər hektarına 8 min manat, gilas bağlarının hər hektarına 10 min manat birdəfəlik əkin subsidiyası verilib. Bundan əlavə, növbəti 4 il ərzində bu bağların hər hektarına görə fermerlərə ildə 800 manat əkin subsidiyasının verilməsi nəzərdə tutulur.

Adları çəkilən intensiv bağların salınmasının artıq bir neçə ildir dövlət tərəfindən subsidiyalar ayrılması şəklində dəstəklənməsi həm xarici bazarlarda rəqabətədavamlı meyvə istehsalının artmasını, həm də ixracın həcm və dəyər olaraq yüksəlməsini təmin edir.

# Dəniz daşımalarından gəlirimiz çoxalıb

**Cari ilin birinci yarısında ölkəmizdə dəniz nəqliyyatı ilə yük və sərnişin daşımalarından 130 milyon 79 min manat gəlir əldə olunub. Bu da 2024-cü ilin müvafiq dövrünün göstəricisi (108 milyon 971,9 min manat) ilə müqayisədə 19,4 faiz çoxdur.**




Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu ilin ilk yarısında dəniz nəqliyyatı ilə yük daşımalarından 129 milyon 956 min manat gəlir əldə olunub. Bu sahədə əvvəlki ilin eyni dövrünün göstəricisi (108 milyon 151,9 min manat) ilə müqayisədə 20,2 faiz artım qeydə alınıb. Ümumilkdə isə, cari ilin ilk 6 ayında dəniz nəqliyyatı ilə 4 milyon 611,5 min ton yük daşınıb ki, bu da 11,8 faiz artım deməkdir. Hesabat dövründə bu nəqliyyat növü ilə 2 milyon 246,6 min ton neft və neft məhsulları daşınıb. Bu da ümumi yüklərin 48,7 faizi deməkdir.

Bununla belə, ilin birinci yarısında dəniz nəqliyyatı ilə sərnişin daşımalarında azalma qeydə alınıb. Hesabat dövründə bu sahədə 123 min manat gəlir əldə olunub. Bu isə ötən ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə xeyli azdır.

Xatırladaq ki, 2025-ci ilin yanvar-iyun aylarında Azərbaycanda dəniz nəqliyyatı ilə 4 milyon 611,5 min ton yük və 12,8 min sərnişin daşınıb. Bu da illik müqayisədə müvafiq olaraq 11,8 faiz artım və 4,5 faiz azalma deməkdir.

# Ölkəmizin Britaniya ilə ticarəti genişlənib



**Gömrük Komitəsinin məlumatına görə, cari ilin yanvar – iyul aylarında Azərbaycanla Britaniya arasında ticarət əməliyyatlarının həcmi 886 milyon ABŞ dolları (2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 336 milyon dollar və ya 54 faiz çox) təşkil edib.**

Bildirilib ki, hesabat dövründə Britaniya ilə ticarət əməliyyatları Azərbaycanın ümumi ticarət dövriyyəsinin 3,07 faizi həcmində olub. Bununla da Britaniya ölkəmizin ən çox ticarət əməliyyatları apardığı ölkələr sırasında 6-cı yerdə qərarlaşıb.

Cari ilin yanvar – iyul aylarında Azərbaycandan Britaniyaya 216 milyon dollarlıq məhsul göndərilib. Eyni zamanda, bu dövrdə Britaniyadan respublikamıza 670 milyon dollar (illik müqayisədə 518,4 milyon dollar və ya 4,4 dəfə çox) dəyərində idxal əməliyyatları həyata keçirilib.

Qeyd edək ki, 2025-ci ilin yanvar – iyul aylarında Azərbaycan xarici ölkələrlə 29 milyard dollar (ötən ilin eyni dövrünə nisbətən 7,25 faiz çox) dəyərində ticarət əməliyyatı aparıb. Xarici ticarət dövriyyəsinin 15,2 milyard dolları ixracın, 13,6 milyard dolları isə idxalın payına düşüb.

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

# "Rüzgarında dan sökülən, üzü gülən Kəlbəcərim"

(əvvəli 1-ci səhifədə)

Həmsöhbətimiz əslən bu diyardan olan, gənclik illərindən rayonun idarəetmə orqanlarında fəaliyyət göstərmiş, sonra isə uzun illərdən bəri Nazirlər Kabineti Aparatının məsul vəzifələrdə çalışan, qaçqınların və məcburi köçkünlərin məsələləri üzrə məsul şəxs olan Qurban Sadıqovdur. O vaxt işi ilə əlaqədar Kəlbəcərin bütün ərazisini, dağları, yaylaqları addım-addım gəzib, hər kənddə insanlarla yaxın ünsiyyət qurub, hər kəsin qayğısını özünükü bilib. Xeyli müddət bir yerdə çalışdığı yazıçı-publisist, fəlsəfə doktoru Akif Əli demişkən, dağları qədər vüqarlı insanların yaşadığı Kəlbəcərin füsunkar təbiəti də gənc kadrın əsl yurdsevər bir vətəndaş kimi formalaşmasına mühüm vəsilə olub. El-obanın səmimiyyəti, saflığı onun da canına-qanına hopub. Amma 1993-cü il aprelin 2-də hərbi təcavüzə məruz qalan səfalı Kəlbəcər oda bələnib işğal olununca, Murovun sərt aşırımlarına üz tutan el-obanın əzablı günlərində Qurbangilin ailəsi də isti ocağını tərk etməli olub. O özü həmin ilin iyulundan Bakıda, Azərbaycan Respublikası Nazirlər Kabinetində Qaçqınların və məcburi köçkünlərin işləri üzrə şöbədə sıravi referent kimi fəaliyyətə başlayıb və dövlət qulluğunda pillə-pillə irəliləyib.

Ən çətin günlərdə belə ruhdan düşməyən Qurban müəllim dəfələrlə "Biz o yerlərə mütləq qayıdacağıq" – deyən ulu öndər Heydər Əliyevə, dahi şəxsiyyətin layiqli varisi Prezident İlham Əliyevə öz varlığı qədər inanıb. Bu iqtidarın Qarabağda, gözəlliklər diyarı Kəlbəcərdə də möcüzə yaradaraq torpağı azad edəcəyinə, həyatı dirçəldəcəyinə inamı sarsılmaz olub. Nəhayət, bu inam özünü doğrultdu, dağlar diyarının ən uca zirvələrində Azərbaycan bayrağı dalğalanmağa başladı. İndi artıq o ulu yerlərə də köç başlayıb.

Qurban Sadıqovla söhbətimiz azad olunduqdan sonra sürətlə dirçəldilən, cənnətə çevrilən Kəlbəcərin bugünkü növrağı barədədir.

– AXC–Müsavat cütlüyü hakimiyyəti zəbt edən vaxt ölkə rəhbərliyində gedən daxili çəkişmələr, qətiyyətsizlik, təcrübəsizliklə bağlı təbəddülatlar səbəbindən Kəlbəcər kimi məğrur qala əldən getmişdi. Amma bir neçə ay sonra ulu öndərin hakimiyyətə gəlməsi sönməkdə olan ümidi inama, kövrək inamı məqsədə, hədəf amalına çevirdi. Düz 27 il "Kəlbəcərə qayıdacağıq" dedik, buna günbəgün daha ürəkdən inandıq və nəhayət, 44 günlük Zəfər Yürüşü zamanı düşmənə sərt, barışmaz dərsimizi göstərməyimiz hesabına Laçın və Ağdam kimi, Kəlbəcər də bir güllə belə atılmadan geri alındı, – deyə Qurban müəllim söhbətə başladı. – Bu gün artıq həmyerlilərimin bir qismi Kəlbəcər şəhərində 1-ci yaşayış kompleksinin ərazisində tikilmiş fərdi və çoxmərtəbəli evlərə köçüb. Qətiyyətlə deyirəm: əlçatmaz zirvələri qəhrəmancasına fəth etməyimizin kökündə 1993-cü ildə xalqın təkidli tələbi ilə ümummilli liderin siyasi hakimiyyətə qayıtması, 1994-cü ildə Qarabağ münaqişəsində atəşkəsə və karbohidrogen ehtiyatları üzrə "Əsrin müqaviləsi"nin imzalanmasına nail olması, sonrakı dövrlərdə iqtisadiyyatımızın və hərbi gücümüzün artırılması, eyni zamanda xalqımızın işğala məruz qalmış tarixi torpaqlarımızın azadlığı naminə hər cür fədakarlığa hazırlıq əzmi, qələbəyə möhkəm inamı durur. Heydər Əliyev məktəbinin ən layiqli yetirməsi, möhtərəm Ali Baş Komandanımız İlham Əliyevin siyasi qətiyyəti, sərkərdəlik bacarığı, dövlət–xalq–ordu birliyinin sarsılmazlığı, Azərbaycanın dünya birliyində öz layiqli yerini tutması haqq işimizin böyük qalibiyyətlə başa çatmasını təmin edib.



**– Sakinlərlə görüşündə cənab İlham Əliyev bu nüansa bir daha toxundu...**

– Doğrudur. Orada dövlət başçısının dediklərinin bir qismini olduğu kimi təkrarlamaqdan məmnunluq duyuram. Möhtərəm Prezidentimiz dedi: "Azərbaycan dövləti və Azərbaycan xalqı bir yumruq kimi birləşdi və biz Ermənistanı cəmi 44 gün ərzində kapitulyasiya aktını imzalamağa məcbur etdik... Kəlbəcər bir güllə atılmadan azad edildi. Siz kəlbəcərlilər bu bölgənin relyefini, iqlimini çox yaxşı bilirsiniz. Mən də çox yaxşı bilirəm, çünki dəfələrlə burada olmuşam və əvvəlki dövrlərdə buraya Ömər aşırımından keçmişəm. Kəlbəcəri 2020-ci ilin sonunda, – artıq qış başlanmışdı, – hərbi yolla azad etmək böyük itkilərlə nəticələnərdi. Təbii ki, biz azad edəcəkdik. Çünki Ermənistan ordusunu biz o vaxt, demək olar ki, məhv etmişdik. Ancaq onların güclü istehkamları var idi. O vaxt Ağdərə rayonu bizim nəzarətimizdə deyildi. Tək yeganə yol Murov istiqamətindən idi və yenə də deyirəm, biz böyük itkilər verə bilərdik. Ona görə tarix bir daha göstərdi ki, 2020-ci il noyabrın 10-da müharibənin dayandırılması ən düzgün addım idi". Bax, belə alındı Kəlbəcər.

**– Qurban müəllim, doğma yurdda azad nəfəs almaq, qayıdış iftixarını yaşamaq necə bir hissdir?**

– Sevinc, qürur dolu kövrək bir hissdir. İlk növbədə, Prezidentimiz İlham Əliyevin tarixi və çoxşaxəli fəaliyyətinin sayəsində bizə bu səadət bəxş olunub. Dövlət başçımızın Kəlbəcərə növbəti səfərində görülən işlərlə tanışlıqlardan, təməlqoymalardan, açılışlardan sonra sakinlərə mənzillərin açarlarını təqdim etməsi, onlara ən səmimi, ən xoş sözlər söyləməsi hər birimizin ürəyini dağa döndərdi. Kəlbəcər azad ediləndən sonra oraya etdiyi ilk qalibiyyət səfərində cənab İlham Əliyev bəyan etmişdi ki, Kəlbəcəri cənnətə çevirəcəyik... Budur, həmin cənnətin qapıları artıq kəlbəcərlilərin üzünə açıldı.

Necə ki, Vətən müharibəsində qazanılan qələbə dünya miqyasında analoqu olmayan möhtəşəm Zəfərdir, eləcə də bu Zəfərin nailiyyətlərinin, bəhrələrinin dünyada bənzəri yoxdur. Bu gün Qarabağı, Şərqi Zəngəzuru başdan yaradan qurucu lider İlham Əliyev Kəlbəcəri də artıq Azərbaycan və Qafqaz timsalında yox, dünya miqyasında unikal inkişaf məkanına çevirir. Rekord müddətdə rahat yolların, uzun-uzun tunellərin çəkilişi, su-elektrik yarımstansiyalarının hər tərəfi nura qərq etməsi, yaşayış komplekslərinin artıq insan nəfəsi ilə isinməsi... bütün bu layihələrin gerçəkləşməsi əsl möcüzələrdir. Təkcə yol, işıq infrastrukturu deyil, eyni zamanda bütün digər sahələrdə böyük işlər görülür. Kəlbəcər şəhərinin Baş planı Prezidentin tapşırığı ilə hazırlanıb və Nazirlər Kabineti tərəfindən təsdiq olunub. Buna uyğun olaraq işlər davam etdirilir. 1-ci və 2-ci yaşayış komplekslərinin təməlqoymasından sonra orada nələr yaradılmayıb! Avqustun 21-ə təsadüf edən son tarixi səfər zamanı isə artıq 3-cü və 4-cü komplekslərin, şəhər parkının özülləri qoyuldu. Vəng kəndində "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su elektrik stansiyalarının açılışı reallaşdı. Sakinlərlə heç vaxt unudulmayacaq təsirli bir görüş oldu...

**– Sözünüzü balla kəsim, hətta Prezident İlham Əliyev "Balland–Kəlbəcər balı, arı və arıçılıq məhsulları mağazası"nın açılışında iştirak etdi.**

– Bəli. Arıçılıq Kəlbəcər əhalisinin əsas məşğuliyyət sahələrindən biri olub və bu peşə nəsildən-nəslə ötürülərək bu günə qədər qorunub saxlanılıb. Vətən müharibəsindən sonra bu sahə üzrə ixtisaslaşan kəlbəcərlilər doğma torpağa qayıdaraq ailə təsərrüfatlarını yenidən qurublar. Onların istehsal etdiyi bal Kəlbəcərin ən ucqar və səfalı yaylaqlarında bitən çiçəklərdən toplanır. Rayonun dağlıq relyefi, nadir və çoxçeşidli florası, yüksək dağ çaylarının ətrafındakı əlverişli mikroiqlim burada istehsal olunan balın həm dad, həm keyfiyyət, həm də müalicəvi xüsusiyyətlərinə müsbət təsir göstərən əsas amillərdir. Ötən dəfə arıçılarla görüşündə cənab İlham Əliyevin zarafatla "Bu arılar bizə dəyməz" deməsinin necə xoş ovqat yaratması da yadımızdadır. Gələcəkdə Kəlbəcər arıçılıq məhsullarının "Made in Azerbaijan" brendi ilə dünya bazarlarına çıxarılması və onlayn satış platformasının yaradılması planlaşdırılır.



Bu kimi layihələr təkcə arıçılığın inkişafı baxımından deyil, eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi dirçəlişin təmin olunması, ekoloji cəhətdən təmiz məhsulların istehsalı və regionun kənd təsərrüfatı potensialının gücləndirilməsi baxımından da mühüm əhəmiyyətə malikdir.

**– Artıq "İstisu" geniş coğrafiyada mağazalarda satılır...**

– Elədir. Sizə deyim ki, Kəlbəcərdə 3 mindən çox mineral bulaq var. "İstisu" onlardan yalnız biridir. 2022-ci ilin yayında Prezident İlham Əliyev "İstisu" mineral su zavodunun təməlini qoyub, "İstisu"ya öz əvvəlki şöhrətini qaytarmağı qarşıda duran vəzifələrdən biri kimi xarakterizə edib. Ötən il artıq bu zavodun açılışı oldu. İndi bu məşhur su Azərbaycanla bərabər, xarici bazarda – Gürcüstanda və başqa yerlərdə də satılır.



Onu da qeyd edim ki, öz kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə, "İstisu" dünyada məşhur olan Karlovı Varı bulaqlarının (Çexiya) eynidir, lakin bir çox digər xüsusiyyətlərinə görə dünyada yeganədir. 34 hektar ərazidə salınan "İstisu" İstirahət-Müalicə Kompleksi gündəlik 300 nəfəri qəbul etmək imkanına malik olacaq. Burada sağlamlıq-bərpa mərkəzi ilə yanaşı, müasir kotteclər də tikiləcək. İşğal dövründə yararsız hala salınan sanatoriya yeni simada tam bərpa olunacaq və şəfa mənbəyinin əvvəlki şöhrəti özünə qaytarılacaq.

Təsdiqlənmiş müfəssəl Baş plana əsasən, Kəlbəcərin özünəməxsus simasının formalaşdırılması üçün ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq müxtəlif memarlıq ənənələrinin tətbiqi nəzərdə tutulub və həllini tapır. Baş planın konseptual əsasını sağlamlıq və dağ turizmi imkanlarının inkişafı, təbiətlə vəhdətdə yaşıl şəhər mühitinin yaradılması təşkil edir. Şəhərin mərkəzi hissəsində çoxmənzilli binalar, ətraflara doğru isə həyətyanı sahəsi olan fərdi evlər inşa olunur. Məktəb, xəstəxana, sosial obyektlər də öz yerində.

Növbəti 20 il ərzində Kəlbəcər şəhərinin ərazisinin 237 hektara, əhalisinin sayı isə təxminən 17 min nəfərə çatacaq. Ümumilikdə isə rayon əhalisi təxminən 95300 nəfər təşkil edir, sakinlərin 1 şəhər, 1 qəsəbə və 56 kənddə yerləşdiriləcəyi planlaşdırılır. Yəni əvvəlki 124 kənd yeni 56 kənd miqyasında birləşdiriləcək və ilk növbədə 13 yaşayış məntəqəsi bərpa olunacaq.

Kəlbəcər şəhəri Gəncə və Laçın arasında yerləşən regional məkan kimi nəzərdə tutulub və gələcəkdə şəhər növbəti urbanizasiya mərkəzinə çevriləcək. Kəlbəcər şəhərinə nəqliyyat xətlərinin, dəmir yolunun çəkilməsi, həmçinin "yaşıl enerji" və "ağıllı şəhər" konsepsiyalarından istifadə olunması gündəmdədir.

Bildiyimiz kimi, bu səfər zamanı cənab İlham Əliyev Kəlbəcər şəhər parkının da təməlini qoydu. Baş plana uyğun olaraq layihələndirilən yeni park kompleksi təxminən 11 hektar ərazini əhatə edəcək. Bu sahənin təxminən 9 hektarında yaşıllıqlar salınacaq. Parkda rayonun ictimai və mədəni həyatında baş verən tədbirlərin təşkili üçün xüsusi zonalar, idman və sağlamlıq guşələri, həmçinin uşaqlar üçün əyləncə və ekstremal macəra sahələri yaradılacaq. Prezidentin 3 il əvvəl təməlini qoyduğu Kəlbəcər Zəfər və İşğal muzeyləri də şəhərin mərkəzində qərar tutacaq. Bu muzeylər 27 illik işğal zamanı mənfur düşmənin törətdiyi vandallıqları, eyni zamanda torpaqlarımızı azadlığına qovuşduran qəhrəman ordumuzun şücaətini özündə əks etdirəcək. Dağlarla əhatələnmiş Kəlbəcər şəhərində inşa olunacaq yeni istirahət mərkəzi bölgənin gözəlliyinə yeni rəng qatacaq və turizm potensialını daha da gücləndirəcək.

Kəlbəcərdə doğulan, illərlə burada yaşayan və məcburi köçkün düşmüş biri kimi hər zaman deyirəm ki, hətta bu rayonda 70 il ərzində sovet dövründə görülməyən mühüm işləri belə çox qısa müddətdə Azərbaycan Prezidenti sürətlə gerçəkləşdirir. Məsələn, ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq, Murovdağ silsiləsinin altından 12 kilometrə yaxın tunel tikintisinin həyata keçirilməsinin özü möhtəşəm və möcüzəvi işdir. Belə tunelin çəkilməsi hələ sovet dövründən kəlbəcərlilərin böyük arzusu idi, təəssüf ki, ona çatmadıq. Amma bu möcüzəyə bənzər möhtəşəm layihəni indi İlham Əliyev çox sürətlə reallaşdırır və tezliklə əhalimiz yay, qış demədən rayona bu yollarla rahat şəkildə gəlib-gedə biləcək...

Fərəhli və qürurverici haldır ki, torpaqlarımız işğaldan azad ediləndən sonra Şərqi Zəngəzuru və Qarabağı böyük quruculuq meydanına çevirən Prezident İlham Əliyev bu ərazilərdə görülən bütün işləri şəxsi nəzarəti altında saxlayır. Mütəmadi olaraq, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birlikdə həmin bölgələrə səfər edən dövlət başçımız yeni layihələrin təməlini qoyur, gerçəkləşdirilən işlərin gedişatı ilə yerindəcə tanış olur.

Onu da deyim ki, yaylaqlar diyarı Kəlbəcərdə aqrar sektorun da ilkin nümunələri uğurla realizə olunur. Dörd ildən bəridir ki, arıçılıq təsərrüfatları ilə bərabər, heyvandarlıq da inkişaf etdirilir. Sovet vaxtında da 30-dan çox ətraf rayonda fəaliyyət göstərən aqrar sahə adamları Kəlbəcər yaylaqlarına qalxmağa üstünlük verirdilər. Çünki son dərəcə zəngin bitki örtüyünə, yem ehtiyatına malik olub…

**– Sizin də, mənim də dostumuz olmuş sevimli şairimiz, söz sərrafı Məmməd Aslan yurd itkisi ağrısının təsiri ilə belə misralar yazmışdı:**

**O Kəlbəcər qayıtmaz,**
**Qayıtsa yüz Kəlbəcər.**

– Oxumuşdum. Rəhmətlik o misraları Kəlbəcər işğal edilən zaman yazıb. Təbii ki, ustad "O Kəlbəcər" deyəndə fiziki Kəlbəcəri yox, mənəvi Kəlbəcəri nəzərdə tuturdu. O Kəlbəcər də əksər ştrixləri ilə qaytarılacaq. "Böyük Qayıdış" Konsepsiyasının növbəti mərhələlərində adət-ənənələr, tarixi vərdişli yaşayış tərzi, ilkinlik rəmzləri də qayıdacaq. Çünki Kəlbəcər dəyərlərini varlığında daşıyan ağsaqqallarımız, ziyalılarımız hələ çoxdur. Şükürlər olsun ki, Kəlbəcəri görməsələr də, Kəlbəcər dəyərləri və əxlaqı qanına, ruhuna hopmuş çoxsaylı gənclərimiz də var. Deməli, Məmməd Aslanın dediyi Kəlbəcər bərpa ediləcək. Heyf ki, işğal dövründə Kəlbəcər həsrətli ziyalılarımız arasında da itkilərimiz olub. Xatırladığımız Məmməd Aslan, Bəhmən Vətənoğlu, Sücaət, Qəmkeş Allahverdi, Şamil Dəlidağlı və onlarla digər dəyərlilərimiz Kəlbəcər həsrəti ilə dünyadan köç etdilər. Amma tam əminəm ki, bu gün onların ruhu şaddır.

Yeri gəlmişkən, şairlərimizin nikbin ovqatlı şeirləri də çox olub. Məsələn, elə o günü Kəlbəcərdə Prezidentin yeni mənzillərin açarlarını təqdim etdiyi sakinlərdən birinin də xatırladığı kimi, Sücaət yazırdı:

**Sücaət, neyləyək, baxt belə baxtdır,**
**Darıxma, hər şeyi həll edən vaxtdır.**
**Bir gün gülə-gülə qayıdacaqdır**
**Ağlaya-ağlaya köçən Kəlbəcər.**

Beləcə, tezliklə arzular, necə deyərlər, çin oldu. Özü də, Qarabağ və Şərqi Zəngəzur bütünlüklə azad edildi. Bilirsiniz ki, bəzi siyasi dairələr, xüsusilə də ATƏT-in Minsk qrupunun münaqişə bölgəsinə tez-tez "turist səfərləri"nə gələn, əməli bir iş görməyən, amma işğalçı ermənilərin nəfinə məntiqsiz, mənasız təkliflər irəli sürən üzvləri "hissə-hissə alver" söhbətləri aparırdılar. Vasitəçilər tərəfindən bizə müxtəlif variantlar təklif edilirdi. Amma həm ulu öndər, həm də Prezidentimiz heç vaxt buna getmədən, torpaqlarımızın yalnız bütövlüklə azad olunması tələbini qoyurdular və son nəticədə də biz məsələnin məhz bu cür həllinə nail olduq.

**– Kəlbəcərin turizm imkanları da çox böyükdür…**

– Əlbəttə. Azərbaycanın ən füsunkar təbiətə malik guşələrindən birinin mərkəzinin bayaq qeyd etdiyimiz Baş planında bu amil nəzərdən qaçırılmayıb. Layihəyə əsasən, parkların ərazisində yerüstü avtomobil dayanacağı, relsli xizək yolu, restoranlar, kafelər, amfiteatr və digər zəruri infrastruktur obyektlərinin inşası nəzərdə tutulur. Bir sözlə, burada həm şəhər sakinlərinin, həm də qonaqların asudə vaxtlarını mənalı və rahat keçirmələri üçün hərtərəfli şərait təmin olunacaq. Gəlirli sahə olan turizm xeyli genişlənəcək.

Cənnətməkan rayon ərazisi 30 mindən çox bulağı, 4 mindən artıq müxtəlif növ bitkisi, sahəsi 30 min hektardan çox meşələri, 4 min metrə qədər yüksəkliyi olan zirvələri, ucsuz-bucaqsız çəmənlikləri ilə təkrarolunmaz təbiət incisidir. Bütün bu sadalanan zənginliklər Kəlbəcəri turizmin ən cazibədar ünvanına çevirməyə imkan verir. Əminəm ki, Kəlbəcər unikal və fasiləsiz turizm imkanları baxımından da ölkədə əsas investisiya mərkəzlərindən biri olacaq. Xüsusilə sağlamlıqla yanaşı, turizmin bütün növləri üçün əvəzolunmaz mühitə malik olan Kəlbəcər hündür dağlıq əraziləri və digər heyrətamiz təbii zənginliyi ilə təbiət qoynunda dincəlməyi sevən turistlər üçün böyük potensiala malikdir. "Burada olan təbii gözəllik heç bir yerdə yoxdur" söyləyən cənab Prezident də əmin olduğunu bildirib ki, bu zəngin bölgə həm də ən böyük turizm zonası olacaq.

Vaxtilə Kəlbəcərin öz azadlığına qovuşacağına, kəlbəcərlilərin öz yerlərinə, yurdlarına qayıdacaqlarına qəti əminliyini bildirən Ulu öndərin fikirləri artıq aşkar gerçəkliyə dönüb. Biz möhtərəm Prezidentimizin, Ali Baş Komandanımızın rəhbərliyi ilə o xoşbəxtliyə yetişmişik və gedişat da göstərir ki, Kəlbəcərə rayon əhalisinin köç karvanlarının axını daha intensiv olacaq.

*Hazırladı:*
***Əli NƏCƏFXANLI***
***XQ***

*Tarix heç nəyi unutmur*

# Qərbi azərbaycanlıların Naxçıvanda məskunlaşması

## Rusiya işğalı ilə başlamış deportasiyalar SSRİ-nin süqutunadək davam edib

**Rusiya imperiyasısının Quzey Azərbaycanı işğal etməsindən sonra İran və Türkiyə ermənilərini Qərbi Azərbaycan və Qarabağ torpaqlarında yerləşdirməsi yerli türk-müsəlman əhalinin davamlı deportasiyası ilə müşayiət olunub. Erməni basqılarının qarşısında alınmaz qala kimi dayanmış Naxçıvan faciəli soyqırımları və köçürmələr zamanı qonşu mahallarda yaşayan Qərbi azərbaycanlıların ilk pənah gətirdiyi, doğma sığınacaq tapdığı qeyrət və dəyanət yurdu olub.**



Erməni millətçilərinin Naxçıvanla bağlı xülyalarını, törətdikləri vəhşilikləri, Qərbi azərbaycanlıların Naxçıvanda məcburi məskunlaşma xronikasını elmi baxımdan araşdırmış Naxçıvan Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru Elman Cəfərli göstərir ki, soydaşlarımızın Qərbi Azərbaycandan sıxışdırılaraq Naxçıvana köç etməsi 1828-ci ilin əvvəllərindən başlanıb:

– XX əsrdə isə ermənilər havadarlarının köməyi ilə indiki Ermənistan ərazisində azərbaycanlılara qarşı 1905–1906-cı illərdə və 1918–1920-ci illərdə etnik təmizləmə, 1930-cu illərdə kütləvi repressiyalar, 1948-1953-cü illərdə deportasiya həyata keçirmiş və nəhayət, 1988–1989-cu illərdə etnik təmizləməni başa çatdırmağa müvəffəq olmuşlar. Bütün mərhələlərdə Qərbi Azərbaycandan olan soydaşlarımız Naxçıvan bölgəsinə də üz tutub burada məskunlaşıblar.

Qərbi Azərbaycan öz relyefinə görə əsasən dağlıq ərazilərdən ibarətdir. Bu halda tarixən əkinçiliklə məşğul olmuş və artıq torpaqsız qalan Azərbaycan türklərinin müəyyən bir qismi Azərbaycanın digər bölgələrinə, o cümlədən Naxçıvana köçüb məskunlaşırdı. Digər tərəfdən, 1905–1907-ci və 1918–1920-ci illərdə Qərbi Azərbaycanda ermənilərin həyata keçirdiyi faciəli hadisələr, qanlı cinayətlər bölgədə soydaşlarımızın sayının xeyli azalması ilə nəticələnmişdi. Bu dövrdə indi Qərbi Azərbaycan adlandırdığımız torpaqlardan Naxçıvana nə qədər soydaşımızın köçürüldüyünü demək çox çətindir. Çünki həmin dövrdə ermənilər Naxçıvanda da əhalinin soyqırımını həyata keçirirdilər.

O zamanlar erməni zülmündən qaçmaq istəyən Azərbaycan türklərinin bir qismi Cənubi Azərbaycana sığınmaq məcburiyyətində qalırdılar. Məsələn, 1897-ci ilə nisbətən 1909-cu ildə Naxçıvanda azərbaycanlı əhalinin sayı 31 min 279 nəfər, yəni 34,6 faiz azalmışdı. Həmin illərdə əhalinin təbii artımını da nəzərə alsaq, 1905–1907-ci illərin soyqırımı nəticəsində ermənilər tərəfindən öldürülən və didərgin düşən soydaşlarımızın hesabına təkcə Naxçıvanda azərbaycanlı əhalinin sayı təxminən, 2 dəfə azalmışdı.

Qərbi Azərbaycan əhalisinin Naxçıvana kütləvi şəkildə pənah gətirməsi də məhz bu soyqırım mərhələrinə təsadüf edir. 1906-cı ilin iyul–avqust aylarında ermənilərin Zəngəzur kəndlərində törətdikləri qanlı qırğınlardan salamat çıxıb canını qurtaran soydaşlarımız Naxçıvana, xüsusilə Ordubad mahalının kəndlərinə sığınmışdılar. Bu dövrdə Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın Naxçıvana daha çox pənah gətirməsinin əsas səbəbi Gəncə quberniyasının bütün ərazisi boyu – Gəncənin özündə, Cavanşir, Şuşa və Cəbrayıl qəzalarında da ermənilərin törətdiyi kütləvi qırğınlar nəticəsində Azərbaycanın şərq torpaqlarına təhlükəsiz keçib getməyin mümkün olmaması idi.

1906-cı ilin sentyabrında 1000 nəfəri Zəngəzur kəndlərindən, 800 nəfəri ordubadlılardan olmaqla, 1800 nəfərlik könüllü dəstələr bütün kəndləri işğaldan azad etsələr də burada tamamilə dağıdılmış kəndlər qalmışdı. Ümumiyyətlə, 1905–1906-cı illərdə İrəvan quberniyasının dağıdılmış 242 kəndində 70 min 728 nəfər türk-müsəlman ermənilərin törətdiyi soyqırımın qurbanı olmuş, sağ qalanların böyük bir qismi Naxçıvana və Cənubi Azərbaycan torpaqlarına sığınmışdı.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin səhv qərarı ilə İrəvan və ətrafı ermənilərə güzəştə gedilməsinin sonrakı dövrdə Qərbi Azərbaycan əhalisinindavamlı basqılara, vəhşiliklərə məruz qalmasına meydan açdığını qeyd edən tarixçi alim bildirir:

– Xalq Cümhuriyyətin qurucuları Qərbin imperialist dövlətlərinin təzyiqi altında, Osmanlı Dövləti hakimiyyətindəki bəzi şəxslər kimi belə düşünürdülər ki, əgər ermənilərə müəyyən kiçik bir ərazidə dövlət qurmaq imkanı verilərsə, bölgədə ermənilərin 1918-ci ilin əvvəllərindən başladıqları soyqırıma son qoyulacaq, torpaqlarımıza daimi sülh gələcəkdir. Lakin elə həmin İrəvan və ətrafının daşnaklara güzəştə gedildiyi günlərdə ermənilərin qanlı cinayətlərinə davam etmələri bu addımın kökündən yanlış olduğunu göstərirdi.

Məhz bu səhv qərardan şirniklənən tarixdə ilk dəfə 1918-ci ildə tarixi Azərbaycan torpaqlarında yaradılmış erməni-daşnak dövlətinin orduları 1918-1920-ci illərdə bütün qüvvəsini digər Azərbaycan torpaqlarının, xüsusilə Zəngəzurun işğalına yönəltmişdi. Ermənilər Zəngəzurun işğalına həm də Naxçıvanı Azərbaycanın əsas hissəsindən coğrafi baxımdan ayıraraq, daha asan şəkildə işğal etmək üçün bir vasitə kimi baxırdılar. Buna görə də 1918-1920-ci illərdə ermənilər Zəngəzurda daha dəhşətli soyqırım törətdilər.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1919-cu il noyabrın 23-də ABŞ nümayəndələrinin vasitəçiliyi ilə Tiflisdə daşnak rejimi ilə saziş imzaladıqdan dərhal sonra öz hərbi qüvvələrini Zəngəzurdan çıxarması da növbəti səhv addım idi və bu, bölgə üçün faciəvi sonluqla nəticələndi. Bu hadisədən sonra Zəngəzur və Qars vilayətlərində ermənilər tətərfindən 88 müsəlman kəndi yandırıldı, 131 min 930 nəfər öldürüldü. Sağ qalan azsaylı əhali Naxçıvana pənah gətirdi.

Ümumiyyətlə, ermənilərin qanlı cinayətləri nəticəsində 1918-ciilədək Qərbi Azərbaycanda yaşayan 575 min nəfər müsəlman əhalinin 1920-ci ilin əvvəllərində cəmi 10 min nəfərindən bir qədər çoxu burada yaşamaqda davam edirdi. Əhalinin böyük bir hissəsi soyqırım qurbanı olmuş, sağ qalan əhali isə Naxçıvana və Cənubi Azərbaycana pənah aparmışdı.

Görkəmli dövlət xadimi Behbud ağa Şahtaxtinski Azərbaycan İnqilab Komitəsinin 1921-ci il aprelin 19-da keçirilən iclasında "Naxçıvanın siyasi və iqtisadi vəziyyəti haqqında" məruzəsində bildirirdi ki, Naxçıvan, Ordubad və Şərur-Dərələyəz qəzalarında ermənilər tərəfindən azı 240 kənd xarabazarlığa çevrilmişdir. Qaçqınlar məsələsi ətrafında uzun müddət Naxçıvan MSSR ilə Ermənistan SSR, RSFSR və bu sovet respublikaları ilə Təbrizin bələdiyyə rəisi, Maku sərdarı, Culfa gömrüyünün rəisi arasında uzun-uzadı yazışmalar getmişdi. Nəticədə İttifaq Soveti Qərbi Azərbaycandan olan 28 min qaçqının Naxçıvanda saxlanması barədə qərar qəbul etmişdi. Zəngəzurdan qaçqınların gəlməsi prosesi 1923-cü ildə də davam etmişdi.

Həmin qaçqınlar sonradan geri qayıda bilməyərək, Culfa şəhəri və ətrafında, Əbrəqunus, Qazançı, Arınc və başqa kəndlərdə məskunlaşdırıldılar. Qeyd edim ki, XX əsrin sonrakı dövründə, yəni 1948–1953-cü illər deportasiyası, eləcə də 1988–1991-ci illərdə Qərbi Azərbaycan ərazisindən qovulmuş 50 mindən çox azərbaycanlı ailəsinin müəyyən bir qismi də Naxçıvanda məskunlaşmışdır.

*Qərbi Azərbaycanın mədəni irsi*

**Azərbaycan dilçiliyi tarixində əlamətdar hadisələrdən biri ana dilimizin Ermənistan Respublikası ərazisində tarixən mövcud olmuş şivələrinin tədqiq edilməsidir. Hələ sovet dövründə bu sahədə bir sıra araşdırmalar aparılmış, onların nəticələri məqalələr şəklində nəşr olunmuşdu. Azərbaycan dilinin Ermənistan Respublikası ərazisindəki şivələrinin öyrənilməsinə həsr olunmuş qiymətli tədqiqatlardan biri mərhum dialektoloq Əhmədəli Əliyevin 2023-cü ildə "Elm" nəşriyyatında nəşr olunmuş "Azərbaycan dilinin Meğri şivələri" əsəridir.**

# Azərbaycan dilinin Meğri şivələri




**Bu dəyərli elmi əsər barədə "Türkologiya" jurnalında "Azərbaycan dilinin Meğri şivələri" adlı geniş məqalə ilə çıxış etmiş Bakı Dövlət Universiteti türkologiya kafedrasının professoru, filologiya elmləri doktoru Elbrus Əzizov yazır:**

– Müəllif bu əsəri 1961–1967-ci illərdə Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Azərbaycan dialektologiyası şöbəsinin dissertantı kimi Meğri rayonunun azərbaycanlıların yaşadığı 7 kəndindən topladığı dialektoloji material əsasında dissertasiya işi kimi yazmış, lakin müəyyən səbəblərdən müdafiə etməmişdir.

1967-ci ildə filologiya elmləri namizədi elmi dərəcəsi almaq üçün müdafiəyə tam hazır olan bu əsər yalnız 2003-cü ildə müəllifin sağlığında nəşr olunmuşdur. Monoqrafiyanın birinci nəşrindən 20 il sonra onun təkmilləşdirilmiş ikinci nəşrinin işıq üzü görməsi özlüyündə bu əsərin aktual bir mövzuda yazılmasına və elmi əhəmiyyətini saxlamasına dəlalət edir. Xatırladaq ki, "Azərbaycan dilinin Meğri şivələri" monoqrafiyasının ikinci nəşri ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmişdir.

Monoqrafiyanın ilk nəşrindən fərqli olaraq bu dəfə onun əvvəlində Əhmədəli Əliyevin övladları professor İsmayıl Əliyev və akademik Fikrət Əliyevin "Ön söz əvəzi" yazısı və kitabın redaktoru professor Abbas Abbasovun "İkinci nəşrin redaktorundan" adlanan qeydləri (Azərbaycan və ingilis dillərində) verilmişdir. Kitabın sonunda ilk nəşrdə olan 2 məqalə – Əməkdar mədəniyyət işçisi, şair-dramaturq Hidayətin "Mığrı" məqaləsi (Azərbaycan və ingilis dillərində) və professor Q.Kazımovun "Nüvədi yanğısı və ya toponimlərin yeni ömrü" mövzu aktuallığına görə saxlanılıb.

"Azərbaycan dilinin Meğri şivələri" əsəri giriş, 3 fəsil (I fəsil – "Fonetika", II fəsil – "Qrammatika", III fəsil – "Leksika") və "Lüğət" hissələrindən ibarətdir. Girişdə Meğri rayonunun coğrafi mövqeyi, dialektoloji material toplanmış yaşayış məntəqələri və bölgənin tarixi ilə bağlı olan bəzi məlumatlar verilir. Aydın olur ki, Meğri rayonu şərqdən Azərbaycan Respublikasının Zəngilan rayonu, qərbdən Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu, şimaldan Ermənistan Respublikasının Qafan rayonu ilə, cənub-şərqdən isə Araz çayı boyunca Cənubi Azərbaycanla (Qaradağla) həmsərhəddir.

Rayonun Nüvədi kəndində yerli nüvədililərdən başqa, 1939-cu ildə ləğv edilmiş Ernəzir kəndinin sakinləri də yaşamışlar. Keçmiş Ernəzir kəndinin dialekt xüsusiyyətləri Nüvədi kənd şivəsinin xüsusiyyətlərindən kəskin fərqləndiyinə görə, əsərdə həmin kənd şivəsinə aid olan faktlar kəndin köhnə Ernəzir adı ilə verilir. Şivanizor kəndinə aid olan dailektoloji materiallar isə 1936-cı ildə ləğv edilmiş Tuğut kəndindən bura köçürülmüş azərbaycanlıların şivəsinə aiddir.

Dialektoloji materialların toplandığı 7 kənd bunlardır: Aldərə, Vartanizor (Lök), Ernəzir, Lehvaz, Maralzəmi, Şivanizor. Əsərin yığcam şəkildə yazılmış giriş hissəsində Meğri bölgəsində Şah İsmayıl Xətainin adını daşıyan dağ, XVI əsrin əvvəllərində hökmranlıq etmiş türk sultanı Sultan Səlimin və XVI əsrin sonu XVII əsrin əvvəllərində şahlıq etmiş Səfəvi hökmdarı Şah Abbasın adını



daşıyan karvansaralar haqqında məlumatlar yer almışdır.

**Əhmədəli Əliyevin Azərbaycan dilinin dialekt bölgüsündə Meğri şivələrinin yerini də müəyyənləşdirdiyini qeyd edən professor Elbrus Əzizov bildirir ki, o, Meğri şivələrinin Azərbaycan dilinin cənub dialektləri qrupuna daxil olduğunu, lakin bu şivələrdə həm qərb (nisbətən çox), həm də şərq (qismən) şivələrinin xüsusiyyətlərinin də olduğunu göstərmişdir:**

– Müəllifin tədqiq etdiyi kənd şivələrinə xas olan xüsusiyyətləri dəqiqliklə aşkara çıxarması və elmi bir şəkildə şərh etməsi bu əsərin əsas məziyyəti sayıla bilər. "Fonetika" adlanan birinci fəsildə Meğri şivələrində saitlərin və samitlərin işlənməsində, habelə saitlər ahənginin təzahüründə özünü göstərən xüsusiyyətlər hərtərəfli təhlil edilir. Ə.Əliyev saitlərin variantlarından bəhs edərkən Nüvədi kənd şivəsində Azərbaycan ədəbi dilində işlənən a saitinə təsadüf edilmədiyini qeyd edir və bir sıra misallar göstərir. Müəllifə görə, Nüvədi kənd şivəsində a saiti, məsələn, qara sözünün tələffüzündə a saiti ilə ə saitinin qarışığı keyfiyyətində, balıx sözünün tələffüzündə isə a saiti ilə o saitinin qovuşuğu keyfiyyətində müşahidə edilir. Əlbəttə, bunlar doğrudur və dialekt fonetikası üzərində dəqiq müşahidələrin nəticəsi kimi qəbul edilməlidir (s.30-33). a saitinin Nüvədi kənd şivəsində işlənən variantları ilə bağlı bir fikir də diqqəti cəlb edir. Belə ki, müəllifin ehtimalına görə, a saitinin göstərilən variantları Cənubi Azərbaycanın Qaradağ şivələrində də mövcuddur.

Meğri şivələrinin xarakterik fonetik xüsusiyyətlərindən biri də burun saitlərinin işlənməsidir. Əsərdə Meğri şivələrində yeddi saitin (a, ı, ə, e, o, i, ü) burunda tələffüz edilən variantlarının olduğu, bunların həm söz köklərində, həm də şəkilçilərdə işləndiyi fonetik şərait konkret misallar əsasında izah olunur; məsələn, Meğri rayonunun əksər kənd şivələrində sarıyanız sözündəki ikinci a saiti burunda tələffüz edilir:sarıyaız (Burun saitlərinin Azərbaycan dilinin Şəki, Zaqatala, Qax, Ağdaş, Naxçıvan, Ordubad, Zəngilan, Cəbrayıl və Qubadlı şivələrində işləndiyi məlumdur).

**Məqalə müəllifi daha sonra nəzərə çatdırır ki, Azərbaycan ədəbi dili ilə müqayisədə saitlərin əvəzlənməsi (dəyişməsi) hadisəsinin yayılmasında rayonun müxtəlif kənd şivələrində həm eyniyyət, həm də fərqli xüsusiyyətlər var:**

– Monoqrafiyada təqdim edilən faktik materiallar göstərir ki, saitlərin dəyişməsi hadisəsində həm geniş yayılmış, həm də məhdud şəkildə işlənən xüsusiyyətlər müşahidə edilir. Tarixi fonetika və ayrı-ayrı kənd şivələrinin xarakterik xüsusiyyətlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətli olduğunu nəzərə alaraq biz bu hadisələrdən bəzilərini diqqətə çatdırmağı lazım bilirik: a saitinin ə saitinə keçidi: qərə, qərdəş (əksər şivələr), əlçə, qəçi (Nüvədi k.), qəyə, qəynənə (Şivanizor k.), ərəbə (Lehvaz k.); a saitinin e saitinə keçidi: qeyiş, qeynənə (Ernəzir, Şivanizor, Aldərə, Vartanizor, Maralzəmi); o saitinin a saitinə uyğunluğu: qavın, qavırma, çavqın, av Ernəzir k.); a saitinin o saitinə keçidi: lovaş (Şivanizor, Aldərə, Ernəzir), tomaşa, popax (Şivanizor k.); e saitinin ə saitinə keçidi: əv (əksər şivələr), dəyil (bütün şivələr), gəşniş (Nüvədi, Aldərə) və s.

Əhmədəli müəllimin canlı şivələr üzərindəki müşahidələrinə görə Meğri rayonunun Ernəzir, Aldərə, Lehvaz, Vartanizor və Maralzəmi kənd şivələrində ahəng qanununun (saitlər ahənginin) qismən pozulma hallarına təsadüf olunsa da, bu şivələrdə həm damaq, həm də dodaq ahəngi əsasən möhkəmdir. Ahəng qanununun pozulma hallarına ən çox Nüvədi kənd şivəsində rast gəlinir. Bu şivədə həm arxasıra saitlərindən sonra önsıra saitlərinin gəlməsi, həm də önsıra saitlərindən sonra arxasıra saitlərinin gəlməsi halları daha çox müşahidə edilir (qırxımci, getdıx, getmişıx).

Meğri şivələrində samitlərin işlənməsində də dialekt fonetikasına xas olan səciyyəvi xüsusiyyətlər çoxdur. Bunlardan bəziləri Azərbaycan dilinin cənub şivələrində və qismən qonşu türk dilində müşahidə edilən xüsusiyyətlərdir; məs.: söz əvvəlində k səsinin g səsinə keçidi: geçi, geşmiş (bütün şivələr), gəşniş "keşniş" (Ernəzir, Aldərə, Maralzəmi, Nüvədi), göyül "könül" (Ernəzir, Şivanizor); söz əvvəlində x səsinin h səsinə keçidi: halx "xalq", hala "xala" (Aldərə); söz ortasında y səsinin v səsinə keçidi: göverçin, gövərti, çəvirkgə (Aldərə k.), şivit "şüyüd" (Nüvədi k.) (Müqayisə et: türk dilində: geçmiş, gönül, güvercin, halk, hala "bibi").

**Əsərdə Meğri şivələrinin morfoloji xüsusiyyətlərinin şərhinin də geniş yer tutduğunu söyləyən dilçi alim tədqiq edilən şivələrin morfoloji xüsusiyyətləri haqqında müəyyən təsəvvür yaratmaq məqsədilə müxtəlif kənd şivələrini səciyyələndirənfərqlərdən bəzilərini diqqətə çatdırır:**

– İsimlərin cəm şəkilçisinin -la, -lə şəklində işlənməsinə təsadüf edilməsi: adamla, cəvizlə (Lehvaz k.), kişilə (Ernəzir k.); sifətin azaltma dərəcəsində -cavaz şəkilçisinin işlənməsi: ağcavaz (çit); əl sözünün "beş" mənasında işlənməsi: (bir əl "beş", iki əl "on", üç əl "on beş" və s.); qayıdış əvəzliyinin bilə "öz" sözünə mənsubiyyət şəkilçisinin artırılması ilə düzələn formasının da olması (yönlük və yerlik hallarında): biləmə "özümə", biləndə "özündə" (Aldərə, Ernəzir, Şivanizor); bəzi kənd şivələrində feilin əmr şəklinin II şəxs təkində saitlə bitən feillərə çox vaxt -yna, -yinan (-ynə, -yinən) şəkilçisinin artırılması: -Deyna Baxşalı əmin deyir belədən gə (Ernəzir k.). Bu şəkilçinin Cənubi Azərbaycan şivələrində də olduğunu M.Şəhriyarın "Heydərbabaya salam" əsəri də göstərir (Deynə mənim şair oğlum Şəhriyar).

Feilin indiki zamanında müxtəlif kənd şivələrində -er, -ey şəkilçilərindən və onların fonetik variantlarından istifadə edilməsi: başler, küser (Aldərə, Vartanizor, Maralzəmi); tuxiyey, əkey (Nüvədi k.).

"Azərbaycan dilinin Meğri şivələri" əsərində maraqla oxunan fəsillərdən biri "Leksika" adlanan üçüncü fəsildir. Burada dialekt leksikasının qədim təbəqəsinə aid olan sözlər, müxtəlif tematik qruplara aid olan leksik vahidlər, habelə omonimlər və sinonimlər araşdırılır. Tədqiqata cəlb edilən leksik materialın zənginliyi ilə fərqlənən bu əsərdə dialekt leksikasının tarixi inkişafı baxımından maraq doğuran, müəyyən anlayışları təfərrüatla izah edən sözlər və ya söz birləşmələri şəklində olan adlar mövcuddur: urux "nəsil", nənə "ana", quca "nənə", ənkə "valideyn, ata-ana", qırticə "nəvənin nəvəsi" ulı mirzə "tayfa üzvlərinin ən qədimdə yaşamış nənə və babası", türk "sadə qəlbli, təmiz (adam)", yey "yaxşı", ayın-şayın "arxayın", çaqqı "ucu əyri bıcaq", çəpərə "ətin qabırğa hissəsi", yəxni "qovurma", möv, mev "tənək", gəvərəx "kiçik qovun", gülbəsər "xiyar", gülburnu "kiçik xiyar", umur "ixtiyar", sökəl "xəstə", yanşax "danışqan, çox danışan", danna "sabah", yazın baharı "yazın ilk ayı", qərə yaz "yazın ilk 20 günü", yazam "yaz yunu" və s.

**Məqalənin sonunda professor Elbrus Əzizov xatırladır ki, monoqrafiyanın bütün hissələri 1967-ci ildə tamamlanmışdı, yalnız üçüncü fəslin "Meğridə Azərbaycan toponimlərinin ermənilər tərəfindən özününküləşdirilməsi" adlanan dördüncü yarımfəsil əsərə sonradan əlavə edilmişdir:**

– Burada qədimdən Meğri bölgəsində yaşamış azərbaycanlıların izlərini itirmək məqsədilə mərkəzin dəstəyi ilə bu rayonun erməni rəhbərliyinin törətdiyi əməllər (19 kəndin xaraba qalması, Azərbayacan – türk mənşəli yer adlarının dəyişdirilməsi, tarixi abidələrin məhv edilməsi və s.) açıq və aydın bir şəkildə göstərilmişdir.

Monoqrafiya Meğri şivələrinin mükəmməl lüğəti və tədqiq edilən kənd şivələrinə aid dialektoloji mətnlərlə yekunlaşır. Ə.Əliyevin "Azərbaycan dilinin Meğri şivələri" monoqrafiyasının elmi əhəmiyyəti təkcə dilçiliklə məhdudlaşmır, bu əsər eyni zamanda məhəlli dialekt daşıyıcısı olan əhalinin (azərbaycanlıların) tədqiq edilən bölgənin qədim yerli sakinləri olduğunu göstərən mühüm bir tədqiqatdır.

***Səhifəni hazırladı:***
***Tahir AYDINOĞLU***
***XQ***

# Peşəkar kəşfiyyatçı, təcrübəli çekist

**Həyatda elə insanlar var ki, onlar öz şəxsiyyətləri, xarakterləri, hədsiz peşəkarlıqları, sonsuz vətən sevgiləri ilə sadəcə sağlıqlarında xalqın, cəmiyyətin sevimlisinə çevrilmirlər. Onlar əbədiyyətə qovuşandan sonra da qoyub getdikləri zəngin irs, böyük məktəb, işıqlı xatirələrlə sevgi və ehtiram hissi ilə xatırlanır, daim böyük məhəbbətlə yad edilirlər. Azərbaycan xalqının belə nəhəng şəxsiyyətlərindən biri də peşəkar kəşfiyyatçı, təcrübəli çekist, ulu öndər Heydər Əliyevin silahdaşı Rzaqulu Hüseyn oğlu Quliyevdir.**



## Erməni soyqırımının qurbanları

Rzaqulu Quliyev 1915-ci ilin sentyabr ayında Qərbi Azərbaycanın Zəngəzur mahalında anadan olmuşdur. Lakin 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı başlatdığı irimiqyaslı soyqırım siyasəti Qərbi Azərbaycandakı əksər azərbaycanlılar kimi Rzaqulu Quliyev ailəsini doğma yurd yerini tərk etmək məcburiyyəti qarşısında qoyur. Atası, eləcə də digər yaxın qohumları azyaşlı uşaqların həyatını xilas etmək üçün doğma dədə-baba torpaqlarını tərk etsələr də, onlar erməni faşizminin vəhşilikləri ilə barışmır, bu tarixi ədalətsizliyə silahlı şəkildə müqavimət göstərirdilər. Məhz bu döyüşlərdə Rzaqulu Quliyevin atası Hüseyn bəy, eləcə də əmisi 23 yaşlı Heydər düşmənə ağır zərbələr endirmiş, qeyri-bərabər mübarizədə qəhrəmanlıqla şəhid olmuşdular.

Ermənilər tərəfindən gerçəkləşən soyqırımı zamanı Rzaqulu Quliyevin anası Zərif xanım da haqqın rəhmətinə qovuşmuş, uşaqlar valideyn himayəsindən məhrum olmuşdular. Məhz belə bir ağır zamanda Quliyevlər ailəsinin qohumları Əlirza Əliyev və İzzət xanım Rzaqulu Quliyev və onun bacılarını taparaq öz himayələrinə götürürlər. Bu, faktiki olaraq uşaqların gələcəyini xilas edir, onlar üçün yeni perspektivlər açır.



## İkinci Dünya müharibəsi illərində

Orta məktəbi bitirdikdən sonra 1929-cu ildə əmək fəaliyyətinə başlayan Rzaqulu Quliyev, eyni zamanda, təhsilini də uğurla davam etdirir, ən məşhur ali məktəblərdə təhsil alır. 1940-cı ilə qədər müxtəlif sahələrdə çalışan və bütün bu vəzifələrdə özünü təsdiq edən Rzaqulu Quliyev İkinci Dünya müharibəsinin SSRİ-yə çatması ilə hərbi komissarlıq sistemində fəaliyyətə başlayır. 1940-1944-cü illərdə həm hərbi komissarlıq, həm də prokurorluq orqanlarında çalışan gənc vətənpərvər, 1944-cü ildə dövlət təhlükəsizlik orqanında fəaliyyətə başlayır. Rzaqulu Quliyev ömrünün sonuna qədər bu qurumda çalışır və Azərbaycan dövlətinin təhlükəsizliyinə böyük töhfələr verir.

R.Quliyev dövlət təhlükəsizlik orqanlarında xidmət edərkən, sadəcə, paytaxtda deyil, bölgələrdə də ciddi iş aparır. Şərur, Ordubad və Naxçıvanda peşəkar çekist kimi fəaliyyət göstərən R.Quliyev daha sonra Bakıda – mərkəzi idarədə mühüm tapşırıqlar həyata keçirir, ciddi postlarda təmsil olunur. Rzaqulu Quliyev dövlət



təhlükəsizliyi orqanındakı 35 illik fəaliyyəti dönəmində yüksək orden və medallarla təltif olunmaqla yanaşı, həm də polkovnik rütbəsinə layiq görülür.

## Ulu öndərin sevimlisi

Rzaqulu Quliyevin dövlət təhlükəsizliyi orqanlarındakı fəaliyyəti Heydər Əliyev tərəfindən diqqətlə izlənilir, təqdirlə qarşılanırdı. Heydər Əliyev dövlət təhlükəsizliyi orqanlarında işləyən şəxslərdə əsasən iki mühüm keyfiyyətin olmasını vacib hesab edirdi. Bunlardan biri həqiqi peşəkarlıq, digəri isə əsl vətənprəvərlik idi. Ümummilli lider hesab edirdi ki, bu iki amil dövlət təhlükəsizliyi orqanlarında çalışanlarda vəhdət təşkil etməlidir. Çünki yalnız bu halda müvəffəqiyyət qazanmaq, dövlətin və xalqın təhlükəsizliyini sözün həqiqi mənasında təmin etmək mümkündür. R.Quliyev da məhz bu xüsusiyyətləri – peşəkarlığı və vətənpərvərliyi ilə diqqət çəkir, bununla ətrafdakı digər insanların da rəğbətini qazanırdı.

R.Quliyevin çalışqanlığı, çətin və mürəkkəb situasiyalarda məntiqli qərarlar qəbul etməsi, öz təmkinini heç vaxt itirməməsi ulu öndər Heydər Əliyevin yüksək qiymətləndirdiyi keyfiyyətlər idi. Buna görə də Heydər Əliyev Rzaqulu Quliyevə xüsusi ehtiramla yanaşır, onun fəaliyyətini, dövlət qarşısındakı xidmətlərini yüksək qiymətləndirirdi. Təsadüfi deyil ki, Rzaqulu Quliyev 1982-ci ildə vəfat edən zaman II Fəxri Xiyabanda dəf edilmiş, onunla bağlı rəsmi nekroloq yayımlanmışdır. Həmin nekroloqda deyilirdi:

"Kəşfiyyat orqanlarında məsul vəzifələrdə Rzaqulu Quliyev operativ işi düzgün təşkil etmək və şəxsi heyətlərin səylərini başlıca vəzifələrin yerinə yetirilməsinə səfərbər etmək bacarığı ilə fərqlənmişdir. Dövlət təhlükəsizliyi orqanlarında işlədiyi uzun illər ərzində o, yüksəkixtisaslı kəşfiyyatçı, bacarıqlı təşkilatçı kimi yetişmiş, zəngin təcrübə toplamış, təcrübəsini cavan əməkdaşlara səxavətlə öyrətmişdir".

Rzaqulu Quliyev dövlət təhlükəsizliyi orqanlarında xidmət edərkən gənc kadrlara bu peşənin sirlərini həvəslə öyrədir, öz təcrübəsini onlarla sevə-sevə bölüşürdü. O, çox yaxşı bilirdi ki, dövlətin gələcək təhlükəsizliyi məhz gənclərdən, onların bilik və bacarığından, peşəkarlığından



asılıdır. Buna görə də Rzaqulu Quliyev gənclərə xüsusi həssaslıqla yanaşır, onlar üçün sözün həqiqi mənasında ilham mənbəyi rolunu oynayırdı.

## Sonadək xalqın xidmətində

Rzaqulu Quliyev dövlət təhlükəsizliyi orqanlarından təqaüdə çıxandan sonra da xalqa xidmət etməkdə davam etmiş, ictimai-siyasi müstəvidə ciddi aktivlik sərgiləmişdir. Xalq arasında yüksək nüfuza və hörmətə malik olan Rzaqulu Quliyev şəhər və rayon Xalq Deputatları sovetlərinin deputatı seçilmiş, bu vəzifədə də xalqa ləyaqət və vicdanla xidmət etmişdir. O, "İnturist" Ümumittifaq Səhmdarlar Cəmiyyətinin Bakı Şöbəsinin rəhbəri, habelə, Azərbaycan SSR Nazirlər Soveti yanında Xarici Turizm İdarəsi rəisinin müavini vəzifələrində də fəaliyyət göstərmişdir.

Rzaqulu Quliyev ictimai-siyasi fəaliyyətinə görə də çoxsaylı təltiflər almış, "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" ordenlərinə, SSRİ-nin "Fəxri çekist"i adına layiq görülmüş, Azərbaycan Respublikasının Fəxri Fərmanları ilə mükafatlandırılmışdır.

Peşəkar kəşfiyyatçı təqaüdə çıxdıqdan sonra da gənclərlə aktiv şəkildə işləməkdə davam etmiş, onları yüksək təhsil almağa, dövlət orqanlarının fəaliyyətinə dəstək göstərməyə, özlərini inkişaf etdirməyə həvəsləndirmişdir. Yüzlərlə gənc məhz Rzaqulu Quliyevin məsləhət və tövsiyəsi ilə ali məktəblərdə təhsil almış, müxtəlif dövlət qurumlarında fəaliyyətə başlamışdır. Hansı ki, Rzaqulu Quliyevin işıqlı xatirəsi bu gün də onlar tərəfindən ehtiramla xatırlanmaqdadır.

...Qarşıdan mərhum çekistin anadan olmasının 110 illiyi gəlir. İnanıram ki, Rzaqulu Quliyevin 110 illik yubileyi ələqədar dövlət qurumları tərəfindən yüksək səviyyədə qeyd ediləcək, onun xatirəsi bir kəs daha təntənəli şəkildə yada salınacaq.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı olaraq biz də bütün ömrünü Azərbaycan dövlətinin və xalqının inkişafına, təhlükəsizliyinə həsr edən Rzaqulu Quliyevlə bağlı tədbirlər keçirəcək, gəncləri məhz bu cür şəxsiyyətlərdən öyrənməyə səsləyəcəyik. Gənclərimiz dünənlərinə görə kimlərə minnətdar olduqlarını bilməli və sabahın təhlükəsizliyini keçmişin təməlləri üzərində inşa etməyi bacarmalıdırlar. Çünki bu, keçmişə sahib çıxmaq mədəniyyəti və dərrakəsi ilə yanaşı, həm də inkişaf və təhlükəsizliyin ən etibarlı, ən optimal yoludur!

***Cəlil XƏLİLOV,***
***Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, polkovnik***

# Multikulturalizm Forumunun iştirakçıları Şuşa və Xankəndidə




**Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) ICESCO ilə birgə təşkil etdiyi "Gənclər çoxmədəniyyətli mühitdə sülh quruculuğunun elçiləri kimi" mövzusuna həsr edilən II Beynəlxalq Multikulturalizm Gənclər Forumunun iştirakçıları Şuşa və Xankəndi şəhərlərində olublar.**

Forumun iştirakçıları Xankəndi şəhərinə gələrək, burada aparılan abadlıq-quruculuq işləri ilə tanış olublar. Daha sonra Forum iştirakçıları BBMM-in şöbə müdiri İrina Kuninanın "Azərbaycan Multikulturalizm modelinin xüsusiyyətləri" mövzusunda mühazirəsini dinləyiblər. O diqqətə çatdırıb ki, Azərbaycan multikulturalizminin siyasi əsasları Azərbaycan Respublikasının Konstitusiyasının bəndlərində, qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapıb. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti Azərbaycanı çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı edib.

Forum çərçivəsində iştirakçılar Milli Məclisin üzvü, siyasi elmlər doktoru Rizvan Nəbiyevin "Bakının sülh diplomatiyası: beynəlxalq hüquqda qayıdış hüququ və Azərbaycan konteksti" mövzusunda mühazirəsini də dinləyiblər. Deputat çıxışında 44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar, Prezident İlham Əliyevin sülh təşəbbüsləri, Azərbaycan və Ermənistan arasında paraflanmış sülh sazişinin əhəmiyyəti, həmçinin 2025-ci ildə Vaşinqtonda imzalanmış üçtərəfli bəyannamə barədə danışıb.

Mühazirəçi daha sonra uzun illər davam edən işğalın nəticələri – şəhər və kəndlərin dağıdılması, mina təhlükəsi, 700 minə yaxın məcburi köçkünün geri dönüş hüququ, habelə itkin düşmüş və taleyi naməlum olan 4 minə yaxın şəxsin faciəsi ilə bağlı faktları da qeyd edib. Eyni zamanda 1980-ci illərdə Ermənistandan qovulmuş 300 min azərbaycanlının qayıdış hüququnun təmin olunmamasına toxunaraq bu hüququn beynəlxalq sənədlərlə tanındığını vurğulayıb.

Forum iştirakçıları "Müasir konfliktlər zamanı sülhün bərpasında dinin rolu" mövzusunda interaktiv müzakirə aparıblar.

Sonra iştirakçıların Şuşa şəhərinə ekskursiyası təşkil olunub. Qonaqlar Şuşa qalası, Yuxarı Gövhər Ağa məscidi və Vaqifin məqbərəsini, Cıdır düzünü gəziblər, restavrasiya və bərpa işləri ilə tanış olublar. Ekskursiya zamanı gənclərə Şuşanın Azərbaycanın musiqi və poeziya beşiyi olması, şəhərin çoxmillətli mədəniyyət mərkəzi kimi tarixi əhəmiyyəti, habelə işğaldan azad olunmasından sonra həyata keçirilən yenidənqurma layihələri barədə məlumat verilib.

Forum çərçivəsində "Öz xalqını təqdim et" musiqili axşamlar da təşkil olunub. Burada iştirakçılar öz xalqlarının mədəniyyəti, adət ənənələri ilə bağlı məlumat veriblər.

Xatırladaq ki, "Gənclər çoxmədəniyyətli mühitdə sülh quruculuğunun elçiləri kimi" mövzusuna həsr olunan II Beynəlxalq Multikulturalizm Gənclər Forumuna avqustun 22-də start verilib. Bakı, Şuşa və Xankəndi şəhərlərində keçirilən Foruma dünyanın 50-dən çox ölkəsindən 70-dək iştirakçı qatılıb.

***T. RÜSTƏMLİ***
***XQ***

# Çin su altında süni intellekt mərkəzi qurur



**Çin texnologiya sənayesində yeni və mühüm mərhələni gerçəkləşdirmək üzrədir. Şanxay sahillərindən, təxminən, 10 kilometr məsafədə, dənizin dərinliklərində dünyanın ilk sualtı süni intellekt (AI) məlumat mərkəzinin inşasına start verilib. Bu innovativ layihə yüksək texnoloji inkişafı ekoloji dayanıqlılıq prinsipləri ilə birləşdirməyi qarşısına məqsəd qoyur. "Live Science" portalının məlumatına əsasən, mərkəzin enerji təminatının böyük hissəsi yaxınlıqdakı külək elektrik stansiyasından gələcək. Bu isə layihənin "yaşıl texnologiyalar" konsepsiyasına inteqrasiyasının açıq göstəricisi sayılır.**

Layihəni həyata keçirən "Hailanyun" şirkəti bildirir ki, sualtı yerləşdirmənin ən əsas üstünlüyü soyutma texnologiyasında enerji qənaətidir. Ənənəvi quruda yerləşən məlumat mərkəzləri avadanlığın soyudulması üçün çox böyük həcmdə elektrik enerjisi sərf edir. Sualtı mərkəz isə təbii dəniz suyundan istifadə etməklə enerji istehlakını ən azı 30 faiz azaltmağı hədəfləyir.

İlkin mərhələdə mərkəzdə 198 server şkafı (təxminən 792 AI serveri) quraşdırılacaq. Hesablamalara görə, bu güc GPT-3.5 kimi böyük dil modellərinin təlimi səviyyəsində gündəlik emal işlərini həyata keçirməyə imkan verəcək. Rəsmi plana əsasən, mərkəz artıq sentyabr ayında istismara veriləcək.

Bununla belə, hər bir yeni texnologiyada olduğu kimi, sualtı məlumat mərkəzləri də bəzi risklər doğurur. Ekoloqlar xəbərdarlıq edirlər ki, dəniz suyunun istiləşməsi, elektromaqnit təsirlər və davamlı texnoloji səs-küy dəniz ekosistemlərinə mənfi təsir göstərə bilər. "Hailanyun" şirkəti isə layihədə ekoloji risklərin ciddi şəkildə qiymətləndirildiyini və ətraf mühitə təsirlərin minimuma endirildiyini iddia edir.

Eyni zamanda, təhlükəsizlik məsələsi diqqət mərkəzindədir. Dənizin dibində yerləşən obyektlər xarici müdaxilələrə və mümkün kiberhücumlara qarşı müəyyən həssaslığa malik ola bilər. Şirkət bildirir ki, bunun qarşısını almaq üçün fiziki və kibernetik müdafiə protokolları tətbiq olunur.

Ekspertlərin fikrincə, bu layihə yalnız texnoloji innovasiya deyil, həm də Çinin qlobal texnologiya liderliyi ambisiyalarının bariz göstəricisidir. Son illər Çin süni intellekt, kvant hesablama, 5G və yaşıl enerji texnologiyaları sahələrində milyardlarla dollar sərmayə yatıraraq Qərb dövlətlərinə alternativ mərkəzə çevrilməkdədir. Sualtı məlumat mərkəzi kimi layihələr Pekinin həm strateji müstəqilliyini, həm də qlobal bazarlarda nüfuzunu gücləndirməyi hədəfləyir.

Bu addım Çinin yalnız daxili tələbatı qarşılamaqla kifayətlənməyib, həm də süni intellekt infrastrukturunun ixrac potensialı yaratmaq istədiyini göstərir. Çünki yaxın gələcəkdə enerji qənaətli və ekoloji uyğun məlumat mərkəzlərinə tələbat sürətlə artacaq.

Analitiklərin proqnozlarına görə, belə təşəbbüslər Çini 2030-cu illərə qədər dünyanın aparıcı süni intellekt güclərindən birinə çevirə bilər. Bu isə ABŞ və Avropa ilə rəqabətdə yeni mərhələnin başlanması deməkdir.

Beləliklə, Çin dənizin dibində inşa etdiyi məlumat mərkəzi ilə yalnız texnologiya sahəsində deyil, həm də qlobal siyasi-iqtisadi güc balansında yeni mövqe qazanmağa çalışır. Bu isə gələcək onillikdə beynəlxalq rəqabətin əsas istiqamətlərindən birinə çevrilə bilər.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 180 (30874) 27 avqust 2025-ci il, çərşənbə

## İDMAN

## Karateçilərimizin uğuru



**Azərbaycan karateçiləri "Marmara Cup" beynəlxalq turnirində komanda hesabında 1-ci yeri tutublar.**

Azərbaycan Karate Federasiyasının (AKF) mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, yarışda ölkəmizi təmsil edən (uşaqlar, yeniyetmələr, gənclər və böyüklər arasında) idmançılardan Fərid Savadov (60 kq), Rəşid Süleymanov (75 kq), Nuran Rzazadə (67 kq), Asiman Qurbanlı (+84 kq) qızıl, Mədinə Sadıqova (55 kq), Fariz Şahbazov (60 kq), Aysu Əliyeva (61 kq) və Hüseyn Məmmədli (67 kq) gümüş, Fatimə Cəbrayılova (50 kq), Nəzrin Piriyeva (55 kq), Turqut Həsənov (84 kq), Fərid Şahbazlı (84 kq) və Vahid Həsənov (+84 kq) bürünc medal qazanıb.

Millimiz turnirdə AKF-nin baş məşqçisi Şahin Atamovun rəhbərliyi altında çıxış edib.

## Velosiped məşqçiləri üçün kurslar



**Respublika Velotrekində Azərbaycan Velosiped İdmanı Federasiyası (AVİF), Elm və Təhsil Nazirliyinin, eləcə də Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə yeni layihəyə start verilib.**

Layihə çərçivəsində bölgələrdə velosiped idmanının inkişafı istiqamətində fəaliyyət göstərəcək məşqçilər üçün xüsusi təlim kurslarının açılışı olub.

Təlimlərin əsas məqsədi regionlarda velosiped idmanının populyarlaşdırılması, gənclərin bu sahəyə cəlb olunması və ixtisaslı mütəxəssislərin hazırlanmasıdır. Kurslarda iştirak edən məşqçilərə həm nəzəri biliklər, həm də praktiki bacarıqlar öyrədiləcək.

Layihənin təşkilatçıları hesab edirlər ki, bu cür kurslar bölgələrdə idmanın inkişafına yeni təkan verəcək, həmçinin ölkədə peşəkar velosipedçilərin yetişdirilməsinə töhfə olacaq.

## Sağlam həyat – yüksək ruh



**Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə paytaxtın müxtəlif parklarında hər gün səhər idman məşqləri keçirilir. Nazirlikdən verilən məlumata görə, Zabitlər parkı, Mərkəzi park və Dədə Qorqud parkında tayçi, gimnastika və yoqa üzrə peşəkarların iştirakı ilə təşkil olunan məşqlər eyni vaxtda baş tutur.**

Səhər məşqlərinin əsas məqsədi paytaxt əhalisinin günə gümrah başlaması, onları sağlam həyat tərzinə həvəsləndirmək, idmanı gündəlik fəaliyyətin bir hissəsinə çevirmək və açıq havada aktiv istirahət imkanlarını artırmaqdır. Məşqlərdə müxtəlif yaş qruplarından insanlar iştirak edə bilərlər.

Qeyd edək ki, səhər məşqləri həftəiçi 6 gün, saat 07:00-dan 08:00-dək davam edir. İştirak üçün heç bir qeydiyyat və ödəniş tələb olunmur.

*Qabil YUSİFOĞLU*
*XQ*

## Mənəvi dəstək

# Müzəffər "Qarabağ"



## *Həlledici oyunu böyük inamla gözləyirik*

**Bu, artıq tarixi nailiyyətdir. Azərbaycan futbolunun qürur mənbəyi Ağdam komandası Çempionlar Liqası turnirinin təsnifat görüşlərində və pley-off mərhələsinin 1-ci raundunda ardıcıl 5 oyunda 5 qələbə qazanıb. Avropanı heyrətləndirməkdə davam edən təmsilçimizin öz ölkələrinin çempionları ilə kəskin rəqabətdə orta hesabla hər oyunda 3-ə yaxın qol vurduğunu da bir daha fəxarətlə xatırlasaq, Qurban Qurbanov və komandası, həqiqətən, gözəl nəticə ilə şanlı tarix yazır.**

"Qarabağ"ın hələlik sonuncu, bir həftə əvvəl Budapeştdə fədakar oyunla qazandığı ardıcıl beşinci qələbə bir də ona görə çox qiymətlidir ki, birinci hissədə macarların xeyrinə qeydə alınan bir top üstünlük çempionumuzu ruhdan salmayıb, onun möhkəm iradəsinə və əzmkar mübarizəsinə bir sınaq oldu. Nəticədə komanda 15 dəqiqəlik istirahətdən sonra oyunda ciddi dönüş yaratmaq üçün özündə kifayət qədər qüvvə tapdı və ilk 45 dəqiqədə qapısında gördüyü qola ikinci hissədə üçqat artıqlaması ilə cavab verdi. Hər üçü sol ayaqla vurulan qollardan ikisinin müəlliflərinin müdafiəçilər Marko Yankoviçlə Medinanın olmaları isə təsdiq etdi ki, "Qarabağ"da qolları təkcə hücumçular və orta xətt oyunçuları vurmurlar. Oyunun sonlarına yaxın meydana daxil olan Musa Qurbanlının baş məşqçi kimi Avropa futbolunda hörməti getdikcə artan atasının etimadını doğrultması da üstünlüyümüzü möhkəmləndirən olduqca vacib məqam idi.

Ağdam komandasının üç il ərzində Macarıstan paytaxtında bu ölkənin ən məşhur klublarından biri üzərində qazandığı 3:1 hesablı iki qələbə diqqətəlayiq faktdır.

Bakıda bugünkü görüş hər iki tərəf üçün həlledici oyundur. Statistik göstəricilər iki raunddan ibarət döyüşün birinci yarısından sonra Azərbaycan klubunun üstün olduğunu bildirir. Niderlandın " Utrext" klubu ilə birlikdə hamıdan çox qələbə qazanan, müdafiədə etibarlı, hücumda məhsuldar oyunu ilə özü haqqında xoş təəssürat yaradan "Qarabağ" məqsədə rəqibindən daha yaxındır. "Doğma divarlar" amili də onun tərəfindədir.

Bütün bunları nəzərə aldıqda elə görünür ki, avqustun 19-da Budapeştdə Çempionlar Liqasının əsas mərhələsinin qapısını aralayan çempionumuz bu axşam Bakıda həlledici döyüşdə son yarım addımı da inamla atıb, Liqanın baş meydanında özünə layiqli yer edəcək.

Belə nikbinliklə danışarkən təbii ki, "Ferentsvaroş"un tamam başqa fikirdə olduğunu da unutmuruq. Komandanın düşərgəsindən yayılan xəbərlərdən aydın olur ki, bu kollektiv – rəhbərlik də, məşqçi və oyunçular da hələ təslim olmadıqlarını, Bakıda daha mükəmməl mübarizə ilə ümumi yekunda cütün taleyini öz xeyirlərinə həll edə biləcəklərini söyləyirlər. Onların fikirlərinə hörmətlə yanaşırıq. Həqiqətən, döyüş hələ bitməyib. Sadəcə, biz bu qənaətdəyik ki, "Qarabağ" da hara gəlib çatdığını yaxşı bilir və qarşıdakı oyunun məsuliyyətini tam dərk edir. Komanda səfərdə çətinliklə qazandığı 2 top üstünlüyü evdə itirməyi ağlına belə gətirmir.

Çətin işin birinci yarısı yüksək məsuliyyətlə, böyük müvəffəqiyyətlə yerinə yetirilib. Qalır daha bir uğurlu cəhd göstərib, Çempionlar Liqasının əsas mərhələsinin qapısını taybatay açmaq. Bunun naminə son anadək yorulmadan döyüşməyə dəyər.

Uğurlar, "Qarabağ"!

Böyük qələbələrə öyrətdiyin bütün Azərbaycanın gözü saat 20:45-dən səndə olacaq.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# "Qara dəliklər"in sirri açılacaqmı?



**Fiziklərin yeni araşdırması kainatın genişlənməsini sürətləndirən sirli qüvvənin - qaranlıq enerjinin mənşəyi ilə bağlı mövcud nəzəriyyələri dəyişə bilər. "Physical Review Letters" jurnalında dərc olunan tədqiqatın nəticələrinə görə, "qara dəliklər" qaranlıq enerjinin yaranmasında əsas rol oynaya bilər.**

Qaranlıq enerji uzun illərdir ki, kosmologiyanın ən müəmmalı anlayışlarından biri olaraq qalır. Alimlər ABŞ-da yerləşən Kitt-Pik Milli Rəsədxanasında quraşdırılmış DESI cihazının məlumatlarından istifadə edərək "qara dəliklər"in ölmüş ulduzların maddəsini qaranlıq enerjiyə çevirməsi nəzəriyyəsini yoxlayıblar.

Bu nəzəriyyə - kosmoloji əlaqəli qara dəliklər hipotezi (CCBH) - qaranlıq enerjinin spontan şəkildə deyil, Böyük partlayışdan sonra ulduzların yaranması və ölümü nəticəsində yığıldığını iddia edir.

DESI cihazından əldə olunan məlumatlar göstərir ki, qaranlıq enerjinin gücü zamanla dəyişir. Bu isə indiyədək qəbul edilmiş ΛCDM standart kosmoloji modelinə ziddir. Əgər CCBH hipotezi təsdiqlənərsə, bu, Habl sabitinin - kainatın genişlənmə sürətinin - niyə dəyişdiyini izah edə bilər.

Tədqiqat, həmçinin kainatın enerji balansında maddənin miqdarının azalması ilə genişlənmənin sürətlənməsi arasında əlaqə qurur. Maddə cazibə qüvvəsi ilə genişlənməni ləngidir, qaranlıq enerji isə onu sürətləndirir. "Qara dəliklər" vasitəsilə maddənin qaranlıq enerjiyə çevrilməsi bu balanssızlığı izah edə bilər.

Yeni ulduzların yaranma sürəti Hubble və Webb teleskopları ilə dəfələrlə müşahidə olunub və bu, qaranlıq enerjinin yaranma sürəti ilə üst-üstə düşür. Bundan əlavə, DESI cihazının məlumatları ilə neytrino hissəcikləri üzərində aparılan eksperimentlər arasında əvvəllər mövcud olan ziddiyyətlər də bu modellə aradan qalxır.

Alimlər bildirirlər ki, "qara dəliklər"in qaranlıq enerjinin mənbəyi olması nəzəriyyəsi ümidvericidir. Lakin bu hipotezin tam təsdiqlənməsi üçün daha çox müşahidəyə və dəqiq məlumatlara ehtiyac var.

Əgər bu nəzəriyyə təsdiqlənsə, müasir astrofizikada inqilabi dönüş nöqtəsi ola və kainatın təkamülünə dair anlayışlarımızı kökündən dəyişə bilər.

*XQ*

## Yeni mikroskop aydınlatmanı 2 dəfə artırır

**Cənubi Koreyada ASAN Tibb Mərkəzinin və Ulsan Universitetinin professoru Kim Jun Kimin rəhbərlik etdiyi tədqiqat qrupu canlı hüceyrələrin ultra aydın təsvirini almaq üçün yeni üsul hazırlayıb. Bu məqsədlə iki fotonlu mikroskopiyadan istifadə edilib və əldə olunan görüntülər xüsusi alqoritmlərlə emal olunub.**



Tədqiqat Electronics jurnalında dərc olunub. İki fotonlu mikroskopiya canlı toxumalara minimal ziyanla daha dərin nüfuz etməyə imkan verir. Görüntülərin bulanıqlaşmasının qarşısını almaq üçün alimlər 3D çaplı xüsusi tutucudan istifadə ediblər. Bu qurğu toxumanı yumşaq şəkildə sabitləyərək vizuallaşdırmanı dəqiqləşdirir.

Daha sonra tətbiq edilən alqoritmlər "çirkliyi" azaldır, ofsetləri düzəldir və Super Resolution Radial Fluctuations (SRRF) metodunun köməyi ilə təsvirlərin aydınlığını artırır. Nəticədə, ayırdetmə qabiliyyəti, təxminən, 2 dəfə yüksələrək 250 nanometrdən aşağı səviyyəyə çatıb.

Mütəxəssislərin fikrincə, bu texnologiya Raman spektroskopiyası ilə birləşdirildikdə xərçəngin erkən mərhələdə daha dəqiq diaqnostikasına imkan verə bilər. Bundan əlavə, yeni metod dərmanların hazırlanmasını sürətləndirmək və xüsusilə mitoxondrilərin qorunmasına yönəlmiş müalicə strategiyalarını inkişaf etdirmək potensialına malikdir.

*S.ELAY*
*XQ*

## Hava

## Şərq rayonlarında leysan yağacaq, dolu düşəcək

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 20-24, gündüz 27-30 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 762 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-80, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi şərq rayonlarında qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 21-26, gündüz 34-39, dağlarda gecə 15-20, gündüz 25-30 dərəcə isti olacaq.

*XQ*



"F.S" ASC səhmdarlarının nəzərinə!

30 sentyabr 2025-ci il saat 14.00-da "F.S" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir. Növbədənkənar ümumi yığıncaqda aşağıdakı məsələlər müzakirə ediləcəkdir:

1. ASC-nin bölünməsi və bölünmə balansının təsdiq edilməsi.
2. ASC-nin bölünmüş əmlakının təhvil verilməsi qaydasının müəyyən edilməsi.
3. ASC-nin bölünməsi nəticəsində yenidən təşkil edilən MMC-lərin təsis olunmasına və nizamnamə kapitalının əmlak şəklində formalaşmasına razılığın verilməsi.
4. ASC-yə məxsus səhmlərin ləğv edilməsi və dövriyyədən çıxarılması.
5. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan-13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə telefonu- 012-564-25-76.

Ünvan- Bakı şəhəri, Nərimanov rayonu, Dərnəgül qəsəbəsi, 1999-cu məhəllə.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3588
SİFARİŞ 1731
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00